ASC

# HƏR BİRİ QƏHRƏMANDIR

## 27 SENTYABR-10 NOYABR

ASCO

# HƏR BİRİ QƏHRƏMANDIR

## 27 SENTYABR-10 NOYABR

## II CİLD

BAKI - 2022

Vətən müharibəsinin Zəfərimizlə başa çatmasında təbiət etibarı ilə cəsur, qorxmaz dənizçilərin də xidməti az olmayıb. ASCO-nun təşəbbüsü və dəstəyi ilə ərsəyə gələn "Hər biri qəhrəmandır" kitabı taleyini dəniz nəqliyyatı ilə bağlayanların, yerə-göyə meydan oxuyan dalğalarla "döyüşlər"dən qalib çıxmağı bacaranların müstəqil Azərbaycanımızın ərazi bütövlüyünün təmin olunması uğrunda savaşda göstərdikləri şücaətdən bəhs edir.

ISBN:

*Vətən müharibəsində*
*qanı və canı ilə tarix yazan*
*dənizçilərə*
*böyük ehtiramla!*

*Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün bu, iftixar nöqtəsidir. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Amma tək Şuşa yox, Laçın dağları da belə əzizdir. Heç vaxt biz Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o bulaqları, Kəlbəcərin o İsti suyu. Biz onlarsız yaşaya bilmərik. Təsəvvür edə bilmərik.*

**Heydər ƏLİYEV**

Azərbaycan xalqının Ümummilli Lideri

ARIX YAZAN ŞƏHİDLƏRİMİZ
QDA ŞƏHİD QANI ÇIXAN
LƏRİ, SİZ TORPAĞA DEYİL
FN OLUNMUSUNUZ!

*İkinci Qarabağ müharibəsi şanlı tariximizin parlaq səhifəsidir. Azərbaycan xalqı bütün gücünü səfərbər edib bu şanlı missiyanı yerinə yetirmişdir. Mən işğal dövründə dəfələrlə deyirdim ki, hər bir Azərbaycan vətəndaşı bu müqəddəs günü öz işi ilə, öz əməli ilə yaxınlaşdırmalıdır. Mən demişdim ki, heç vaxt Azərbaycan xalqı işğalla barışmayacaq və biz işğala son qoymaq üçün bütün gücümüzü səfərbər edib bir nöqtəyə vuraraq düşməni tarixi torpaqlarımızdan qovduq.*

*2003-cü ildə ilk dəfə Prezident vəzifəsinə seçilən zaman Azərbaycan xalqına müraciət edərək demişdim ki, nəyin bahasına olursa-olsun, biz öz tarixi torpaqlarımızı düşmənin əlindən alacağıq. İstər sülh yolu ilə, istər müharibə yolu ilə və belə də oldu. Uzun illər aparılan sülh danışıqları heç bir nəticə vermədi. Nəticə sıfra bərabər oldu. Əksinə, düşmən daha da azğınlaşmış, qudurmuşdu. Əgər işğalın ilk illərində hələ danışıqlarla bağlı Azərbaycan xalqında və məndə hər hansı bir ümidlər var idisə, son vaxtlar bu ümidlər tamamilə aradan qaldırıldı. Ermənistan və onun havadarları bu işğalı əbədi etmək istəyirdilər. Onlar hesab edirdilər ki, əgər bizim torpağımızı 30 ilə yaxın işğal altında saxlaya biliblərsə, bundan sonra da torpaqları əbədi olaraq işğal altında saxlayacaqlar. Amma səhv etdilər. Onlar bilməli idilər ki, biz heç vaxt bu vəziyyətlə barışmayacağıq. Bilməli idilər ki, biz düşməni torpağımızdan nəyin bahasına olursa-olsun qovacağıq.*

**İlham ƏLİYEV**

Azərbaycan Respublikasının Prezidenti

*Sözlə ifadə edə bilmədiyim, daxilimizdə, qəlbimizdə yaşayan hisləri bizə bəxş edən Uca Tanrıya şükürlər olsun. Hər bir azərbaycanlı bu Qələbəni gözləyirdi, hər bir azərbaycanlı haqlı olaraq bu Qələbə ilə fəxr edir!*

*Müzəffər Ordumuza, qəhrəman əsgər və zabitlərimizə, mərd və qorxmaz, hər zaman sözünün sahibi olan Prezidentimizə "çox sağ olun" deyirəm!*

*Unudulmaz şəhidlərimizə Allah qəni-qəni rəhmət eləsin. Əyilməz iradəli, torpaq və ləyaqət uğrunda ölümə gedən övladlar böyütmüş ana və atalar qarşısında baş əyirəm.*

*Azərbaycan xalqı, Azərbaycan vətəndaşı, gözün aydın, başın daim uca olsun!*

*Biz əl-ələ verib, çətin və şərəfli yolu birlikdə addımlayaraq Qələbə zirvəsinə ucalmışıq! Qalib xalq kimi birliyimizi və müstəqil Azərbaycanımızı qorumaq bizim müqəddəs borcumuzdur! Uca Tanrı Azərbaycan xalqını və Azərbaycanı qorusun!*

**Mehriban ƏLİYEVA**

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti

# ÖN SÖZ ƏVƏZİ

*Əbədi səcdəgahımızdır Vətən! Elə varlığı böyük xoşbəxtlikdir. Hər şeyi əzizdir. Vətən onu sevmək, qorumaq, lazım gəlsə, yolunda canından keçmək üçündür. Bir vaxtlar ulu babalarımız, sonralar atalarımız, indi isə oğullarımız hər qarışı üçün canlarından keçməyə hazır olduqları kimi! Vətən əcdadlarımızın bizə əmanətidir. Biz də gələcək nəslə ötürməliyik. Həm də bütöv, kəsirsiz, bir tikəsi belə əskik olmadan!*

*Yurdumuzun beşdə biri xain qonşularımızın tapdağı altında olanda, dünyada ədalətin mövcudluğuna olan inamımız da, işğalçının ağla gələcəyinə olan ümidimiz kimi puça çıxdı. Himayədarlarının köməyi ilə zəbt etdikləri əzəli yaşayış məskənlərimizi özününküləşdirməyə çalışan erməni işğalçılarınıotuzildəözadıiləçağıranolmadığındandüşmənin həyasızlığı elə bir həddə çatdı ki, bizi yeni ərazilərimizi işğal edəcəkləri ilə hədələməkdən belə çəkinmədilər. Ümid yalnız Azərbaycan əsgərinə idi və torpaqlarımızın bir qarışının belə yağıda qalmayacağını dəfələrlə ən yüksək kürsülərdə bəyan edən Ali Baş Komandanımız düşmənin növbəti təxribatı zamanı "İrəli!" əmri verdi.*

*Beləcə, 27 sentyabr – 10 noyabr tarixləri xalqımızın şan və şərəf salnaməsinə Vətən müharibəsi kimi yazıldı.*

*Əli silah tutan, döyüş qabiliyyəti olan hər kəs ön cəbhəyə can atdı. "Dənizdən-dənizə böyük Ermənistan" yaratmaq istəyi ilə yaşayan məkrli qonşularımızın çirkli planlarını birdəfəlik dəfn etmək üçün "Dəmir yumruğ"a çevrildik. Vətən sevgimiz, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müdrik siyasəti, Ordumuzun rəşadəti ərazi bütövlüyümüzü təmin etdi. 44 gün davam edən Vətən müharibəsi şanlı Zəfərlə başa çatdı. İşğal altında olan torpaqlarımızda üçrəngli bayrağımızın dalğalanmasının sevincini yaşadıq. Heç bir sevincə bənzəməyən bir sevinc. Dadı başqa, duzu başqa, ləzzəti başqa. Qalib xalqın sevinci...*

*Bu savaşda tək deyildik. Tarixi ədalət də, beynəlxalq hüquq da bizim tərəfimizdə idi. Ulu Tanrı da müqəddəs mübarizəsində xalqımıza yar oldu.*

*Ordumuzun Zəfər yürüşü qəlbimizi dağa döndərdi. Qələbəmiz istədiyimiz kimi – əzəmətli alındı.*

*Bu gün həm də ona görə sevinirik ki, təxminən otuz illik işğala son qoyan və ərazi bütövlüyümüzün bərpası ilə nəticələnən bu Qələbədə dənizçilərimizin də xidməti az*

*deyil. Taleyini dəniz nəqliyyatı ilə bağlayanların böyük əksəriyyəti Vətənin köməyə ehtiyacı olanda çağırış vərəqəsi gözləmədi, savaşın ilk günündən özləri kimi cəsur, igid oğullarla çiyin-çiyinə verdilər, şücaət göstərdilər.*

*Vətən müharibəsində iştirak edən, rəşadətli Ordumuzun əsgəri və ya zabiti kimi yazdıqları Zəfərlə bizə başucalığı, Odlar Yurduna şərəf gətirən qəhrəman dənizçiləri tanıtdırmaq borcumuzdur.*

*Onların bəzilərinin – ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçən 9 qəhrəman dənizçinin, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyində çalışan və Vətən müharibəsində düşmənə qan udduran həmkarlarımızın, Azərbaycan Dövlət Dəniz Akademiyasının, Azərbaycan Dənizçilik Kollecinin məzunlarının döyüş şücaətindən ASCO-nun təşəbbüsü və dəstəyi ilə 2021-ci ildə işıq üzü görən "Hər biri qəhrəmandır" kitabında söz açmışdıq.*

*Diqqətinizə təqdim etdiyimiz bu nəşri isə "Hər biri qəhrəmandır" kitabının davamı – ikinci hissəsi də saymaq olar. Elə buna görə, ona yeni ad fikirləşmədik.*

*Bu kitab ASCO-da çalışanların İkinci Qarabağ savaşında şəhidlik zirvəsinə ucalan doğmaları və ixtisasca dənizçi olan, Zəfərdən sonra ASCO-nun donanmalarına, sahil müəssisə və təşkilatlarına işə qəbul edilən Vətən müharibəsi iştirakçılarından bəhs edir.*

*Hər iki nəşr qazandıqları Qələbə ilə bizə sonsuz qürur və fəxarət hissi bəxş edənlərə minnətdarlığımızla yanaşı, həm də müstəqil Azərbaycanımızın suverenliyi, ərazi bütövlüyünü təmin etmək kimi müqəddəs amal uğrunda canını və qanını əsirgəməyənləri heç vaxt unutmayacağımızın təsdiqidir. Unutmağa haqqımız da yoxdur. Möhtərəm Prezidentimizin sözləri ilə desək: "Biz İkinci Qarabağ müharibəsini heç vaxt unutmamalıyıq. İşğal dövründə törədilmiş vəhşilikləri unutmamalıyıq və unutmayacağıq. Biz şəhidlərimizin xatirəsini daim öz qəlbimizdə yaşadacağıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin, onların qəhrəmanlığı və minlərlə, on minlərlə Azərbaycan əsgər-zabitinin qəhrəmanlığı, peşəkarlığı sayəsində biz işğala son qoyduq, doğma torpaqlarımızı azad etdik, tarixi Zəfər çaldıq və bu Zəfər bizim tariximizdə əbədi qalacaq. Azərbaycan xalqı artıq dünyada müzəffər xalq kimi, Azərbaycan dövləti isə müzəffər ölkə kimin tanınır."*

*Uca Yaradan xalqımıza daha böyük nailiyyətlər nəsib etsin!*

ƏLİYEV ANAR
VAQİF OĞLU
28.08.1980-23.10.2020
QASIMOV RAMİZ
VAQİF OĞLU
17.02.1975-22.10.2020
İBRAHİMLİ ADİL
ASGM OĞLU
09.09.1992-07.11.2020
BƏDƏLOV VALEH
VAHİB OĞLU
10.10.1990-07.10.2020
XALIQOVA NARİN
TEYMUR QIZI
17.12.2019-17.10.2020
NOĞUYEV SURXAY
ƏBDÜL OĞLU
19.12.1988-09.11.2020
CƏFƏROV RAMİZ
SUBHAN OĞLU
10.12.1974-11.11.2020
İBRAHİMLİ NAİL
NARİMAN OĞLU
04.03.1994-12.11.2020

# VƏTƏN CANDAN ŞİRİNDİR

# Elşən Qulu oğlu Quluzadə

**“Vətən uğrunda”** medalı

**“Cəsur döyüşçü”** medalı

**“Cəbrayılın azad olunmasına görə”** medalı

**“Füzulinin azad olunmasına görə”** medalı

**“Şuşanın azad olunmasına görə”** medalı

**“Kəlbəcərin azad olunmasına görə”** medalı

# *Neçə igidə tay olub...*

Vətənini canından artıq sevib. İşğal altında olan torpaqlarımızın isə yalnız döyüş yolu ilə qayıda biləcəyinə inanıb. Özü bu müqəddəs amal uğrunda əlinə silah almağa həmişə hazır olub. Dostlarını da buna hazır olmağa çağırıb. Emili deyirəm. Neçə igidə tay Emili!

Elşən Qulu oğlu Quluzadə 1998-ci il oktyabrın 20-də Füzuli rayonunun İkinci Mahmudlu kəndində dünyaya göz açıb.

Füzuli rayonunun Qarabağ kənd tam orta məktəbində təhsil alıb.

2015-ci ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecinə daxil olub.

2016-cı ildə Vətən qarşısında borcunu yerinə yetirmək üçün Ordu sıralarına yollanıb. Müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra qəlbində hərbçi olmaq istəyi baş qaldırıb. Elşən də qəlbinin səsinə qulaq asıb.

Vətən müharibəsi başlayanda Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının hərbi qulluqçusu olan Elşən Quluzadə çavuş kimi ilk gündən sinəsini düşmənə sipər edib. Cəbrayıl və Füzuli rayonlarının işğal altında olan kəndlərinin və strateji yüksəkliklərinin, Hadrutun azad edilməsində, düşmənin keçilməz saydığı sədlərin yarılmasında igidliyi, şücaəti ilə fərqlənib.

2020-ci il oktyabrın 11-də Hadrut istiqamətində gedən qızğın döyüşlərdə başından güllə yarası alıb. 27 gün komada qaldıqdan sonra ayılsa da, həkimlərin bütün səylərinə baxmayaraq bu cəsur gənci ölümün pəncəsindən almaq mümkün olmayıb və 2021-ci il yanvarın 21-də ən ali məqama – şəhidlik zirvəsinə ucalıb.

Qədirbilən xalqımız bu cəngavər oğlunu heç vaxt unutmayacaq, hər zaman böyük minnətdarlıq duyğusu ilə yad edəcək. Çünki müqəddəs amallar uğrunda canından keçənlər unudulmur.

Tanıyanlar deyirlər ki, vətənpərvər, igid olduğu qədər də səmimi, dostcanlı olub Elşən.

Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə Elşən Quluzadə ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

# Elçin Vaqif oğlu Həsənli

**“Vətən uğrunda”** medalı

**“Cəsur döyüşçü”** medalı

**“Şuşanın azad olunmasına görə”** medalı

# *Atasının oğlu haqqında deyə biləcəyi ən yaxşı sözləri, övladı canından artıq istədiyi Azərbaycana sevgisi ilə deyib*

Xatirəsi uca tutulan və hər zaman ehtiramla anılacaq qəhrəmanlarımızdandır Elçin.

Elçin Vaqif oğlu Həsənli 1993-cü il iyunun 16-da Ağstafanın Həsənsu kəndində doğulub.

1999-cu ildə Bakının Suraxanı rayonundakı Səməd Abdullayev adına 290 nömrəli tam orta məktəbin birinci sinfinə daxil olub, 2010-cu ildə Nəsimi rayonundakı Akif Abdullayev adına 211 nömrəli tam orta məktəbi bitirib.

2010-cu ildə Azərbaycan Texniki Universitetinin "Elektrotexnika və energetika" fakültəsinə daxil olub və dörd il bu təhsil ocağında "Elektrik mühəndisliyi" ixtisasına yiyələnib.

2014-cü ildə Azərbaycan Texniki Universitetinin magistratura pilləsinə daxil olub və 2017-ci ildə "Elektrik mühəndisliyi" ixtisasını fərqlənmə diplomu ilə bitirib.

2014–2015-ci illərdə Ordu sıralarında müddətli həqiqi hərbi xidmət keçib. Deyilənlərə görə, komandirlərinə yaxşı əsgər, əsgərlərə yaxşı yoldaş olub.

2017-ci ildə İtaliyanın Roma şəhərində UNİNETTUNO Universitetində "Bərpa olunan enerji qaynaqları" üzrə kursda iştirak edib.

2018-ci ildə "Şirvan" ASC-də mühəndis işləyib, Sabirabadda "ASAN Xidmət"in əməkdaşı olub.

2019-cu ildə Memarlıq və İnşaat Universitetinin doktoranturasına qəbul olub. Elmi nəşrlərdə dərc olunan məqalələri maraqla qarşılanıb.

Vətən müharibəsi başlayanda "Öncə Vətən!" düşüncəsi ilə bütün işlərini kənara qoyaraq könüllü cəbhəyə yollanıb. Füzuli, Cəbrayıl, Qubadlı və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə şücaət göstərib. Noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhidlik zirvəsinə ucalıb. Xırdalan şəhərində dəfn olunub.

"Elçin bacarıqlı, işgüzar, hər şeyin yerini bilən oğul idi. Şəhid olanda ürəyinin üstündən Azərbaycan bayrağı tapılıb. Elçinlə fəxr edirik", – deyə anası bildirib.

Atası Vaqif Həsənov Azərbaycan Dövlət Dəniz Akademiyasında kafedra müdiridir. Professorun fikrincə, oğlu haqqında deyə biləcəyi ən yaxşı sözləri, övladı Vətən müharibəsində igidliyi, canından artıq istədiyi Azərbaycana sevgisi ilə deyib.

Elçin Həsənlinin ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında göstərdiyi igidlik və şücaət Azərbaycan Prezidenti tərəfindən "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Şuşanın azad olunmasına görə" medalları ilə qiymətləndirilib.

# Cavidan Mirzəağa oğlu Ağayev

**“Vətən uğrunda”** medalı

**“Xocavəndin azad olunmasına görə”** medalı

# *Onun üçün dünya bir yana idi, Vətən bir yana*

Şanlı Zəfərlə başa çatan Vətən müharibəsi xalqımızın qəhrəmanlıq salnaməsinə yeni parlaq səhifələr yazdı. Müstəqil Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalan Cavidan Ağayev kimi cəsur oğullarımızın şücaəti hesabına əzəli torpaqlarımızın yağı tapdağından xilas edilməsinə nail olduq. On doqquz yaşında şəhadətə ucalan bu igidi siz də yaxından tanıyın.

Cavidan Mirzəağa oğlu Ağayev 2001-ci il iyunun 16-da Bakı şəhərində dünyaya göz açıb.

Vətən müharibəsi başlayanda Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Silahdaşlarının dediyinə görə, qəhrəmancasına döyüşən Cavidan torpaqlarımıza göz dikənləri gözündən vururmuş.

Oktyabrın 2-də Xocavənd rayonu uğrunda gedən qızğın döyüşlər zamanı isə aldığı qəlpə yarasından şəhadətə ucalıb.

Bakı şəhərinin Badamdar qəbiristanlığında torpağa tapşırılıb.

ASCO-nun “Bibiheybət” Gəmi Təmiri Zavodunda elektrik qaynaqçısı işləyən atası Mirzağa Ağayev bütün ömrü boyu alnının tərinə, əllərinin qabarına güvənib. Övladlarını da halal çörək və Vətənə məhəbbətlə böyüdüb.

Mirzağa kişi oğlu haqqında danışarkən deyib: “Vətənini çox sevirdi, onun üçün dünya bir yana idi, Vətən bir yana. Qələbəmizə də bəlkə hamıdan çox inanırdı və qazanılmasında payının olmasını istəyirdi. İstədiyi kimi də oldu. Amma, təəssüf ki, özü Qələbə sevincini yaşaya bilmədi.”

Kədərlənmə, igid atası! Vətən sevgisi ilə böyütdüyün oğul Qələbə gününədək yaşamasa da, qədirbilən xalqımızın qəlbində əbədi yaşamaq haqqı qazandı.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Cavidan Ağayev ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin 2020-ci il 15 dekabr tarixli Sərəncamı ilə "Vətən uğrunda", torpaqlarımızın işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarında şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə 2020-ci il 25 dekabr tarixli Sərəncamı ilə "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

# Elsevər Qalib oğlu Yarıyev

**“Vətən uğrunda”** medalı




**“Füzulinin azad olunmasına görə”** medalı

# *Sentyabrda doğuldu, sentyabrda da ən uca zirvəyə ucaldı*

Vətən uğrunda canını fəda edən qəhrəmanlardan biri də Elsevər Yarıyevdir. Rəşadətli Silahlı Qüvvələrimizin 44 günlük Zəfər yürüşündə şücaəti ilə seçilən, düşmənin xeyli sayda texnikası və canlı qüvvəsini məhv edən bu igidimizin yoxluğuna bu gün də onu tanıyanlardan heç kəs inanmır, inana bilmir: nə doğmaları, nə tanışları, nə də silahdaşları. Hamı Elseveri ölümün də qorxduğu igid sayırdı.

Elsevər Qalib oğlu Yarıyev 1986-cı il sentyabrın 25-də Xudat şəhərində dünyaya göz açıb.

1993–2004-cü illərdə Kərim Məhərrəmov adına 3 nömrəli tam orta məktəbdə, 2004–2009-cu illərdə isə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecində təhsil alıb. Hər iki təhsil ocağında oxuduğu illərdə biliyi, əxlaqı ilə yanaşı, vətənpərvərliyi ilə seçilib.

Vətən sevgisi ona qanla keçib. Atası Birinci Qarabağ müharibəsinin veteranlarındandır.

Elsəvər 2016-cı ilin Aprel döyüşlərində kiçik çavuş kimi iştirak etdiyindən savaşın nə olduğunu yaxşı bilib. Vətən müharibəsinin ikinci günü – sentyabrın 28-i döyüşlərə qatılıb. Füzuli istiqamətində düşmənin keçilməz sədlərinin yarılmasında və cəbhədən gələn ilk sevindirici xəbərlərdə onun da igidlik payı olub.

Sentyabrın 30-da Füzuli rayonunun Alxanlı kəndi istiqamətində gedən qızğın döyüşlərdə qəhrəmancasına həlak olub. Bir aydan sonra tapılan nəşi  Xudat şəhərində dəfn edilib.

Payızı çox sevib. Sentyabrda doğulmuşdu axı. Sentyabrda da ən uca zirvəyə ucalıb – şəhidlik zirvəsinə!

Özündən sonra Qalib və Gülər adlı iki övladı yadigar qalıb.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə Elsevər Yarıyev ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

# Məmmədağa Balakişi oğlu Səfərov

**“Vətən uğrunda”** medalı

**“Xocavəndin azad olunmasına görə”** medalı

# *“Xalqına, torpağına bağlı olan Məmmədağa üçün Azərbaycanın bütövlüyü hər şeydən daha vacib idi”*

Arzuları çox idi. Lap çox!

Amma ən böyük arzusu torpaqlarımızı azad görmək idi. Elə bu amal uğrunda da son damla qanına qədər döyüşərək şəhidlik zirvəsinə ucaldı.

Məmmədağa Balakişi oğlu Səfərov 1997-ci il mayın 10-da Bakı şəhərində dünyaya göz açıb.

Yasamal rayonundakı Arif Hüseynzadə adına 20 nömrəli tam orta məktəb-liseydə oxuyub.

2014–2019-cu illərdə Türkiyənin Balıkəsir Universitetində ali təhsil alıb. Amma təhsilin son pilləsində Vətənə qayıdıb, ailəsinə deyib ki, təhsilini hərbi xidmətini bitirdikdən sonra davam edəcək.

2019-cu il oktyabrın 8-də Qusar rayonuna hərbi xidmətə yollanıb. Vətən müharibəsi başlayanda hərbi xidmətdə olub. Füzuli, Cəbrayıl, Xocavənd rayonlarının işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə fəal iştirak edib.

Oktyabrın 21-də Xocavəndin Düdüklü kəndinin azad olunması uğrunda gedən döyüş isə qısa və şərəfli ömründə son qəhrəmanlıq səhifəsi olub: şəhadətə yüksəlib.

Məmmədağa ölkəmizin ərazi bütövlüyünün təmin olunması üçün atıldığı hər döyüşdə həm də şəhidlərimizin qisasını almağa çalışırmış. Onun da qanı yerdə qalmadı:qisasını silahdaşları aldılar.

Şəhadətə yüksələn igid gəncin adı təhsil aldığı Türkiyənin Balıkəsir Universitetində də əbədiləşdirilib.

Atası Balakişi Səfərov təcrübəli dənizçidir, uzun illər Xəzər Dəniz Neft Donanmasının gəmilərində baş mexanik işləyib.

Hazırda ASCO-nun Donanmanın Texniki İstismarı Departamentinin rəisi vəzifəsində çalışan Balakişi Səfərov qəhrəman oğlundan danışarkən deyib: “Xalqına, torpağına bağlı olan Məmmədağa üçün Azərbaycanın bütövlüyü hər şeydən daha vacib idi. Hətta həyatından da. Bu, onun seçimi idi. Və bu seçim Vətən müharibəsinə qədər yalnız doğmalarının, dost-tanışlarının qəlbində yeri olan Məmmədağanı şəhadətindən sonra yüz minlərin ürəyinə köçürdü. Həm də həmişəlik!”

Məmmədağa Səfərov Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirakına və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə ölümündən sonra “Vətən uğrunda” və “Xocavəndin azad olunmasına görə” medalları ilə təltif edilib.

# Orxan Zöhrab oğlu İsmayılov

**“Vətən uğrunda”** medalı

**“Cəbrayılın azad olunmasına görə”** medalı

# Qələbə ilə qayıdacağını demişdi

Əzəli torpaqlarımızın yağı tapdağı altında olduğu otuz il ərzində münaqişənin sülh yolu ilə həlli istiqamətində Azərbaycanın göstərdiyi bütün səylərə erməni vandalları yeni ərazilərimizi işğal edə biləcəkləri hədəsi ilə cavab verirdilər. Bu, Vətən müharibəsini qaçılmaz edirdi və ümidimiz yurdumuzun ərazi bütövlüyü üçün canından keçməyə hazır olan əsgər və zabitlərimizin qəhrəmanlığına idi. Uzun illər işğal altında olan torpaqlarımız məhz Orxan İsmayılov kimi cəngavər oğullarımızın şücaəti nəticəsində əsl sahiblərinə qaytarıldı.

Orxan Zöhrab oğlu İsmayılov 1990-cı il yanvarın 23-də Ucar rayonunun Məlikballı kəndində dünyaya göz açıb.

Vətən müharibəsinin ilk günündən sinəsini qalxana çevirib. Cəbrayıl və Füzuli rayonlarının azadlığı uğrunda igidliklə döyüşüb.

Orxan İsmayılov oktyabrın 4-də Füzuli uğrunda gedən döyüşlər zamanı şəhidlik zirvəsinə ucalıb.

Doğulduğu Ucar rayonunda torpağa tapşırılıb.

Atası Zöhrab İsmayılov taleyini dənizlə bağlayıb, Xəzər Dəniz Neft Donanmasının gəmilərində böyük mexanik işləyir.

Zöhrab kişi Vətən uğrunda şəhadətə yüksələn qəhrəman övladı haqqında qürurla danışır.

– Orxanla hamımız fəxr edirik, – deyir. – Cəsur olduğu qədər də, qayğıkeş idi. Cəbhədə də bizi fikirləşirdi. Zəng edəndə deyirdi ki, özünüzdən muğayat olun. Sanki ön cəbhədə sinəsini yağı gülləsinə sipər edən o yox, biz idik.

Orxan cəbhəyə gedəndə doğmalarına demişdi ki, Qələbə ilə qayıdacaq. Həmişə sözünün yiyəsi olmuşdu. Bu dəfə isə... nəşi Qələbədən əvvəl gəldi.

Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda döyüşlərdə göstərdiyi igidlik və şücaət dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları ilə Orxan İsmayılov ölümündən sonra "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.

# Pərviz Ələddin oğlu Məmmədov

**“Vətən uğrunda”** medalı

**“Xocavəndin azad olunmasına görə”** medalı

# *Vətən üçün doğulmuşdu...*

44 günlük haqq savaşında Azərbaycan xalqının sarsılmaz birliyi, dövlət başçımızın dəmir iradəsi və Ordumuzun rəşadəti qarşısında düşmən diz çökdü. Xalqımızın otuz illik yurd həsrətinə Pərviz Məmmədov kimi oğulların qəhrəmanlığı hesabına son qoyuldu.

Pərviz Ələddin oğlu Məmmədov 1989-cu il avqustun 9-da Tovuz rayonunun Çeşməli kəndində doğulub.

1995—2006-cı illərdə Qaradağ rayonunda Qurban Abbasov adına 288 nömrəli tam orta məktəbdə təhsil alıb.

Vətənpərvərlik ruhu, ölkəmizin ərazi bütövlüyü arzusu onun gələcək taleyini müəyyənləşdirib və 2006-cı ildə Pərviz Məmmədov Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. AAHM-də oxuduğu illərdə hərbin sirlərinə dərindən yiyələnməyə çalışıb. 2010-cu ildə hərbi məktəbi leytenant rütbəsi ilə bitirib.

Vətən müharibəsi başlayanda Azərbaycan Ordusunun kapitanı olan Pərviz Məmmədov ilk gündən döyüşlərə atılıb. Füzuli rayonunun azadlığı uğrunda gedən döyüşlərdə düşmənə qan udduran igidlərimizdən olub. Sonra Xocavənd uğrunda gedən döyüşlərdə əsl şücaət göstərib. Xalqımızın cəsur oğlu belə döyüşlərin birində aldığı qəlpə yarasından şəhidlik zirvəsinə ucalıb. Qaradağ rayonunda torpağa tapşırılıb.

Azərbaycan gəncinin torpağına bağlılığının, xalqına və dövlətinə sevgisinin parlaq nümunəsidir Pərviz. ASCO-nun "Bibiheybət" Gəmi Təmir Zavodunda gəmi boruçəkəni işləyən atası Ələddin kişi deyir ki: "Pərviz Vətən üçün doğulmuşdu. Vətən üçün yaşayırdı. Vətən yolunda da qurban getdi."

Ailəli idi. Bir oğlu yadigar qalıb. Doğmaları Pərvizin qoxusunu ondan alırlar. Atasına çox oxşayır. Əmindirlər ki, igidlikdə də atasından geri qalmaz.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatları zamanı vəzifə borcunu şərəflə yerinə yetirərkən şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Pərviz Məmmədov ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.



Emil
Elşad oğlu
Quliyev

# *Ölümün gözünə dik baxa-baxa ölümsüzlüyə qovuşan igid*

Emil Elşad oğlu Quliyev 2000-ci il fevralın 14-də Füzuli rayonunun Bala Bəhmənli kəndində doğulub.

Vətən müharibəsinin odlu-alovlu günlərində Horadiz şəhərində strateji əhəmiyyətli obyekti mühafizə edib. Belə çətin zamanda əhalinin yanacağa olan tələbatını ödəmək, insanların təhlükəsizliyini təmin etmək Emilin əsas vəzifələrindən biri olub.

Düşmən Horadiz şəhərini və ətraf əraziləri fasiləsiz artilleriya atəşinə tutub.

Emil xidməti vəzifəsini yerinə yetirərkən düşmən artilleriyasının benzindoldurma məntəqəsinin yaxınlığına atdığı mərminin partlaması nəticəsində ağır yaralanıb və üç gün xəstəxanada müalicə alsa da, onun həyatını xilas etmək mümkün olmayıb.

Ən böyük arzusu tarixi torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyümüzün bərpası ilə bağlı idi. Bu müqəddəs arzusu yolunda da canından keçdi.

Oktyabrın 4-də şəhidlik zirvəsinə ucalan Emil doğma kəndində son mənzilə yola salınıb.

Atası Elşad Quliyev "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin qabaqcıl dənizçilərindəndir, Xəzər Dəniz Neft Donanmasının gəmilərində bosman kimi səfərlərə çıxır.

Emil kimi oğulu itirmək çox ağırdır. Doğmalarının təsəllisi ondadır ki, Emil məhz çox sevdiyi Vətən uğrunda şəhid olub.

Yaxından tanıyanlar deyirlər ki, Emil Quliyev həyatda borclu qalmağı xoşlamayıb. Vətən qarşısında övladlıq borcunu da canından keçməklə qaytarıb.

Müharibədə sağ qalmaq bəxtə bağlıdır. Ölümün gözünə dik baxa-baxa ölümsüzlüyə qovuşmaq isə insandan Vətən boyda ürək istər.

VƏTƏN MÜHARİBƏSİ BİZİM ŞANLI TARİXİMİZDİR!
İLHAM ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ,
SİLAHLI QUVVƏLƏRİN ALİ BAŞ KOMANDANI

# “ÖNCƏ VƏTƏN!”– DEDİLƏR

# Tural Eldar oğlu İskəndərzadə

**“Cəbrayılın azad olunmasına görə”** medalı

**“Füzulinin azad olunmasına görə”** medalı

**“Şuşanın azad olunmasına görə”** medalı

**“Vətən müharibəsi iştirakçısı”** medalı

**“Şücaətə görə”** medalı

# *Hər döyüşün öz çətinliyi olub*

Tural Eldar oğlu İskəndərzadə 1998-ci il martın 7-də Biləsuvar rayonunun Aşağı Cürəli kəndində dünyaya göz açıb.

2004–2015-ci illərdə kənddə Oktay Babayev adına tam orta məktəbdə təhsil alıb.

Yaxşı oxumaqla yanaşı, karatenin "enshin" növü ilə məşğul olub. Bir çox turnir və yarışları medallarla başa vurub. Ukraynanın Odessa şəhərində keçirilən yeniyetmələr arasında Dünya çempionatından isə qalib kimi qayıdıb.

Uşaqlıqdan dənizçi olmağı arzulayıb və 2015-ci ildə Azərbaycan Dövlət Dəniz Akademiyasına daxil olub və 2019-cu ildə "Proseslərin avtomatlaşdırılması" ixtisası üzrə bitirib.

2019-cu il iyulun 4-də müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına yollanıb. "N" saylı hərbi hissədə xidmət edib. Sonra Xüsusi Təyinatlı Qüvvələrin Xüsusi Təyinatlı Döyüş Dəstəsinə seçilib. Vətən müharibəsi başlayanda ilk gündən sinəsini düşmən gülləsinə sipər edib. Murovdan başlanan döyüş yolu daha sonra Cəbrayıldan, Füzulidən, Xocavənddən, Laçından və Şuşadan keçib.

İlk döyüşü Murov istiqamətində olub. Minalanmış zonanı keçdikdən sonra Camışdağa doğru (Kəlbəcər) hərəkət ediblər. 2500 yüksəklikdə, qatı dumanlı havada işğalçıların postunu müşahidə etmək üçün ayrılan qrupun tərkibində irəliləyərkən düşmənin diversant qrupu ilə qarşılaşıblar və onları zərərsizləşdiriblər. Amma dəstənin ilk itkisinin ağrısını da məhz burada hiss ediblər – igid əsgər Yaşar Xudayev bu döyüşdə şəhadətə yüksəlib.

Turalın fikrincə heç bir döyüş asan keçməyib və hər döyüşün öz çətinliyi olub. Cəbrayıl rayonu ərazisində düşmənin tanklar və toplarla gücləndirilmiş dayaq məntəqəsinə hücum zamanı mühasirəyə düşüblər və mühasirədən dəstək gözləmədən, döyüşə-döyüşə çıxmağı bacarıblar. Və ya dastana çevrilmiş Şuşanın azad edilməsi döyüşlərinin hər anı qəhrəmanlara xas bütün keyfiyyətləri tələb edib.

Füzuli şəhərinin azad edilməsi uğrunda döyüşlərdə düşmənin canlı qüvvəsini, hərbi hissə və texnikalarını məhv etmək üçün komandiri ilə birlikdə artilleriya atışlarını yönləndirdiyi zaman onların mövqeyi işğalçılar tərəfindən vurulub. Həmin an xəsarət alan Tural yüksəklikdən yıxılaraq huşunu itirib. Amma komandirinin köməyi ilə ayağa qalxaraq döyüşə davam edib.

Düşmənin təslim olduğunu eşidəndə Tural həmin anda daha çox bu Qələbə üçün canından keçən igid əsgər yoldaşlarını xatırlayıb…

– Yaradana çox şükürlər olsun ki, onların qanı yerdə qalmadı, – deyir Tural İskəndərzadə. – Həm Zəfər çaldıq, həm də şəhidlərimizin qisasını artıqlaması ilə aldıq. Xalqımız rəşadətli Ordumuzdan yalnız Qələbə gözləyirdi və bu Qələbə ilk növbədə ölkəmizin ərazi bütövlüyü uğrunda şəhadətə ucalmağa hazır olan igidlərimizin qanı hesabına əldə olundu.

2021-ci il iyulun 1-də tərxis olunub və Zəfər paradında iştirakın qururunu yaşayıb.

Atası və anası təqaüdçüdür. Üç bacısı var. Tural evin sonbeşiyidir.

Xalqımızın igid oğlu "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Şücaətə görə"və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edilib.

# Ramin Rafik oğlu Qədirov

**“Vətən uğrunda”** medalı

**“Cəbrayılın azad olunmasına görə”** medalı

**“Füzulinin azad olunmasına görə”** medalı




**“Şuşanın azad olunmasına görə”** medalı

# *“Biz istəyimizə nail olmağı bacaran qüdrətli xalqıq”*

Dəniz Nəqliyyatı Donanmasının “Bərdə” gəmisinin matrosu Ramin Rafik oğlu Qədirov 1999-cu il fevralın 19-da Xaçmaz rayonunun Xudat şəhərində doğulub.

2016-cı ildə Xudat şəhərində Kərim Məhərrəmov adına 3 nömrəli tam orta məktəbi bitirib. Dənizçi olmaq istəyi ilə Azərbaycan Dövlət Dəniz Akademiyasının“Gəmi sürücülüyü” fakültəsinə daxil olub. 2020-ci ilədək burada “Dəniz naviqasiyası mühəndisliyi” ixtisasına dərindən yiyələnib.

Vətən müharibəsi hərbi xidmət dövrünə təsadüf etdiyindən ilk gündən düşmənin hücümunu dəf edən igidlərimizdən biri olub Ramin Qədirov.

Füzuli və Cəbrayıl rayonlarının, Hadrud qəsəbəsinin, Tuğ, Tağlar kəndlərinin və Şuşa şəhərinin işğaldan azad olunması uğrunda gedən döyüşlərdə fəal iştirak edib.

İşğalçılarla ilk dəfə ”Bayraq postu” adlandırılan ərazidə üz-üzə gəlib və düşməni postlarını qoyub qaçmağa vadar ediblər.

Hadrud qəsəbəsi uğrunda gedən döyüşlərin daha çətin keçdiyini düşünür.

Tuğ kəndində döyüşlər zamanı düşmənin atdığı mərmidən xəsarət alıb, iki gün Əhmədbəyli xəstəxanasında yatdıqdan sonra yenidən döyüşlərə atılıb.

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin rəhbərliyi tərəfindən xüsusi diqqət gördüyünü, işə qəbul edildiyini deyir.

Atası Rafik Qədirov sadə peşə adamıdır, “Azəriqaz” İstehsalat Birliyində çilingər işləyir, anası Füruzə xanım evdar qadındır. Baş leytenant rütbəsində zastava rəisi vəzifəsində çalışan qardaşı İlkin də müharibə veteranıdır, Qubadlı və Zəngilan uğrunda gedən döyüşlərdə igidlik göstərib. Bacısı Pəri Quba tibb kollecində təhsil alır.

Narahat olmalarını istəmədiyindən döyüşdə olduğunu ilk həftə ailəsindən gizlədib. Biləndən sonra, ailə üzvləri də, nişanlısı da onunla böyük qürur hissi keçiriblər. 2021-ci ilin iyununda Ordudan tərxis olunub.

– Ölkəmizin ərazi bütövlüyü bərpa ediləndən – Qarabağ münaqişəsi tarixin arxivinə qovuşandan sonra Azərbaycan daha sürətli inkişaf yoluna qədəm qoyub, – deyir Ramin Qədirov. – Xüsusi ilə düşmənin otuz il ərzində xarabazara çevirdiyi ərazilərimizdə nəhəng layihələr, böyük quruculuq-abadlıq işləri həyata keçirilir. Bu gedişlə çox qısa zamanda əzəli yurd yerlərimizi yenidən cənnətə çevirəcəyik. Bütün Azərbaycanda buna heç kəs şübhə etmir. Niyə? Çünki biz istəyimizə nail olmağı bacaran qüdrətli xalqıq.

İgidliyi və şücaəti dövlət başçısı tərəfindən yüksək qiymətləndirilib. Ramin Qədirov “Vətən uğrunda”, “Cəbrayılın azad olunmasına görə”, “Füzulinin azad olunmasına görə” və “Şuşanın azad olunmasına görə” medalları ilə təltif edilib.

# Emil Sahil oğlu Abbaszadə

**“Döyüşdə fərqlənməyə görə”** medalı

**“Xocavəndin azad olunmasına görə”** medalı

**“Füzulinin azad olunmasına görə”** medalı

# *Döyüşdüyünü doğmalarından yalnız atası bilib, o da "Qələbəsiz evə qayıtma!" deyib*

"Əslində Azərbaycan Ordusu Vətən müharibəsindən əvvəl, Aprel döyüşlərində Ermənistana öz gücünü göstərmişdi. 44 günlük Vətən müharibəsində isə işğalçı ordunun belini qırdı.

Azərbaycan sülh tərəfdarı olsa da, torpaq itkisi ilə heç vaxt barışmayacağını, dinc yolla münaqişənin həlli mümkün olmayacağı təqdirdə, ərazi bütövlüyünü hərb yolu ilə bərpa edəcəyini dəfələrlə bildirmişdi və buna qadir idi. Vətən müharibəsində də sözünün yiyəsi olduğunu bütün dünyaya sübut etdi."

Bu fikirlər ASCO-nun Xəzər Dəniz Neft Donanmasına məxsus "Qaradağ-16" yedək katerinin motorçusu Emil Abbaszadəyə məxsusdur.

Emil Sahil oğlu Abbaszadə 1998-ci il oktyabrın 2-də Hacıqabul rayonunun Navahı qəsəbəsində doğulub.

Qəsəbədəki 1 saylı tam orta məktəbdə və Azərbaycan Dövlət Dəniz Akademiyasında təhsil alıb.

2019-cu ilin iyulunda müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına yollanıb. Vətən müharibəsi də xidmət dövrünə təsadüf edib.

Kiçik çavuş rütbəsində top komandiri kimi Füzuli, Xocavənd, Hadrut istiqamətində gedən döyüşlərdə fəal iştirak edib.

Noyabrın 7-də sağ ayağının diz nahiyyəsindən zədə alıb. Füzuli xəstəxanasında bir neçə gün yatmalı olacağını deyiblər. Döyüşlərin belə qızğın vaxtında xəstəxanada yatmağı özünə sığışdırmayıb və səhərisi yenidən silahdaşlarına qoşulub. 3 gündən sonra düşmən təslim olub.

Atası Sahil müəllim Neft Daşlarında sahə rəisi işləyir, anası Ülviyyə xanım evdar qadındır. İki bacısı var. Emil evin kiçik övladıdır. Döyüşdüyünü təkcə atası bilib. O da "Qələbəsiz evə qayıtma!" deyib.

Zəfər paradının iştirakçısı olan Emil Qələbədə payı olmasından sonsuz qürur duyur və istənilən vaxt "Canım da qurban Vətənə" deyir.

Emil Abbaszadənin söhbətindən: "Biz düşmənin toplarını və mərmilərini ələ keçirsək də, əksər vaxtlarda özümüzdə çox saxlamırdıq. Bir balaca əl gəzdirəndən sonra düşmənin özünə "geri qaytarırdıq". Bunun da öz ləzzəti var idi."

2021-ci ilin fevralında tərxis olunub.

Emil Abbaszadə "Döyüşdə fərqlənməyə görə", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.



# Altay Rövşən oğlu Səfərli

**“Cəbrayılın azad olunmasına görə”** medalı

**“Xocavəndin azad olunmasına görə”** medalı

**“Füzulinin azad olunmasına görə”** medalı

# *Bu gün də fəxr edir ki...*

Altay Rövşən oğlu Səfərli 1996-cı il martın 15-də Lerik rayonunun Cənginəvud kəndində dünyaya göz açıb.

2002–2013-cü illərdə Bakı şəhərinin Biləcəri qəsəbəsində Seymur Məmmədov adına 301 saylı tam orta məktəbdə, 2013–2017-ci illərdə Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "Maliyyə" fakültəsində "Mühasibat uçotu və audit" ixtisası üzrə təhsil alıb.

2017–2018-ci illərdə Ordu sıralarında müddətli həqiqi hərbi xidmət keçib.

2020-ci il sentyabrın 21-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Lerik rayon şöbəsi tərəfindən təlimlərə cəlb edilib. Vətən müharibəsinin ilk günü Füzuli rayonunun Qaradağlı kəndi istiqamətində gedən döyüşlərə atılıb. Füzuli, Cəbrayıl, Xocavənd rayonları, Hadrut və Tuğ qəsəbələri, Şuşanın işğaldan azad olunması uğrunda gedən döyüşlərdə fəal iştirak edib.

Altay ilk döyüşünü belə xatırlayır: "Çox çətin və məsuliyyətli idi. Düşmənin iki atəş mövqeyini, 1,5 km uzunluğunda olan səngərini, xeyli döyüş sursatını ələ keçirə bildik. Lakin mənfur düşmən sonra daha böyük qüvvə ilə bizə hücum etdi. Təqribən 10-15 nəfəri məhv etdikdən sonra qaçmağa çalışdılar. Onlar da Ordumuzun digər bölmələri tərəfindən zərərsizləşdirildi. Hər dəfə irəli getdikcə döyüş ruhumuz daha da yüksəlirdi. Cəbrayıl rayonunun Süleymanlı kəndi istiqamətində gedən döyüşlərdə də yağını ağır itkilərə məruz qoyduq, xeyli sayda canlı qüvvə və texnikasını itirdi.

İgid əsgər Cəbrayıl uğrunda gedən döyüşlərdə, Horovlu kəndi ərazisində təxminən gecə saat 3-4 radələrində düşmənin əks hücumunun qarşısını alarkən sağ ayağının dizdən aşağı hissəsində üç qəlpə yarası alıb.

Atası Rövşən Səfərov təcrübəli dənizçi olub və 1989–2002-ci illərdə "Merkuri-2" gəmisində işləyib. "AXDG" QSC-də işləmək istəyi də atasının yolunu davam etdirmək və ruhunu şad etmək arzusu ilə bağlıdır. 2021-ci il mayından Dəniz Nəqliyyatı Donanmasının Təchizat xidmətinin Anbar təsərrüfatı qrupunda anbardar vəzifəsində çalışır.

Anası Zümrüd xanım evdar qadındır. Bir bacısı var. Altay evin sonbeşiyidir.

Qələbə xəbərini Şuşada, gecə saatlarında eşidib. 2020-ci ilin son günü Ordu sıralarından tərxis olunub. Bu gün fəxr edir ki, Zəfər sevincini yaşatmaqla xalqımızın otuz illik yurd həstətinə son qoyanlardan biri də odur.

Azərbaycan Respublikası ərazilərinin işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında göstərdiyi şəxsi igidlik və şücaət dövlət başçısı tərəfindən "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə qiymətləndirilib.

Aqşin
Əziz oğlu
Əlizadə

# *Qələbə hər bir azərbaycanlının qəlbini didən ağrı-acıya birdəfəlik son qoydu*

Dəniz Nəqliyyatı Donanmasının "Bərdə" gəmisinin elektriki Aqşin Əziz oğlu Əlizadə 1998-ci il noyabrın 12-də Goranboy rayonunun Gürzalılar kəndində doğulub.

2005–2011-ci illərdə kənd məktəbində, 2011–2016-cı illərdə Gəncə şəhərindəki 13 saylı tam orta məktəbdə təhsil alıb.

2016-cı ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının "Gəmi mexanikası və elektromexanikası" fakültəsinə daxil olub və 2020-ci ildə "Elektrik mühəndisliyi" ixtisası üzrə bitirib.

2020-ci ildə müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına yollanıb. Vətən müharibəsi başlayanda hərbi xidmətdə olduğundan ilk gündən döyüşə atılıb.

Füzuli, Cəbrayıl və Xocavənd rayonlarının işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak edib. Müharibə bitdikdən sonra da xidmətinin çox hissəsi işğaldan azad edilən ərazilərdəki postlarda keçib.

Aqşinin dediklərindən: "Hər bir Azərbaycan vətəndaşının qəlbində Qarabağla bağlı bir ağrı-acı vardı və otuz il xain qonşularımızın tapdağı altında olan torpaqlarımızın azad edilməsi artıq bizim şərəf məsələmiz idi. Ali Baş Komandanımız cənab İlham Əliyevin müdrik siyasəti, xalqımızın birliyi və Azərbaycan əsgərinin qəhrəmanlığı sayəsində Qarabağımız işğaldan azad edildi."

Qələbə sevincini özü noyabrın 9-dan 10-na keçən gecə Hadrut qəsəbəsində yaşayıb.

Doğmaları – atası Əziz kişi, anası Maral xanım, qardaşı Röyal, bacıları Mərziyə və Röyalə Aqşin üçün narahat olsalar da, Vətənin çətin günündə ön cəbhədə olmasından sonsuz qürur duyublar.

– Şəhid ailələrinə, qazilərə, veteranlara göstərilən diqqət və qayğı bir daha müdrik, qədirbilən xalqımızın ucalığını təsdiqləyir, – deyir Aqşin Əlizadə. – Çalışdığım "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətində belə həssas insanlara göstərilən xüsusi diqqət müharibə iştirakçısı kimi məni də çox sevindirir.

# Asif
# Asim oğlu
# Allahverdiyev

# *Qələbədə hər bir azərbaycanlının payı var*

"Bu Qələbədə hər bir azərbaycanlının – müstəqil Azərbaycanın mənafeyini, suverenliyini, ərazi bütövlüyünü qoruyacağına and içənlərin də, and içməyənlərin də payı var. Biri canı, biri qanı, biri səbir-dözümü, biri duası ilə… Qələbənin əldə olunmasına öz töhfəsini verdi. Xalqımızın sarsılmaz birliyi ilə qazanıldı bu möhtəşəm Qələbə."

Bu sözlər 2021-ci ilin sentyabrından Azərbaycan Dövlət Dəniz Akademiyasının Təlim-Tədris Mərkəzinin Qeydiyyat və biznesin inkişafı qrupunun təlimlərin təşkili üzrə mütəxəssisi vəzifəsində çalışan Asif Allahverdiyevin dilində səslənib.

Asif Asim oğlu Allahverdiyev 1990-cı il iyulun 12-də Gürcüstan Respublikasının Bolnisi rayonunun İmir Həsən kəndində doğulub.

1996–2007-ci illərdə Bakı şəhərinin Badamdar qəsəbəsində yerləşən 236 saylı tam orta məktəbdə təhsil alıb.

Taleyini gəmiçiliklə bağlamaq istəyib və elə bu istəklə də 2007–2011-ci illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasında "Nəqliyyatda daşımaların və idarəetmənin təşkili mühəndisliyi" ixtisasına yiyələnib.

2011–2013-cü illərdə Ordu sıralarında müddətli həqiqi hərbi xidmət keçib.

2020-ci il sentyabrın 21-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin çağırışı əsasında təlimlərə cəlb edilib. Vətən müharibəsinin ilk günündən ölümün gözünə dik baxan igid oğullarımızdan olub.

Çavuş Asif Allahverdiyev manqa komandiri kimi Füzuli, Xocavənd, Cəbrayıl rayonlarının işğaldan azad olunmuş kəndlərinin müdafiəsində iştirak edib.

Qələbə sevincini Xocavənd rayonunda yaşayıb və 2020-ci il dekabrın 25-də tərxis olunub.

Ailənin böyük övladı olan Asifə Vətən sevgisi daha çox qanla keçib. Hazırda təqaüddə olan atası hərbçidir. Anası Lalə xanım bağçada tərbiyəçi işləyir. Bacısı Elmira Gəncə Dövlət Aqrar Universitetinin məzunudur.

Xidmət dövründə dəfələrlə hərbi hissə komandiri tərəfindən fərqlənmə diplomu ilə təltif olunub.

# Cəfər Musa oğlu İsmayılov

**“Cəbrayılın azad olunmasına görə”** medalı

**“Qubadlının azad olunmasına görə”** medalı

**“Laçının azad olunmasına görə”** medalı

# *Hər döyüşə həm də şəhidlərin qisasını almaq üçün atılan igid*

"Bu savaş bizim üçün qeyrət, namus savaşı idi. Məhz Vətən uğrunda canını fəda etməkdən qorxmayan igidlər 44 günlük İkinci Qarabağ savaşını Azərbaycan tarixinin yeni qəhrəmanlıq səhifəsinə çevirdilər."

Bu kəlmələr ASCO-nun Xəzər Dəniz Neft Donanmasının "Şüvəlan" gəmisinin motorçusu Cəfər İsmayılovun qəlbindən süzülüb.

Cəfər Musa oğlu İsmayılov 1991-ci il aprelin 19-da Rusiya Federasiyasının Tambov şəhərində doğulub.

Orta təhsilini 1997–2008-ci illərdə Tovuz rayonunun Dondar Quşçu kənd tam orta məktəbində alıb. 2009–2010-cu illərdə Azərbaycan Ordusu sıralarında müddətli həqiqi hərbi xidmət keçib.

2014-cü ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının sıravi heyət mütəxəssislərinin hazırlanması şöbəsini "Motorçu" ixtisası üzrə bitirib. Sonra təhsilini davam etdirmək istəyi onu Həştərxan Dövlət Texnologiya Universitetinə aparıb.

Üç bacının bir qardaşı olan Cəfər erkən yaşlarında atasını itirib. Tez böyüməyi arzulayıb ki, evdar xanım olan anasının zərif çiyinlərinə düşən ağır yükü azaltsın. Bu yükü daşımağa hazır olanda isə ana qədər müqəddəs saydığı Vətənin onun köməyinə ehtiyacı olub.

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin hücumundan xəbər tutan kimi, ana və bacılarının xeyir-duası ilə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinə üz tutub. Bir gün sonra artıq ön cəbhədə olub. Atıcı əsgər kimi Cəbrayıl, Qubadlı, Laçın rayonları uğrunda gedən döyüşlərdə iştirak edib.

Cəfər İsmayılovun söhbətindən: "Oktyabrın 12-də gecə saatlarında Cəbrayıl rayonu istiqamətində hücuma keçdik. İki gün çəkən ağır döyüşlər zamanı bir neçə kənd və yüksəkliyi işğalçılardan təmizlədik, yağının texnika və iri çaplı silahlarını qənimət kimi götürdük. Əfsus ki, düşmənin atdığı top mərmisinin partlaması nəticəsində bölük komandirimizlə yanaşı, daha bir neçə igidimizi itirdik. Döyüş yoldaşlarını itirmək çox ağırdır və biz sonralar hər döyüşdə həm də şəhadətə ucalan igidlərimizin qisasını almağa çalışırdıq və artıqlaması ilə alırdıq da."

Həyatda ən böyük arzusu işğal altında olan ərazilərimizin yağı tapdağından azad olunması əməliyyatlarında iştirak etmək və Qələbədən sonra əzəli yurdumuz Qarabağı qarış-qarış gəzmək olub.

Cəfər İsmayılovun torpaqlarımızın işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında göstərdiyi şəxsi igidlik və şücaət Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə qiymətləndirilib.

# Elvin Arif oğlu Hüseynov

**“Xocavəndin azad olunmasına görə”** medalı

**“Qubadlının azad olunmasına görə”** medalı

# *Vətənin igidlərə həmişə ehtiyacı var*

Vətənin dar günündə tərəddüd etmədən onun müdafiəsinə qalxan oğulların sayəsində Azərbaycan xalqının alnı açıq, üzü ağdır. Belə igidlərdən biri də Elvin Hüseynovdur. Xəzər Dəniz Neft Donanmasının "Zülfi Hacıyev" gəmisinin elektrikini deyirəm.

Elvin Arif oğlu Hüseynov 1996-cı il sentyabrın 13-də Salyan rayonunun Qarabağlı kəndində doğulub.

2003–2014-cü illərdə kənddə 1 saylı tam orta məktəbdə təhsil alıb.

Dənizçi olmaq arzusu onu Azərbaycan Dövlət Dəniz Akademiyasına gətirib. 2014–2018-ci illərdə "Elektrik mühəndisliyi" ixtisasında təhsil alıb. Məktəbi bitirdikdən sonra 2018-ci ilin iyulundan 2019-cu ilin iyulunadək Ordu sıralarında müddətli həqiqi hərbi xidmət keçib.

Vətən müharibəsi başlayan kimi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinə könüllü cəbhəyə getmək istədiyini bildirib. Bir müddət təlim keçdikdən sonra döyüşlərə atılıb. Zəngilan, Qubadlı və Xocavənd rayonlarının işğaldan azad olunması uğrunda gedən döyüşlərdə igidliyi ilə seçilib. Noyabrın 5-də Xocavənd uğrunda gedən döyüşlərdə yaralanıb.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Silahlı Qüvvələrimiz 44 günlük savaşda düşmənin 80 faiz ordusunu darmadağın etməklə təkcə təslim olmağa məcbur etmədi, ona həm də "dənizdən-dənizə böyük Ermənistan" xəyalları ilə yaşamağın çox yanlış olduğunu anlatdı.

Elvin Hüseynov 2020-ci il dekabrın 13-də ehtiyata buraxılıb.

Atası Arif müəllim musiqiçi, anası Sevda xanım evdar qadındır.

İki qardaşı var. Böyük qardaşı İlkin Azərbaycan Texniki Universitetini bitirib, Seyidağa məktəblidir.

Bu ocaqda bir igid də böyüyür. Vətən müharibəsinə gedəndə oğlu Arif iki aylıq olub. Həyat yoldaşı Təzəgül xanım üçün çətin olacağını bilsə də, ön cəbhəyə tələsib. Arif atasına çox oxşayır. Yəqin igidlikdə də Elvindən geri qalmaz. Vətənin igidlərə həmişə ehtiyacı var.

Parlaq Zəfərin qazanılmasına öz töhfəsini verən Elvin Hüseynov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Xocavəndin azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.

# Emin Azər oğlu Məmmədov

**“Xocavəndin azad olunmasına görə”** medalı

**“Füzulinin azad olunmasına görə”** medalı

**3-cü dərəcəli “Hərbi xidmətdə fərqlənməyə görə”**medalı

# İdarə etdiyi maşında qəlpələrin açdığı dəlmə-deşiklərin sayı-hesabı olmayıb

ASCO-nun "Qarabağ" gəmi-bərəsinin elektriki Emin Azər oğlu Məmmədov 1998-ci il noyabrın 23-də Zaqatala rayonunun Yuxarı Tala kəndində doğulub.

2004–2015-ci illərdə Zaqatalada Humanitar Fənlər Gimnaziyasında təhsil alıb.

Uşaqlıqdan dənizçi olmağı arzuladığından 2016-cı ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının "Elektrik mexanikası və elektromexanikası" fakültəsinə daxil olub və 2020-ci ildə "Elektrik mühəndisliyi" ixtisası üzrə bitirib.

2020-ci ilin iyulunda müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına yollanıb. Xüsusi Təyinatlı Qüvvələrdə xidmət dövründə ən mürəkkəb vəziyyətlərdən baş çıxarmaq üçün zəruri olan kurslardan keçib.

Vətən müharibəsinin ilk günündən zirehli texnikanı idarə edən mexanik-sürücü kimi döyüşlərə atılıb. Kəlbəcər, Füzuli, Cəbrayıl, Xocavənd və Şuşa uğrunda gedən döyüşlərdə düşmənə göz açmağa imkan verməyən igidlərimizlə çiyin-çiyinə verib.

O günləri xatırlayan Emin deyir: "Şuşa şəhəri azad olunduğu gün səhər saat 8–9 radələrində minaatanın atəşi nəticəsində 3 qəlpə yarası alan döyüşçü yoldaşım Tural Xudiyevə ilk tibbi yardım etsək də, təəssüf ki, həyatını xilas edə bilmədik. Tural bizim yaddaşımızda həmişə cəsur, igid, qorxmaz qardaşımız kimi qalacaq. Bütün şəhidlərimizə Allahdan rəhmət, ailələrinə səbir diləyirəm. Belə qəhrəmanlar böyüdən valideynlər hər zaman başlarını dik tutsunlar."

Kəlbəcər istiqamətində gedən döyüşlər zamanı igidlərimizin mühasirəni necə yarmalarından, idarə etdiyi "KAMAZ"da mərmi qəlpələrinin açdığı dəlmə-deşiklərin sayı-hesabı olmadığından, bəzi döyüşlərdən möcüzə nəticəsində sağ çıxmasından danışanda sən də özünü müharibədə – odun-alovun içində hiss edirsən...

– Müharibə zamanı "KAMAZ" və ya başqa texnikanı idarə edirsənsə, düşmən üçün asan hədəfə çevrilirsən, – deyir Emin Məmmədov. – Üstəlik sən, maşındakıların da həyatına cavabdehsən. Harada, necə idarə etməyi bilməlisən. Qayalıqlarda, dərələrdə, təpələrdə maşın sürmək bir məharət tələb edirsə, düşmənin gözündən yayınmaq üçün qaranlıqda işıqsız, səssiz maşın sürmək başqa bir məharət tələb edir. Cəld və çevik olmalısan.

2021-ci il iyulun 1-də ehtiyata buraxılıb.

Atası Azər Məmmədov sürücü, anası Elmira xanım Zaqatala mərkəzi xəstəxanasının Təcili tibbi yardım şöbəsində işləyir. Emin evin sonbeşiyidir. Elgün adında bir qardaşı var.

Sinəsini "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və 3-cü dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" medalları bəzəyir.

# Əhmədağa Mirağa oğlu Əzizov

**“Cəbrayılın azad olunmasına görə”** medalı

**“Qubadlının azad olunmasına görə”** medalı

# *“Bir qarış torpağımızı da kiməsə güzəştə getmək fikrimiz olmayıb”*

Əhmədağa Mirağa oğlu Əzizov 1999-cu il martın 25-də Xaçmaz rayonunun Sərkərli kəndində doğulub.

2005–2016-cı illərdə Bakı şəhərində 197 nömrəli tam orta məktəbdə təhsil alıb.

Dənizçi olmaq istəyi ilə 2016-cı ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının “Gəmi sürücülüyü” fakültəsinə daxil olub və 2020-ci ildə “Dəniz naviqasiyası mühəndisliyi” ixtisası üzrə bitirib.

2020-ci ilin iyulunda Vətənə borcunu ödəmək üçün Ordu sıralarına çağırılıb.

Müddətli həqiqi hərbi xidmət keçərkən İkinci Qarabağ savaşı başlayıb. Əlahiddə Sərhəd Diviziyasının Çevik Hərəkət Qüvvələrinin əsgəri kimi ilk gündən Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarının işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak edib.

İlk dəfə düşmənlə Hadrut yaxınlığında üz-üzə gəlib. Çətin dağlıq şəraitinə və düşmənin susmayan minaatanlarına baxmayaraq işğalçıları geri otuzdura biliblər. Ən çətin döyüşü də Hadrut uğrunda olub.

– Bizim işimiz haqq işi idi, – deyir Əhmədağa Əzizov. – Biz öz xoşu ilə işğal etdiyi torpaqlarımızdan çıxmaq istəməyən, özünü məğlubedilməz hesab edən düşmənə yanıldığını başa salmalı idik və İkinci Qarabağ savaşında məhz bunu etdik. Bizim heç bir ölkənin torpağında gözümüz olmayıb, bizə məxsus olandan da bir qarış belə kiməsə pay vermək fikrimiz yoxdur.

Qələbə xəbərini Qubadlının Məmər kəndində eşidib.

Möhtəşəm Qələbə qazanmağımızın başlıca səbəbini qısaca belə ifadə edib: “Müzəffər Ali Baş Komandan, müzəffər Ordu və müzəffər Xalq!”

Zəfərdən sonra Əlahiddə Sərhəd Diviziyasında xidmətini davam etdirib və bərpasında özünün də iştirak etdiyi sərhədlərimizin keşiyində ayıq-sayıq dayanıb.

2021-ci ilin iyulunda ehtiyata buraxılıb.

Atası Mirağa kişi inşaatçı, anası Firəngiz xanım evdar qadındır. Gülşən adında bacısı, Mirsalam adında qardaşı var.

Əhmədağa Əzizovun layiq görüldüyü “Cəbrayılın azad olunmasına görə” və “Qubadlının azad olunmasına görə” medalları od-alovundan cəsarətlə keçdiyi savaş günlərindən yadigardır.

# Hüseyn Vəlyəddin oğlu Əlizadə

**“Xocavəndin azad olunmasına görə”** medalı

# *“Xalqımızın yurd sevgisi düşmənin bütün çirkin niyyətlərini ürəklərində qoydu”*

Hüseyn Vəlyəddin oğlu Əlizadə 1998-ci il iyulun 21-də Daşkəsən rayonunda doğulub.

2004–2015-ci illərdə Daşkəsəndə Anar Mürsəlov adına 2 saylı tam orta məktəbdə təhsil alıb.

2015-ci ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının "Gəmi sürücülüyü" fakültəsinə daxil olub və 2019-cu ildə "Dəniz naviqasiyası mühəndisliyi" ixtisası üzrə bitirib.

2020-ci il iyulun 22-də Vətən qarşısında övladlıq borcunu yerinə yetirmək üçün Ordu sıralarına yollanıb. İkinci Qarabağ savaşı başlayanda müddətli həqiqi hərbi xidmətdə olub.

Müharibənin ilk günü – sentyabrın 27-də “N” saylı hərbi hissənin Zenit Raket Artilleriya Batareyasının tərkibində Füzulinin Aşağı Kürdmahmudlu kəndində döyüşə girib. Elə həmin gün düşmənin atdığı top mərmisindən beş igidimiz – 1 zabit, 1 müddətdən artıq xidmət edən və 3 əsgər şəhid olsa da, işğalçıları etdikləri hücuma görə peşman ediblər.

Füzuli, Cəbrayıl, Xocavənd rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Qələbənin qazanılmasında Ali Baş Komandanımız İlham Əliyevin müdrik siyasəti və xalqımızın yurd sevgisinin mühüm rol oynadığını, şəhidlərimizə qan, qazilərimizə can borcumuzun olduğunu düşünür.

Qələbə xəbərini Xocavəndin Tuğ kəndində eşidib. Qələbədən sonra Laçın rayonunda xidmətini davam etdirib.

Azərbaycan Silahlı Qüvvələrinin sarsıdıcı zərbələri qarşısında davam gətirə bilməyən işğalçı Ermənistanın silahlı birləşmələri geri çəkilərkən də öz çirkin xislətinə sadiq qalaraq müharibə cinayətləri törətməkdən çəkinmirdilər, – deyir Hüseyn Əlizadə. – Mənfur düşmən dinc əhalimizə qarşı törətdiyi hərbi cinayətlər və terror aktları ilə iradəmizi qırmağa çalışırdı. Xalqımızın yurd sevgisi onların bu çirkin niyyətlərini də ürəklərində qoydu.

Vətən müharibəsindən əvvəl ən böyük arzusu ərazi bütövlüyümüzün təmin olunması idi. Zəfərdən sonra arzuları da çoxalıb. Bu arzulardan biri də uzaq səfərlər kapitanı olmaq, dor ağacında müstəqil Azərbaycanın üçrəngli bayrağı dalğalanan gəmilərdə uzaq səfərlərə çıxmaqdır.

Atası Vəlyəddin kişi Daşkəsən rayonundakı Filiz Saflaşdırma Kombinatında əridici, anası Rəna xanım Mərkəzi kitabxanada şöbə müdiri işləyir. Bacısı Məhsəti “Kapitalbank”da baş mütəxəssisdir. Hüseyn evin sonbeşiyidir.

2021-ci ilin sentyabrından ASCO-da çalışan Hüseyn Əlizadə hazırda Dəniz Nəqliyyatı Donanmasının "Naxçıvan" gəmi-bərəsində matros işləyir.

Vətən müharibəsində göstərdiyi şücaət "Xocavəndin azad olunmasına görə” medalı ilə qiymətləndirilib.



# Kamil Əskər oğlu Əskərov

**“Xocavəndin azad olunmasına görə”** medalı




**“Füzulinin azad olunmasına görə”** medalı

# *“Qələbəni torpaqlarımızın hər qarışı üçün canından keçməyə hazır olanların qəhrəmanlığı sayəsində qazandıq”*

ASCO-nun Dəniz Nəqliyyatı Donanmasına məxsus “Ro-Ro” tipli gəmilərində elektrik işləyən Kamil Əskər oğlu Əskərov 1998-ci il dekabrın 12-də Sumqayıt şəhərində dünyaya göz açıb.

Siyəzəndə Mikayıl Müşfiq adına 2 saylı tam orta məktəbdə təhsil alıb.

2016-cı ildə daxil olduğu Azərbaycan Dövlət Dəniz Akademiyasını "Gəmi energetik quğuları və istismarı” ixtisası üzrə 2020-ci ildə bitirib.

Həmin ilin avqustunda müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına yollanıb.

Vətən müharibəsi əsgərlik dövrünə təsadüf edib. Füzuli, Xocavənd rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Füzuli rayonunun Alxanlı kəndi istiqamətində ilk döyüşə atılıb.

Kamilın fikrinə görə, belə möhtəşəm Qələbə qazanılmasının başlıca səbəbi ona ürəkdən can atmağımız idi.

Cəbhədə ən çox sevdiklərinin yanına Qələbə ilə qayıtmaq barədə düşünüb.

Qələbə xəbərini Xocavənddə eşidib. Ürəyində bu Qələbə üçün canından keçənlərə rəhmət oxuyub. 2021-ci ilin avqustunda tərxis olunub.

– İşğal altında olduğu otuz ildə düşmənin altını-üstünə çevirdiyi doğma Qarabağımızın dirçəldilməsi üçün aparılan nəhəng quruculuq işləri bu torpaqların əsl sahibinin kim olduğunu bir daha bütün dünyaya göstərir, – deyir Kamil Əskərov. – Şübhəsiz ki, bu ərazilərin yenidən cənnətə çevrilməsindən şəhidlərimizin ruhları da şaddır.

Atası Əskər Əskərov operator işləyir, anası Yaqut xanım evdar qadındır. Kamil evin ortancıl övladıdır. Bir qardaş, bir bacısı var. Narahat olmalarını istəmədiyi üçün doğmalarına arxa cəbhədə olduğunu söyləyib. Döyüşdüyünü Qələbədən sonra biliblər.

Vətənə borcunu layiqincə yerinə yetirdiyi və Zəfər paradının iştirakçısı olduğu üçün sonsuz qürur hissi keçirir.

Cəsur dənizçi Kamil Əskərov “Xocavəndin azad olunmasına görə” və “Füzulinin azad olunmasına görə” medalları ilə təltif edilib.

# Kamil İlqar oğlu Şirinov

**“Cəbrayılın azad olunmasına görə”** medalı

**“Xocavəndin azad olunmasına görə”** medalı

**“Füzulinin azad olunmasına görə”** medalı

# *İrəlilədikcə, Qələbə ətrini daha yaxından hiss ediblər...*

"Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunun gəmi təmiri çilingəri Kamil İlqar oğlu Şirinov 1994-cü il avqustun 7-də Bakı şəhərində doğulub.

2001–2012-ci illərdə Lökbatan qəsəbəsindəki Səxavət Məhərrəmov adına 106 saylı tam orta məktəbdə, 2012–2016-cı illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasının "Gəmiqayırma və gəmi təmiri mühəndisliyi" ixtisasında təhsil alıb.

2018–2019-cu illərdə Ordu sıralarında müddətli həqiqi hərbi xidmət keçib.

Vətən müharibəsi başlayanda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinə müraciət edərək könüllü cəbhəyə getmək istədiyini bildirib. Sentyabrın 30-da artıq səngərdə olub.

Füzuli, Cəbrayıl, Xocavənd rayonları və Şuşa şəhəri uğrunda gedən döyüşlərdə fəal iştirak edib.

İlk döyüşü Füzuli istiqamətində olub. Düşmənə qan uddursalar da, döyüş asan keçməyib.

Ən çətin döyüşü isə Xocavəndin Azıxlı kəndindən Şuşa şəhərinə doğru irəliləyərkən olub. Düşmənin aramsız atəşlərinə məruz qalıblar. Lakin bu, onları yolundan saxlaya bilməyib. İrəlilədikcə, Qələbə ətrini daha yaxından hiss ediblər...

– Rəşadətli Ordumuz ən müasir silahlarla təchiz olunmuşdu, – deyir Hüseynağa Əsgərov. – Bununla bərabər, Azərbaycan əsgərinin ruh yüksəkliyi, doğma torpaqlarını azad etmək istəyi və əzmi o qədər güclü idi ki... Buna görə, savaşın ilk günlərindən himayədarlarının bütün səyinə baxmayaraq, Ermənistanın silahlı birləşmələrinin ağır günləri başladı. Sentyabrın 27-dən başlayan hər döyüş bizi Zəfərə apardığı kimi, düşməni də təslimçiliyə aparırdı.

Qələbə sevincini isə Şuşa şəhərində yaşayıb.

Atası İlqar kişi daş karxanasında usta işləyir, anası Yasəmən xanım evdar qadındır. Böyük qardaşı Kamran ticarətlə məşğuldur. Kiçik qardaşı Kamin hazırda hərbi xidmətdədir.

Kamil Şirinov 2020-ci ilin son günü tərxis olunub.

İgid gəncin sinəsini "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları bəzəyir.

# Kamran Nurəli oglu İmanov

**“Xocavəndin azad olunmasına görə”** medalı




**“Füzulinin azad olunmasına görə”** medalı

# *Xəsarət alanda da döyüş meydanını tərk etməyib*

"Cəsur əsgər və zabitlərimiz düşmənin işğal etdiyi torpaqlarımızda otuz il ərzində qurduğu nəhəng istehkamları yara-yara Ermənistanın ordusunu darmadağın etdi. Silahlı Qüvvələrimizin sarsıdıcı zərbələri qarşısında davam gətirə bilməyən mənfur düşmən hətta geri çəkiləndə də öz çirkin xislətinə sadiq qalırdı, hərbi cinayətlərə və terror aktlarına əl atırdı."

Bu sözləri Dəniz Nəqliyyatı Donanmasının "Qarabağ" gəmisinin matrosu Kamran İmanov 44 günlük Vətən müharibəsindən, Ali Baş Komandanın qətiyyətli sərkərdəliyi, ordu və xalq birliyi sayəsində qazanılan şanlı Qələbədən danışarkən deyib.

Kamran Nurəli oglu İmanov 1998-ci il oktyabrın 6-da Biləsuvar rayonunun Agalıkənd kəndində dünyaya göz açıb.

2004–2015-ci illərdə kənd tam orta məktəbində təhsil alıb.

2016-cı ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının "Gəmi sürücülüyü" fakültəsinə daxil olub və 2020-ci ildə "Dəniz naviqasiyası mühəndisliyi" ixtisası üzrə bitirib. 2020-ci ilin iyulunda müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına çağırılıb.

Vətən müharibəsi dövründə hərbi xidmətdə olan Kamranın döyüş yolu Füzuli rayonunun Yuxarı Əbdürrəhmanlı kəndindən başlayıb. İgid əsgər buradan bir-birindən cəsur hərbçi yoldaşları ilə birlikdə düşmənin müdafiə xətlərini yara-yara, istehkamlarını başlarına uçura-uçura, postlarını ələ keçirə-keçirə irəliləyib. Qorqan adlandırılan ərazini nəzarətə götürdükdən sonra Aşağı Seyidəhmədli, Yuxarı Seyidəhmədli kəndlərindən və Füzulinin mərkəzindən keçərək Xocavəndin azad edilməsi uğrunda döyüşlərə qatılıblar.

Füzulidə hiyləgər düşmənin qurduğu pusquya düşmələrindən, döyüşlərin birində xəsarət alsa da, hərbçi yoldaşlarını tərk etməməsindən heç nə baş verməmiş kimi danışır...

Qələbə xəbərini Xocavənddə Qırmızı Bazar ətrafında eşidib.

2021-ci ilin iyulunda tərxis olunub.

Halal çörəklə böyüyən Kamranın atası Nurəli kişi bənna işləyir. Anasını erkən – 9 yaşında itirib. İki bacı və iki qardaşın istəklisidir.

44 günlük Zəfər yürüşündə əsl igidlik nümayiş etdirən Kamran İmanovun sinəsini "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları bəzəyir.

# Mahmud İsgəndər oğlu Kərimli

**“Suqovuşanın azad olunmasına görə”** medalı

**“Vətən müharibəsi iştirakçısı”** medalı

# *Ad günündə düşmən təslim oldu*

Dəniz Nəqliyyatı Donanmasının “Bərdə” gəmisinin motorçusu Mahmud İsgəndər oğlu Kərimli 1997-ci il noyabrın 10-da Sumqayıt şəhərində dünyaya göz açıb.

2004–2015-ci illərdə Sumqayıt şəhərində yerləşən Cəbrayıl rayon tam orta məktəbində təhsil alıb.

Dənizçi olmaq arzusu Mahmud Kərimlini ASCO-nun Azərbaycan Dövlət Dəniz Akademiyasına gətirib çıxarıb: 2015-ci ildə “Gəmi mexanikası və elektromexanikası” fakültəsinə daxil olub. 2019-cu ildə bu təhsil ocağını “Gəmi energetik qurğularının istismarı mühəndisliyi” ixtisası üzrə bitirib.

2019-cu ilin iyulunda müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına yollanıb.

Vətən müharibəsi başlayanda hərbi xidmətdə olub.

“N” saylı hərbi hissənin tərkibində 4-cü taborun minaatan batareyasının komandiri kimi ilk gündən döyüşlərə atılıb. Kəlbəcər istiqamətində – Yaylaq postunda düşmənin hücumuna 300–400 metr məsafədən artilleriya zərbələri endirməklə cavab veriblər. Daha sonra Suqovuşan və Talış kəndinin işğalçılardan azad edilməsi döyüşlərində igidlik göstərib.

Kiçik çavuş Mahmud Kərimli cəbhədə ən çox irəli getmək, şəhid olsa belə Qələbəyə öz payını vermək barədə düşünüb. Münaqişəyə son qoyulması barədə Azərbaycan Prezidentinin, Ermənistanın baş nazirinin və Rusiya Prezidetinin imzaladıqları üçtərəfli Bəyanatın noyabrın 10-na təsadüf etməsini isə dövlət başçılarının ona ad günü hədiyyəsi hesab edir. Qələbədən sonra ən çox xalqımızın Vətən müharibəsində göstərdiyi birliyin əbədi olmasını arzulayır. Onun fikrincə, bu birlik davam etdikcə düşmənlərimizin bütün bəd niyyətləri ürəklərində qalacaq: torpaqlarımıza əl uzadanların əli kəsiləcək.

Atası İsgəndər Kərimov Fövqəladə Hallar Nazirliyində işləyib, ehtiyatda olan kapitandır. Anası Mətanət xanım SOCAR-da çalışır. İki bacısı var. Bütün bacılar kimi, onlar da qardaşını çox istəyir və Vətən müharibəsində göstərdiyi igidlikdən qürur duyurlar.

Ömrünü həmişəlik şərəfli dənizçi peşəsinə həsr etmək istəyən Mahmud Kərimlinin Qələbədən sonra ən böyük arzusu “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin gəmilərində dünyanın müxtəlif limanlarına yan almaqdır.

Ordu sıralarından 2021-ci ilin iyulunda tərxis olunan Mahmud Kərimli "Suqovuşanın azad olunmasına görə” və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edilib.

# Mehrac Faiq oğlu Əsədov

**“Suqovuşanın azad olunmasına görə”** medalı

# Fəxr ediləsi igid

Ərazi bütövlüyümüz uğrunda haqq savaşında şücaəti ilə seçilən Dəniz Nəqliyyatı Donanmasının "Koroğlu" gəmisinin motorçusu Mehrac Faiq oğlu Əsədov 1999-cu il mayın 1-də Salyan rayonunun Sarvan kəndində doğulub.

2005–2016-cı illərdə İsfəndiyar Həsənov adına kənd tam orta məktəbində təhsil alıb.

2016-cı ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının "Gəmi mexanikası və elektromexanikası" fakültəsinə daxil olub. 2020-ci ildə bu təhsil ocağını "Gəmi energetik qurğularının istismarı mühəndisliyi" ixtisası üzrə bitirib.

2020-ci ilin iyulunda müddətli həqiqi hərbi xidmətə çağırılıb.

Vətən müharibəsi başlayanda həqiqi hərbi xidmətdə olduğu üçün ilk gündən əsgər kimi döyüşlərdə iştirak edib.

Sentyabrın 27-də Barambart meşəsi adlanan ərazidə Talış kəndi uğrunda döyüşlərə atılıb. Məkrli düşmən igidlərimizin təminat yollarını da fasiləsiz atəş altında saxladığından bu istiqamətdə ilk döyüşləri çox çətin keçib. Amma işğal altında olan yaşayış məskənlərimizi yağı tapdağından azad etmək istəyi o qədər güclü olub ki, heç nə əsgər və zabitlərimizin döyüş ruhunu aşağı sala bilməyib.

Talış kəndində üçrəngli bayrağımız dalğalandırıldıqdan sonra Suqovuşan istiqamətində irəliləməyə çalışıblar. Piyada tam təchizatla 25 kilometrdən çox yol qət ediblər. Üç tərəfdən düşmənin əhatəsində olan atəş mövqeyimizə çatdıqdan sonra 3 gün qızğın döyüşlər gedib. Düşmənin burnunu yaxşıca ovsalar da, itkisiz də keçinə bilməyiblər. Bir əsgər yoldaşı snayper gülləsinə tuş gəlib. Mərmi qəlpələrindən xəsarət alan olub.

Mehrac Əsədovun dediklərindən: "Qələbə sevincini yaşamaq istədiyimdən Qələbə haqqında daha çox düşünürdüm. Bizim nəsil otuz il düşmən tapdağı altında qalan yaşayış məskənlərimizin necə gözəl olduğunu televiziya kanallarında görmüşdü. O yerləri qarış-qarış gəzmək ən böyük arzum idi."

Ömrü boyu alnının tərinə, əllərinin qabarına güvənən atası Faiq kişi usta işləyir, anası Tünzalə xanım evdar qadındır. Ailənin tək övladı olan Mehrac ön cəbhədə olduğunu doğmalarından gizli saxlayıb. Narahat olmalarını istəməyib. Ata-anası müharibədə döyüşdüyündən Qələbədən sonra xəbər tutublar. Təbii ki, fəxr ediblər. Belə igid oğulla kim fəxr etməz ki?!

2021-ci ilin iyulunda tərxis olunub.

Ərazilərimizin işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında igidlik və şücaət nümunəsi göstərən Mehrac Əsədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.

# Nurlan İlqar oğlu Həsənov

**“Suqovuşanın azad olunmasına görə”** medalı

# *“Uca Tanrı Azərbaycanın ərazi bütövlüyünü təmin edən igidləri xalqımıza çox görməsin!”*

“Torpaqlarımızın 20 faizini işğal edəndən sonra Ermənistan hakimiyyətinin bütün gücü bu ərazilərimizdə möhkəmlənməyə yönəlmişdi. Dinc yolla torpaqlarımızı qaytarmaq çağırışına əhəmiyyət vermirdilər. Yəqin ki, sülhsevərliyimizi acizlik kimi başa düşürdülər. Müttəfiqləri isə regionda söz sahibi olan Azərbaycanla sülh şəraitində yaşamaqdan başqa çıxış yolu olmadığını Ermənistana açıq demək əvəzinə, “suyu bulandırmaq”la məşğul idilər. Beləcə, müstəqil Azərbaycanın səbir kasası daşana kimi sülh qiyafəsində çox ölkə “bulanıq suda balıq tutmağa” çalışdı.”

Vətən müharibəsi iştirakçısı Nurlan Həsənovun bu qənaəti ilə yəqin çoxları razılaşar.

Nurlan İlqar oğlu Həsənov 1999-cu il avqustun 10-da Bakı şəhərində doğulub.

2005–2016-cı illərdə M.Ə. Rəsulzadə qəsəbəsində Tərlan Heybətov adına 126 nömrəli tam orta məktəbdə təhsil alıb.

Dənizçi peşəsinə marağı sular qoynunda üzən qohumları yaradıb. Uşaqlıqdan dənizçi olmaq qərarına gələn Nurlan 2016-cı ildə Azərbaycan Dövlət Dəniz Akademiyasına daxil olub və burada təhsil aldığı dörd ildə “Proseslərin avtomatlaşdırılması mühəndisliyi” ixtisasına dərindən yiyələnib.

2020-ci ilin iyulunda müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına çağırılıb.

Vətən müharibəsi başlayanda Orduda xidmət etdiyindən ilk günlərdən sinəsini qalxana çevirib. Əsgər kimi Tərtər–Ağdərə istiqamətində gedən döyüşlərdə fəal iştirak edib.

Vətən müharibəsi günlərində ata-ana və bacısının narahatlığını yaxşı anlayan Nurlan hər dəfə əzizləri ilə danışanda, onlara ön cəbhədən çox uzaqda olduğunu söyləyib.

Hazırda ASCO-nun Dəniz Nəqliyyatı Donanmasının “Akademik Həsən Əliyev” gəmisində elektrik kimi səfərlərə çıxan Nurlan Vətən müharibəsi iştirakçılarına göstərilən diqqət və qayğıdan məmnundur.

– Möhtərəm Prezidentimizin uzaqgörən siyasəti sayəsində qüdrətlənən Azərbaycanın özü kimi, Silahlı Qüvvələri də çox güclü idi, – deyir Nurlan Həsənov. – Üstəlik, bütün xalqımız müzəffər Ordumuza dayaq idi. Ona görə, Zəfər qazanmaq çox da çətin olmadı. Uca Tanrı Azərbaycanın ərazi bütövlüyünü təmin edən igidləri xalqımıza çox görməsin!

Nurlan Həsənovun özü də Odlar yurdunun belə igidlərindəndir. “Suqovuşanın azad olunmasına görə” medalı da Vətənin ona oğul dediyi günlərdən bir xatirədir.

# Nurlan Ehtiram oğlu Şahbazov

**“Qubadlının azad olunmasına görə”** medalı

# *Yurdumuzun ərazi bütövlüyünün bərpa ediləcəyinə zərrəcə şübhəsi olmayan dənizçi*

"Doğrudan da Vətən, torpaq çox şirin imiş! Bunu bir daha İkinci Qarabağ savaşında hiss etdik. Şükürlər olsun ki, qırx dörd gün davam edən Vətən müharibəsi Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin yenilməz iradəsi və Ordumuzun rəşadəti sayəsində Qələbə ilə başa çatdı. Torpaqlarımızın 30 illik işğalına son qoyan bu Zəfər hər birimizə sonsuz sevinc bəxş etdi."

Bu sözləri iştirakçısı olduğu Vətən müharibəsində yurdumuzun ərazi bütövlüyünün təmin olunacağına zərrəcə şübhəsi olmayan və Qələbənin qazanılmasına öz töhfəsini verən Nurlan Şahbazov söyləyib.

Hazırda ASCO-nun Dəniz Nəqliyyatı Donanmasına məxsus "Professor Gül" gəmi-bərəsində matros işləyən Nurlan Ehtiram oğlu Şahbazov 1999-cu il iyulun 6-da Biləsuvar rayonunun Nəsimi kəndində dünyaya göz açıb.

2005–2016-cı illərdə Biləsuvarda Kəmaləddin Ağayev adına Texniki fənlər təmayüllü internat tipli məktəb-liseydə təhsil alıb.

Uşaq vaxtlarından dənizə böyük marağı olub. 2016–2020-ci illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasının "Gəmi sürücülüyü" fakültəsində "Dəniz naviqasiyası mühəndisliyi" ixtisasına yiyələnib.

2020-ci ilin iyulunda müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına yollanıb.

Vətən müharibəsi başlayanda hərbi xidmətdə olub və övladlıq borcunu sıravi əsgər kimi yerinə yetirib. Bütün gənclər kimi o da fikirləşib ki, canları bahasına da olsa, torpaqlarımız yağı tapdağından azad edilməlidir. Sentyabrın 27-də əks-hücum əmri verilən kimi dəqiq zərbələrlə düşmənin bir çox hərbi obyektlərini, idarəetmə məntəqələrini, raket anbar sistemlərini məhv ediblər. Heç bir döyüş asan keçməyib. Alınmaz qala hesab olunan Şuşa uğrunda döyüşlər daha çətin keçib.

Nurlan deyir ki, Qələbə əldə etmək, xalqımıza həsrətində olduğu Zəfər sevincini yaşatmaq istəyirdik. Qələbə ilk növbədə gözlərini belə qırpmadan Vətən uğrunda canlarından keçən şəhidlərin qəhrəmanlığı hesabına qazanıldı.

Müharibədən əvvəl ən böyük arzusu torpaqlarımızı yağı tapdağından azad etmək olub. Qələbədən sonra bütün xalqımıza o yerləri gedib görməyi arzulayır.

2021-ci ilin iyulunda tərxis olunub.

Beş nəfərdən ibarət ailənin ilkidir. Bir bacı və bir qardaşı var. Vətən müharibəsi başlayanda Nurlanın ön cəbhədə olduğundan xəbər tutan ata-anası, bacı-qardaşı yalnız Qələbə ilə qayıtmasını arzulayıblar.

Elə arzu etdikləri kimi də qayıdıb. Sinəsində də "Qubadlının azad olunmasına görə" medalı!

# Osman Əşrəf oğlu Həsənov

**“Cəbrayılın azad olunmasına görə”** medalı

**“Xocavəndin azad olunmasına görə”** medalı

**“Laçının azad olunmasına görə”** medalı

# *“Qələbə bütün ağrı-acılarımızı unutdurdu”*

“Hərbi-texniki təchizatı, nizam-intizamı və döyüş ruhu kifayət qədər yüksək olan rəşadətli Ordumuz torpaqlarımızın işğaldan azad edilməsi ilə bağlı müqəddəs vəzifəsini yerinə yetirməyə çoxdan hazır idi. Terroru və faşizmi dövlət siyasəti səviyyəsinə qaldıran Ermənistan isə havadarlarına arxalandığı üçün işğal etdiyi və sərvətlərini taladığı Azərbaycan torpaqlarından çıxmaq istəmirdi. Bu, yeni müharibə təhlükəsini qaçılmaz edirdi.”

Bu sözlər yenilməz Ordumuz düşmən üzərinə Zəfər yürüşünə çıxanda ön sıralarında olan Osman Həsənovun dilində səslənib.

ASCO-nun Dəniz Nəqliyyatı Donanmasında çalışan Osman Əşrəf oğlu Həsənov 1997-ci il fevralın 15-də Bakının Maştağa qəsəbəsində dünyaya göz açıb.

2003–2014-cü illərdə Buzovna qəsəbəsindəki 322 nömrəli tam orta məktəbdə təhsil alıb.

2015-ci ildə müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına yollanıb.

Vətən müharibəsinə 2020-ci il sentyabrın 21-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin çağırışı əsasında gedib.

Çavuş rütbəsində manqa komandiri kimi Füzuli, Xocəvənd, Cəbrayıl, Şuşanın azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. Müharibənin hər üzünü görüb: mühasirəyə düşdüyü də, ac-susuz qaldığı da, yaş torpağın üstündə yatdığı da, silahdaşını itirdiyi üçün göz yaşını saxlaya bilmədiyi də olub, yaşayış məskənlərimizi işğalçılardan azad edərkən sinəsinin sevincə darlıq etdiyi də.

– Düşmənin təxribatının qarşısının alındığı ilk gündən işğalçılar anladılar ki, onların qarşısında 1990-cı illərdəki özünümüdafiə dəstələri yox, ən müasir silahlarla təmin edilmiş nizami Azərbaycan Ordusu dayanır, – deyir Osman Həsənov. – Canlarına düşən bu qorxu hissi ağ bayraq qaldırana kimi onları tərk etmədi. Qələbə bizim bütün ağrı-acılarımızı unutdurdu.

Qələbə xəbərini Şuşanın Çanaqçı kəndində eşidib. Qələbə ilinin son günü tərxis olunub.

Atası Əşrəf kişi hərbi zavodda isləyir, anası Qələmnaz xanım evdar qadındır. Nərmin adında bir bacısı var. Osman cəbhədə olanda gözlərinə yuxu getməsə də, bu gün onunla fəxr edirlər.

Qələbədə payı olanlara və onların ailələrinə göstərilən diqqətdən razıdır.

Xalqımızın igid oğlu Osman Həsənov “Cəbrayılın azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə” və “Laçının azad olunmasına görə” medalları ilə təltif edilib.

# Pərviz Çingiz oğlu Abbasov

**“Vətən müharibəsi iştirakçısı”** medalı

# *Xalqımızın birliyi əsgər və zabitlərimizə əlavə güc verib*

"İkinci Qarabağ savaşında bütün dünya xalqımızın sonsuz Vətən sevgisinə heyran qaldı. Gənclərimiz ulularımızın bizə əmanəti olan Odlar Yurdunun erməni işğalı altında olan torpaqlarının hər qarışı uğrunda canlarından keçməyə hazır idilər. Xalq və dövlət olaraq problemin birdəfəlik həllinə qərar verildiyindən rəşadətli Ordumuz üçün Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə ölkəmizin ərazi bütövlüyünü təmin etmək çox da çətin olmadı."

Azərbaycan Dövlət Dəniz Akademiyasının əməkdaşı Pərviz Abbasov iştirakçısı olduğu Vətən müharibəsində qazanılan Qələbədən danışarkən belə söyləyib.

Pərviz Çingiz oğlu Abbasov 1998-ci il oktyabrın 23-də Rusiya Federasiyasının Krasnoyarsk şəhərində doğulub.

2005-ci ildə Krasnoyarsk şəhərindəki 1 nömrəli məktəbin birinci sinfinə daxil olub. 2009-cu ildən təhsilini Bakıda Etibar Əliyev adına 162 nömrəli tam orta məktəbdə davam etdirib.

2016-cı ildə daxil olduğu Azərbaycan Dövlət Dəniz Akademiyasını 2020-ci ildə "Dəniz naviqasiyası mühəndisliyi" ixtisası üzrə bitirib.

2020-ci ilin iyulunda müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına çağırılıb. İki aydan sonra Vətən müharibəsi başlayıb.

Sentyabrın 27-dən Tərtər–Ağdərə (Tərtər, Talış, Suqovuşan, Ağdam) istiqamətində gedən döyüşlərdə əsgər-baş mexanik kimi iştirak edib.

İlk dəfə düşmənlə Suqovuşan istiqamətində üz-üzə gəlib. Döyüş asan keçməsə də, düşməni səngər və sığınacaqlarından qovublar, silah-sursatlarını da qənimət götürüblər.

Döyüş zamanı xalqımızın birliyinin əsgər və zabitlərimizə əlavə güc verdiyini deyir. Cəbhədən üzüağ – Qələbə ilə qayıtmaq istəyib. Qələbə xəbərini Suqovuşandan Tərtərə gəldiyi gecə alıb.

2021-ci ilin iyulunda Ordu sıralarından tərxis olunub. 2021-ci ilin noyabrından Azərbaycan Dövlət Dəniz Akademiyasında böyük laborant kimi çiyninə düşən vəzifənin öhdəsindən layiqincə gəlir.

Ailənin ilk övladıdır. Qələbədən sonra nəvələrin baldan nə qədər şirin olduğunu bilmək istəyən valideynlərindən tərifdən çox, məzəmmət eşidir. Atası da, riyaziyyatı şagirdlərə sevdirən anası Hürnisə xanım da, tələbə bacısı Arifə də müstəqil Azərbaycanda daha bir xoşbəxt ailənin təməlinin məhz bu ocaqda qoyulmasını arzulayır və Pərvizə "Vaxt keçir, evlən!" deyirlər.

"Vətən müharibəsinin iştirakçısı" medalı ilə təltif edilib.

# Polad Valid oğlu Qadaşov

**“Suqovuşanın azad olunmasına görə”** medalı

**“Vətən müharibəsi iştirakçısı”** medalı

# *“Qələbə üçün canından keçməyə hazır olmaq azdır”*

Yurd həsrətimizə son qoyan igidlərimizdən biri – hazırda Dəniz Nəqliyyatı Donanmasının “Merkuri-1” gəmi-bərəsində elektrik işləyən Polad Valid oğlu Qadaşov 1999-cu il yanvarın 10-da Quba rayonunun Əlik kəndində doğulub.

Quba şəhərində Heydər Əliyev adına 1 saylı tam orta məktəbi bitirdikdən sonra daxil olduğu Azərbaycan Dövlət Dəniz Akademiyasında “Proseslərin avtomatlaşdırılması mühəndisliyi” ixtisasına yiyələnib.

2020-ci il iyulun 9-da Ordu sıralarına çağırılıb. İkinci Qarabağ savaşı başlayanda müddətli həqiqi hərbi xidmətdə olub.

Vətən müharibəsində minaatan batareyanın tərkibində usta heyət nəfəri – əsgər kimi çiyninə düşən vəzifəsini layiqincə yerinə yetirib. Ağdam rayonu, Talış kəndi və Suqovuşanın işğalçılardan təmizlənməsi uğrunda gedən döyüşlərdə şücaət göstərib.

Suqovuşanın azad olunması uğrunda döyüşü daha çətin sayır. Hiyləgər düşmənin qurduğu tələyə düşsələr də işğalçılara layiqli cavab veriblər.

O günləri xatırlayan Polad deyib: ”Cəbhədə bütün fikrimizi əsas məqsədə yönəltmişdik. Çünki bilirdik ki, doğmalarımız başda olmaqla, arxada qoyub gəldiyimiz bütün insanlar bizdən Qələbə gözləyirlər. Qələbə üçün isə canından keçməyə hazır olmaq azdır. Yurdumuza soxulan işğalçıları naqis əməllərinə görə peşman etmək üçün bütün diqqətimizi döyüşə yönəltməli idik. Bəxtimiz bir də onda gətirdi ki, çətin sınaq günlərində xalqımız bizi tək qoymadı, bizə çox böyük mənəvi dayaq oldu. Yaxşı yadımdadır, Cəlilabad rayonunun Göytəpə qəsəbəsindən məktəbli Nuray Mirzəyevanın yazdığı məktubu oxuyarkən uzun müddət təsirindən çıxa bilmədim. O məktubdan sonra düşməni yalın əllə belə məhv etməyə hazır idim.”

Qələbə xəbərini düşmənə növbəti qəfil zərbəni vurmaq üçün Xocavənd rayonuna gedərkən öyrənib.

Atası Valid kişi fərdi sahibkardır, anası Fəridə xanım evdar qadındır. Böyük qardaşı Pərviz riyaziyyat və informatika müəllimidir. Kiçik qardaşı Namiq tələbədir. Polad ailənin ikinci övladıdır.

– Bütün doğmalar kimi mənim də valideynlərim və qardaşlarım döyüşdə olduğum vaxtlarda böyük narahatlıq keçiriblər, amma bunu büruzə verməyiblər, – deyir Polad Qadaşov. – Əksinə, daha yaxşı döyüşmək üçün mənə ruh yüksəkliyi aşılayıblar və buna görə onlara minnətdaram.

Polad Qadaşov rəşadətli Ordumuzun sıralarından 2021-ci il sentyabrın 1-də tərxis olunub.

İgid dənizçinin sinəsini “Suqovuşanın azad olunmasına görə”, “Ağdamın azad olunmasına görə” və “Vətən müharibəsi iştirakçısı” medalları bəzəyir.

Ramal
Ramin oğlu
Rüstəmov

# *“Torpaqlarımıza göz dikənin gözlərini ovucuna tökəcəyik”*

“44 günlük Vətən müharibəsinin hər anı qəhrəmanlıqla dolu idi. Müasir hərbi texnologiyalarla aparılan bu haqq savaşında qorxmaz, cəsur gənclərin yüksək vətənpərvərlik ruhu çox şeyi həll etdi. Onlar əsl qəhrəmanlıq nümayiş etdirdilər.”

Bu fikri Vətən müharibəsində belə vətənpərvər yaşıdlarından geri qalmamağa çalışan dənizçi Ramal Rüstəmov söyləyib.

Ramal Ramin oğlu Rüstəmov 1998-ci il noyabrın 25-də Biləsuvar rayonunun Aşağı Cürəli kəndində doğulub.

2005–2016-cı illərdə kənddə O. Babayev adına tam orta məktəbdə təhsil alıb.

Dənizçi olmaq istəyi ilə 2016-cı ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının “Elektrik mühəndisliyi” ixtisasına daxil olub.

2020-ci ilin iyulunda müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına çağırılıb.

Vətən müharibəsi başlayanda hərbi xidmətdə olub.

İlk gündən döyüşlərə qatılıb. Füzuli, Xocavənd, Cəbrayıl istiqamətində gedən döyüşlərdə iştirak edib.

Düşmənlə ilk dəfə Füzuli rayonunun “İlan dağı” deyilən ərazisində üz-üzə gəlib. Özü kimi igidlərlə düşmənin xeyli canlı qüvvəsini məhv etməklə yanaşı, texnikalarını və silah-sursatlarını da ələ keçiriblər.

Ən çətin döyüşü Füzuli rayonunun Gecəgözlü kəndi uğrunda olub. Saatlarla davam edən döyüşdə şəhid versələr də, düşmənin onlarla canlı qüvvəsini məhv ediblər. Üzbəüz döyüşdə açiz qalan düşmən bundan sonra onları bir neçə saat artilleriya atəşinə tutub. Lakin yenə də haqq savaşına çıxan əsgər və zabitlərimizin əzmini sarsıda bilməyib.

Oktyabrın 21-də Füzuli rayonunun Gecəgözlü kəndində minaatan mərmisinin partlaması nəticəsində şəhid olan əsgər yoldaşını döyüş meydanından çıxaran zaman yaralanıb.

– Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Ordumuz döyüş meydanında əsl şücaət nümayiş etdirərək əzəli ərazilərimizi erməni işğalından azad etdi, – deyir Ramal Rüstəmov. – Müstəqil Azərbaycan Vətən müharibəsində qazandığı möhtəşəm Zəfərlə həm güclü dövlət olduğunu sübut etdi, həm də göstərdi ki, onun torpaqlarına göz dikənin gözlərini ovucuna tökəcək.

2021-ci ilin avqustundan Dəniz Nəqliyyatı Donanmasının “Ordubad” gəmisində elektrik işləyən Ramal Rüstəmov hər səfərə böyük sevinclə çıxır. İgid dənizçinin Qələbədən sonra ən böyük arzusu sular qoynunda öz işinin mahir ustası kimi püxtələşməkdir.

# Ramiz Elxan oğlu Əmirov

**“Cəbrayılın azad olunmasına görə”** medalı

**“Xocavəndin azad olunmasına görə”** medalı

**“Füzulinin azad olunmasına görə”** medalı

# *Torpaqlarımızın hər qarışı üçün şücaət göstərən igid*

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun qazandığı tarixi Qələbədə onun da öz payı var. Ərazilərimizin işğaldan azad edilməsi üçün hər qarışı uğrunda şücaət göstərən igidlərimizdəndir Ramiz.

Dəniz Nəqliyyatı Donanmasının "Teymur Əhmədov" teploxodunun matrosu Ramiz Elxan oğlu Əmirov 1999-cu il yanvarın 7-də Sumqayıt şəhərində dünyaya göz açıb.

2005–2016-cı illərdə şəhərin Kimyaçılar qəsəbəsində yerləşən 5 saylı tam orta məktəbdə təhsil alıb.

Yaxın-uzaq səfərlərə çıxmaq arzusu ilə 2016-cı ildə Azərbaycan Dövlət Dəniz Akademiyasına daxil olub və 2020-ci ildə "Gəmi sürücülüyü" fakültəsini bitirib.

2020-ci ilin iyulunda müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına yollanıb və iki aydan sonra işğalçı Ermənistanın silahlı birləşmələri yaşayış məskənlərimizə hücum edib. Əsgəri olduğu taqım ilk dəfə düşmənlə Füzuli rayonunda üz-üzə gəlib. Düşmənin hücumuna əks-həmlə ilə cavab verən taqımın igidləri iki kəndi işğalçılardan təmizləyə biliblər.

Füzulidən başlanan döyüş yoluna sonralar Cəbrayılın, Hadrutun, Xocavəndin, Qubadlının, Şuşanın ... adları düşüb.

Füzuli uğrunda gedən döyüşlərin asan keçmədiyini söyləyir.

Qələbə xəbərini isə Xocavənddə eşidib. Əsgər yoldaşı sevindirib onu.

– Uzun illər boyunca ermənilər az qala bütün dünyanı bir çox uydurma və yalanlarına inandıra bilmişdilər, – deyir Ramiz Əmirov. – Burada qeyri-adi heç nə yoxdur. Məkrli, hiyləgər qonşularımız yalanlarını inandırıcı danışmağı bacarırlar. "Yenilməz erməni ordusu" haqqında dediklərinin cəfəngiyyat olduğunu isə Vətən müharibəsində sayı on mini keçən fərariləri ilə özləri təsdiq etdilər.

Ramiz Əmirov 2021-ci ilin iyulunda tərxis olunub.

Atası Elxan Əmirov sahibkarlıq fəaliyyəti ilə məşğuldur. Anası Züriyyət xanım "Azərsu" ASC-də işləyir. Ramiz ailənin sonbeşiyidir. Aygün adında bir bacısı var. O da Qələbədən sonra yəqin ki, igid qardaşına yaraşan gözəl axtarır...

Dövlət başçımızın sərəncamları ilə layiq görüldüyü "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları da ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi əməliyyatlarında göstərdiyi şəxsi igidlik və şücaəti təsdiqləyir.

# Saleh Bəhlul oğlu Salahov

**“Cəbrayılın azad olunmasına görə”** medalı

**“Füzulinin azad olunmasına görə”** medalı




**“Şuşanın azad olunmasına görə”** medalı

# *Odlar Yurdu igidlər sarıdan heç vaxt kasıb olmayıb*

Bu gün də fəxr edir ki, rəşadətli Ordumuz dünyanın hərb tarixinə yeni səhifə yazanda – işğalçı ölkənin silahlı qüvvələrini diz üstə çökdürməklə, illərlə formalaşan "yenilməz erməni ordusu" mifini darmadağın edəndə onun da əlində silah olub. Söhbət Vətən müharibəsində şərəfli döyüş yolu keçən Xəzər Dəniz Neft Donanmasının "Geofizik-1" gəmisinin elektriki Saleh Salahovdan gedir.

Saleh Bəhlul oğlu Salahov 1995-ci il avqustun 16-da Neftçala rayonunun Yuxarı Qaramanlı kəndində dünyaya göz açıb.

2001–2012-ci illərdə kənddə Rəfael Əliyev adına tam orta məktəbdə təhsil alıb.

Məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Dəniz Akademiyasına daxil olub və 2016-cı ildə "Proseslərin avtomatlaşdırılması mühəndisliyi" ixtisası üzrə bitirib.

2018-ci ilin aprelində müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına çağırılıb və 2019-cu ilin aprelində tərxis olunub.

Əmək fəaliyyətinə Neftçala rayonundakı "Fish Farm" MMC-də mühafizəçi kimi başlayıb.

2020-ci il sentyabrın 21-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin çağırışı əsasında təlimlərə cəlb edilib.

Vətən müharibəsi başlayanda topçusu olduğu artilleriya divizionu Füzuli rayonunun Şükürbəyli kəndində olub və sentyabrın 27-də ermənilərin növbəti təxribatına əks-hücumla cavab veriblər.

Füzuli, Xocavənd, Cəbrayıl, Zəngilan, Laçın, Şuşa rayonlarının düşməndən azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak edib və topçu kimi düşmənə layiq olduğu cavabı verib.

2020-ci il dekabrın 31-də Ordu sıralarından təxris olunub.

Üç bacının tək qardaşıdır Saleh. Qələbədən sonra bacıların ən böyük arzusu hələ də subaylığın sultanlıq olduğunu düşünən Salehin toyunu görməkdir.

Bəlkə, sinəsini "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları bəzəyən igid qardaşlarına yaraşan gözəl də axtarırlar. Axtarırlarsa, tapacaqlar. Çünki Odlar Yurdu igidlər kimi, gözəllər sarıdan da heç vaxt kasıb olmayıb!

# Seyfulla Vüqar oğlu Salmanov

**“Cəsur döyüşçü”** medalı

**“Ağdamın azad olunmasına görə”** medalı

# *Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun xidmət etdiyi ərazidə özünü ölümsüz hiss edən igid*

"2020-ci ilin iyul ayında Ermənistan silahlı qüvvələrinin Tovuz istiqamətində törətdiyi hərbi təxribat nəticəsində 13 hərbçi və mülki şəxs həlak oldu. Bir ay sonra – avqust ayında igidlərimiz faşistlərin təxribat qrupunu tərk-silah etdilər. Baş verən hadisələr torpaqlarımızın beşdə birini işğal altında saxlayan bu ölkənin yeni ərazilər ələ keçirməyə hazırlaşdığını göstərirdi. Atalar əbəs yerə deməyiblər ki, "İştah diş altındadır." Elə buna görə, sentyabrın 27-nə təsadüf edən növbəti təxribata Azərbaycan Ordusu işğalçıların "dişlərini sındırmaqla" cavab verməyə məcbur oldu."

Bu sözlər Vətən müharibəsinin iştirakçısı olan ASCO-nun Dəniz Nəqliyyatı Donanmasının "Professor Gül" gəmi-bərəsinin elektriki Seyfulla Salmanovun dilindən çıxıb.

Seyfulla Vüqar oğlu Salmanov 1997-ci il noyabrın 14-də Sumqayıt şəhərində dünyaya göz açıb.

2004–2016-cı illərdə Bakı şəhərinin Ələt qəsəbəsində Elman Rzayev adına tam orta məktəbdə təhsil alıb.

2016-cı ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının "Gəmi mexanikası və elektromexanikası" fakültəsinə daxil olub və 2020-ci ildə "Elektrik mühəndisliyi" ixtisası üzrə bitirib.

ADDA-nı bitirdikdən sonra müddətli həqiqi hərbi xidmətə yollanıb. Vətən müharibəsi başlayanda Ordu sıralarında xidmət etməsinə çox sevinib. Bu, ona ölkəmizin ərazi bütövlüyünün bərpasında ilk günlərdən iştirak etmək imkanı verib.

İstehkamçı-əsgər kimi Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun xidmət etdiyi postun yerləşdiyi ərazi uğrunda ilk döyüşə atılıb. Və bu ərazidə Seyfullanın sözləri ilə ifadə etsək, bütün igidlərimiz özlərini ölümsüz hiss ediblər. Talış kəndi, Suqovuşan qəsəbəsi və Ağdam rayonunun yaşayış məskənlərinin işğaldan azad olunması uğrunda gedən döyüşlərdə igidlik göstərib.

Qələbə xəbərini eşidəndə silahdaşları ilə düşmənin üzərinə növbəti hücum barədə fikirləşirlərmiş.

Seyfulla ailənin ilk övladıdır. Atası Vüqar Salmanov, anası Gülnarə xanım, qardaşı Elşən Vətən müharibəsi günlərində Seyfullanın ön cəbhədə qəhrəman kimi döyüşməsi, savaş bitdikdən sonra isə Zəfərin qazanılmasında onun da payı olması ilə haqlı fəxr edirlər.

Ölkəmizin ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirmiş, düşmənin əsas qruplaşmalarını və texnikasını məhv etməklə qoşunlarımızın döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqlənmiş Seyfulla Salmanovun şücaəti Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Cəsur döyüşçü" və "Ağdamın azad olunmasına görə" medalları ilə qiymətləndirilib.

# Təbriz Zülfüqar oğlu Səmədov

**“Cəbrayılın azad olunmasına görə”** medalı

**“Zəngilanın azad olunmasına görə”** medalı

# *Doğmaları döyüşdüyünü Vətən müharibəsində göstərdiyi igidlik və şücaətə görə təltif olunanda biliblər*

"2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu genişmiqyaslı təxribat törətməsinə cavab olaraq Azərbaycan Ordusu "Dəmir yumruq" əks-hücum əməliyyatına başladı. 44 gün davam edən haqq savaşımız təxminən otuz illik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi."

Bu sözlər Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm Zəfər yürüşünün iştirakçısı olan Təbriz Səmədovun dilindən çıxıb.

Təbriz Zülfüqar oğlu Səmədov 1999-cu il martın 8-də Qəbələ rayonunun Tüntül kəndində dünyaya göz açıb.

2021-ci il dekabrın 15-dən "Zığ" Gəmi Təmiri Zavodunda gəmi təmiri çilingəri işləyir.

2005–2016-cı illərdə Müşfiq Murtuzov adına Tüntül kənd tam orta məktəbində təhsil alıb.

2016-cı ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının "Gəmi sürücülüyü" fakültəsinə daxil olub. 2020-ci ildə "Gəmiqayırma və gəmi təmiri mühəndisliyi" ixtisası üzrə bitirib.

Vətən müharibəsi başlayanda hərbi xidmətdə olub.

Oktyabrın 8-də əsgər kimi əzəli yurdumuz Qarabagda işğalçılara qarşı döyüşən igidlərimizə qoşulub. Cəbrayıl və Zəngilan rayonlarının yağı tapdağından azad edilməsi döyüşlərində iştirak edib.

Qələbə xəbərini Zəngilanın Mincivan kəndində gecə saatlarında eşidib.

– Qələbə ölkəmizin ərazi bütövlüyünün bərpası demək idi, – deyir Təbriz Səmədov. – Yağının Qarabağı tar-mar etdiyi illərdə bundan böyük arzumuz olubmu? Yox. Ona görə, Qələbə sevinci bənzərsiz sevinc idi. Əminəm ki, Vətən müharibəsində xalqımıza Qələbə sevinci yaşatmış şəhidlərimizin xatirəsi hər zaman sonsuz ehtiramla və minnətdarlıqla anılacaq, keçdikləri qəhrəmanlıqla dolu şərəfli döyüş yolu gələcək nəsillərə nümunə göstəriləcək.

2021-ci il iyulun 22-də tərxis olunub.

Doğmaları – atası Zülfüqar kişi də, anası Niyarə xanım da, bacısı Nailə də Təbrizin döyüş bölgəsində olduğunu bilməyiblər. Bundan Vətən müharibəsində göstərdiyi igidlik və şücaətə görə təltif olunanda xəbər tutublar.

Xalqımızın cəsur oğlunun sinəsini "Cəbrayılın azad olunmasına görə" və "Zəngilanın azad olunmasına görə" medalları bəzəyir.

# Tural Mürşüd oğlu İnqilablı

**“Kəlbəcərin azad olunmasına görə”** medalı

# *Əsgərin zabit, zabitin əsgər üçün canından keçməyə hazır olduğu Ordu yenilməz*

– Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində möhtəşəm Zəfərlə tariximizdə yeni qəhrəmanlıq səhifəsi açdı, – deyir dənizçi Tural İnqilablı. – Mən əminəm ki, işğal altında olan torpaqlarımızı azad edərkən şəhidlik zirvəsinə ucalan igid Vətən övladları heç vaxt unudulmayacaq və onların əziz xatirəsi həmişə yad ediləcək.

Vətən müharibəsini Azərbaycan tarixinin ən şanlı və qürurverici səhifələrindən biri hesab edən və bu səhifənin yazılmasında özünün də xidməti olan Tural İnqilablı hazırda Dəniz Nəqliyyatı Donanmasının "Şəki" gəmisində elektrik kimi səfərlərə çıxır.

Tural Mürşüd oğlu İnqilablı 1998-ci il noyabrın 1-də Ağdaş rayonunun Kotavan kəndində dünyaya göz açıb.

2005–2016-cı illərdə Valeh Cəfərov adına Kotavan kənd tam orta məktəbində təhsil alıb.

Dənizçi olmaq istəyi ilə 2016-cı ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının "Gəmi mexanikası və elektromexanikası" fakültəsinə daxil olub. 2020-ci ildə "Elektrik mühəndisliyi" ixtisası üzrə bitirib.

2020-ci ilin iyulunda müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına çağırılıb. Vətən müharibəsi başlayanda hərbi xidmətdə olub.

Murovdağ və Kəlbəcərin azad olunması uğrunda döyüşlərdə əsgər kimi iştirak edib.

Murovdağda Zirvə yüksəkliyi uğrunda ilk döyüşdə silahdaşları ilə düşmənin ağır artilleriyasının aramsız hücumuna məruz qalıblar. Çətin döyüş olub. Amma irəliləməyi bacarıblar. Sonra Murovdağda çox böyük strateji əhəmiyətli postların, o cümlədən ən yüksək "Koroğlu" postunun alınmasında igidlik göstərib.

Əsgərin zabit, zabitin əsgər üçün canından keçməyə hazır olduğu Ordunun yenilməzliyinə əmindir Tural.

Qələbə xəbərini gecə saat 4-də postda növbədə olarkən əsgər yoldaşı ona çatdırıb.

Atası Mürşüd müəllim Ağdaş rayonu icra hakimiyyətinin Kotavan kəndi üzrə nümayəndəsidir. Anası Məhəbbət xanım evdar qadındır. Kiçik qardaşı İnqilab tələbədir. Doğmaları Turalla qürur duyurlar. Tural da onların başını uca etdiyinə sevinir.

Ordu sıralarından 2021-ci il iyulunda tərxis olunan Tural İnqilablı dövlət başçımızın Sərəncamı ilə "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilib.

# Uğur Hüseyn oğlu Hüseynli

**“Xocavəndin azad olunmasına görə”** medalı

**“Kəlbəcərin azad olunmasına görə”** medalı

# *“Müharibədə cəsarət də bir silahdır”*

Dəniz Nəqliyyatı Donanmasının "Ordubad" gəmi-bərəsinin motorçusu Uğur Hüseyn oğlu Hüseynli 1999-cu il aprelin 26-da Bakı şəhərində doğulub.

2005–2016-cı illərdə Bakıda Cəbrayıl rayonunun Hovuslu kənd tam orta məktəbini bitirib.

Əmisi Altay Hüseynov ASCO-nun təcrübəli dənizçilərindəndir. Otuz ildən çoxdur ki, Xəzər Dəniz Neft Donanmasının gəmilərində baş elektromexanik işləyir. Uğur da əmisinin açdığı cığırla dənizə gəlib.

2016-cı ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının "Gəmi mexanikası və elektromexanikası" fakültəsinə daxil olub və dörd ildə bu təhsil ocağında "Gəmi energetik qurğularının istismarı mühəndisliyi" ixtisasına dərindən yiyələnib.

Vətən müharibəsi başlayanda hərbi xidmətdə olub. İlk döyüşə “N” saylı hərbi hissənin tank əleyhinə idarə olunan raket kompleksi batareyasının pulemyotçusu kimi Kəlbəcər istiqamətində – “Ağçınqıl” və “Koroğlu” postlarını ələ keçirmək üçün atılıb. Bu döyüşdə çox irəliləyə bilməsələr də, endirdikləri sarsıdıcı raket zərbələri nəticəsində düşmənin çoxlu texnikasını, şəxsi heyətlə dolu “Ural” maşınını məhv ediblər.

Sonra Cəbrayıl rayonunun azadlığı uğrunda çətinliklərə sinə gərib. Füzuli və Xocavənd istiqamətində gedən döyüşlərdə də bacardıqca irəliləmək, torpaqlarımızı işğalçılardan mümkün olduğu qədər tez təmizləmək barədə düşünüb.

Uğurun dediklərindən: ”Ümumiyyətlə asan döyüşümüz olmayıb. Füzulidən Xocavənd istiqamətində irəliləyərkən daha çətin anlar yaşadıq. Düşmənlə daha yaxın məsafədə vuruşur və geriyə boylanmadan onların üstünə gedirdik. Müharibədə cəsarət də bir silahdır.”

Qələbə xəbərini Xocavənd rayonunda eşidib və sözlə ifadəsi asan olmayan sevinc yaşayıb.

Vətənpərvər, cəsur oğul böyüdən Hüseyn kişi Uğurun igidliyi ilə çox öyünə bilməyib. Müharibədən sonra haqq dünyasına qovuşub.

Uğur evin ortancıl oğludur. Nə evdar qadın olan anasının, nə iki qardaşının müharibə bitənə kimi Uğurun ön cəbhədə düşmənə qan uddurmasından xəbəri olmayıb. Uğur Ordu sıralarından 2021-ci ilin iyulunda tərxis olunub.

– Heç kəsə sirr deyil ki, sentyabrın 27-də Azərbaycan Ordusunun işğalçı Ermənistan silahlı qüvvələrinə qarşı başladığı əks-hücum əməliyyatının möhtəşəm Qələbəmizlə nəticələnməsini şərtləndirən əsas amillərdən biri milli birliyimiz idi, – deyir Uğur Hüseynli. – Vətən müharibəsi dövründə xalqımız eyni amal və məqsəd uğrunda dəmir yumruq kimi sıx birləşmişdi. Ərazi bütövlüyümüz də, birliyimiz də əbədi olsun!

İgid dənizçi “Xocavəndin azad olunmasına görə” və “Kəlbəcərin azad olunmasına görə” medalları ilə təltif edilib.

# Ülvi Taleh oğlu Hüseynzadə

**“Suqovuşanın azad olunmasına görə”** medalı

**“Füzulinin azad olunmasına görə”** medalı

# *Düşmənin təslim olduğunu eşidəndə bu Zəfər üçün canından keçən dostlarını xatırlayıb*

"Azərbaycan işğal altında olan ərazilərini qan tökmədən – danışıqlar yolu ilə azad etmək istəyirdi, buna görə təxminən otuz il dözüm nümayiş etdirərək Qarabağ münaqişəsinin sülh yolu ilə həlli prosesinə sadiq qaldı.

Ancaq işğalçının haqq yoluna gəlmək niyyəti olmadığı, ərazilərimizi dinc yolla qaytarmaq onların "dənizdən-dənizə böyük Ermənistan" kimi sərsəm xəyalları ilə düz gəlmədiyi üçün münaqişənin dinc yolla həllindən boyun qaçırırdı. Ermənistanın danışıqlar prosesini pozmağa yönələn təxribatları sonda Azərbaycanı güc amilini önə çəkməyə məcbur etdi."

Bu fikri Dəniz Nəqliyyatı Donanmasının "Koroğlu" gəmisinin motorçusu Ülvi Hüseynzadə iştirakçısı olduğu Vətən müharibəsindən danışarkən söyləyib.

Ülvi Taleh oğlu Hüseynzadə 1998-ci il avqustun 20-də Salyan rayonunun Arbatan kəndində doğulub.

2005–2016-cı illərdə kənddə Elxan Ağayev adına tam orta məktəbdə təhsil alıb.

2016-cı ildə "Gəmi energetik qurğularının istismarı mühəndisliyi" ixtisasına yiyələnmək üçün Azərbaycan Dövlət Dəniz Akademiyasının "Gəmi mexanikası və elektromexanikası" fakültəsinə daxil olub.

2020-ci ildə Akademiyanı bitirərək müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına yollanıb. Vətən müharibəsi başlayanda üç ayın əsgəri olub və ilk gündən Füzulidə Ağgöl istiqamətində döyüşə atılıb. Sonra Suqovuşanın azad olunması döyüşlərində igidliyi ilə fərqlənib. Silahdaşları ilə addım-addım irəlilədikcə Qələbənin çox uzaqda olmadığına inamları da artıb.

Müharibədə yalnız Qələbə barədə fikirləşib. Düşmənin təslim olması xəbərini eşidəndə isə bu Zəfər üçün canından keçən döyüşçü dostları bir-bir gözünün önündən keçib.

Atası Taleh kişi, anası Ağbəniz xanım, bacısı Fatimə, qardaşı Bayram Zəfər sevincini bir də 2021-ci ilin iyulunda – Ülvi qalib Ordumuzun əsgəri kimi tərxis olunduğu gün yaşayıblar.

Vətən müharibəsində göstərdiyi igidlik və şücaəti isə "Suqovuşanın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə qiymətləndirilib.



# Ümid Elşad oğlu Məhərrəmov

**“Cəbrayılın azad olunmasına görə”** medalı

**“Xocavəndin azad olunmasına görə”** medalı




**“Füzulinin azad olunmasına görə”** medalı

# *“Belə xalq üçün canından da keçməyə dəyər”*

Xəzər Dəniz Neft Donanmasının “Zöhrab Vəliyev” mühəndis-geoloji gəmisində motorçu işləyən Ümid Elşad oğlu Məhərrəmov 1995-ci il aprelin 8-də Sumqayıt şəhərində doğulub.

2001–2012-ci illərdə Sumqayıt şəhərində Fəxrəddin Piriyev adına 18 saylı tam orta məktəbdə oxuyub.

2012–2016-cı illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasında “Dəniz texnikası və avadınlıqlarının istismarı mühəndisliyi” ixtisası üzrə bakalavr, 2016-2018-ci illərdə magistratura təhsili alıb.

2018-ci il iyulun 11-dən 2019-cu il iyulun 2-dək Ordu sıralarında müddətli həqiqi hərbi xidmət keçib.

2020-ci il sentyabrın 21-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinə çağırılıb. Həmin gün Xırdalanda “Səhliyalı” şirkətində mühafizəçi işləyən atası növbədə olub. Qardaşı yatdığı üçün oyatmağa qıymayıb. FHN-nin Yanğından Mühafizə Xidmətinin Sumqayıt şəhər Baş Qərargahında dispetçer işləyən anasını işə apararkən yolda ona bir həftəlik təlimlərə cəlb olunacağını söyləyib. Amma, doğmalarını bir də 68 gündən sonra görüb. Çünki, bir həftə sonra... Vətən müharibəsi başlayıb. Müharibənin elə ilk günü düşmən Ağcəbədidə Ümidgilin olduqları ərazini vurmağa çalışıb. Onda sürücü maşını minaatanların atəşlərindən yayındırmaq istəyərkən avtomobil arxa düşüb. Bu zaman üstünə aşan silahlardan başından xəsarət aldığı üçün Ümidi yaxınlıqdakı səyyar tibb məntəqəsinə çatdırıblar. Orada qanaxmanın qarşısını kəsəndən sonra özünün təkidi ilə başı sarıqlı vəziyyətdə yenidən yoldaşlarının yanına qayıdıb.

Tank əleyhinə taqımda baş operator kimi döyüşüb. Füzuli, Cəbrayıl, Xocavənd rayonlarının işğaldan azad olunmasında böyük şücaət göstərib. İlk və elə ən çətin döyüşü də Füzulidə "Betonluq" deyilən ərazidə olub. Xocavənddə Qırmızı Bazar uğrunda döyüşlər də asan keçməyib.

– Müharibəyə gedəndə yolboyu insanların bizə göstərdiyi sevgi və dəstəyi görəndə qəlbimiz iftixardan dağa dönürdü, – deyir Ümid Məhərrəmov. – Belə xalq üçün canından da keçməyə dəyər. Hətta ən kasıbı da Ordu üçün, Qələbə üçün nə isə etməyə çalışırdı... Aldığımız məktublar isə bizə əlavə güc və cəsarət verirdi.

Dəfələrlə Xocavənd istiqamətində mühasirəyə düşsələr də, təslim olmayıblar. Şəhidlərimizin qanı bahasına aldıqları ərazilərdən geri çəkilmək igidlərimizə ağır gəlib. Əksinə, çətin durumda olsalar da, bütün güclərini toplayıb düşmənin üzərinə gediblər. Taktiki cəhətdən yüksəklikdə olan düşməni elə hala salıblar ki, silahlarını atıb qaçmaqdan başqa bir şey edə bilməyiblər. Ümid əbəs yerə demir ki, Qələbə elə-belə qazanılmadı. Möhtəşəm Qələbədə xüsusi təyinatlıların böyük xidməti olduğunu düşünür.

Qələbədən bir gün əvvəl düşmən Ümidgilin Xocavənddə olduğu səngərin düz ortasına minaatanla zərbə endirir. İki əsgərimiz şəhid olur, iki hərbçimiz isə ağır yaralanır. Bir gün sonra isə düşmən təslim olur. Amma hətta Qələbə sevinci də bir gün əvvəl hərbçi yoldaşlarının itkisinin ağrısını azalda bilmir...

Ümid Məhərrəmovun Vətən müharibəsində göstərdiyi şücaət “Cəbrayılın azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə” və “Füzulinin azad olunmasına görə” medalları ilə qiymətləndirilib.

# Yusif Nail oğlu Allahverdiyev

**“Kəlbəcərin azad olunmasına görə”** medalı

# *Doğmaları dənizdə xidmət etdiyini düşünəndə Murovdağda düşmənə qan uddurub*

Bizə qalib xalq olmağın sonsuz sevinc və qürurunu yaşadan igidlərdən biri də hazırda Dəniz Nəqliyyatı Donanmasının "Ağdam" gəmi-bərəsində çalışan matros Yusif Allahverdiyevdir.

Yusif Nail oğlu Allahverdiyev 1998-ci il oktyabrın 10-da Zərdab şəhərində dünyaya göz açıb.

Zərdab şəhərində Həsənbəy Zərdabi adına 1 saylı tam orta məktəbdə təhsil alıb.

2015–2019-cu illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasının "Gəmi sürücülüyü" fakültəsində "Dəniz naviqasiyası mühəndisliyi" ixtisasına yiyələnib.

2019-cu ilin iyulundan Hərbi Dəniz Qüvvələrində matros kimi müddətli həqiqi hərbi xidmət keçib. Hərbi Dəniz Qüvvələrində 15 ay xidmət etdikdən sonra, könüllü olaraq müddətdən artıq xidmət etmək istəyib. Arzusu nəzərə alınıb: ordu korpusuna göndərilib.

Vətən müharibəsində əsgər kimi əsasən Kəlbəcər rayonu uğrunda gedən döyüşlərdə iştirak edib.

İlk dəfə düşmənlə qızıl mədəni ərazisi yaxınlığında üz-üzə gəlib. Bir neçə saatlıq döyüşdən sonra düşmən geri çəkilməyə məcbur olub.

Ən çətin döyüşü "Ömər aşırımı" istiqamətində olub və bu döyüşdə düşmənin atdığı mərminin təsirindən yıxılaraq başından xəsarət alıb.

Yusif deyir ki, Murovdağda çox soyuq olsa da, Vətən sevgisindən o soyuğu o qədər də hiss etməyiblər və əzmlə düşmənin üstünə gediblər. Qələbədən də Murovdağda gecə saatlarında rabitə əlaqəsi ilə xəbər tutublar.

Maşın ustası olan atası Nail kişi də, müəllimə anası Sona xanım da, bacıları Gülüstan və Aytən də Yusifin Vətən müharibəsi günlərində ön cəbhədə düşmənə qan uddurmasından xəbərsiz olublar. Ailədə hamı Yusifin Hərbi Dəniz Qüvvələrində xidmət etdiyini düşünüb.

2021-ci ilin iyulunda Ordu sıralarından tərxis olunub.

– Vətən müharibəsində rəşadətli Ordumuz işğalçıları döyüş meydanında məğlub edərək onların özləri haqqında yaratdıqları, deyə-deyə özlərinin də inandıqları "məğlubedilməzlik" mifini də darmadağın etdi, – deyir Yusif Allahverdiyev. – Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında təxminən otuz il düşmən tapdağında olan torpaqlarımızı geri qaytarmaq üçün rəşadətli Ordumuza cəmi 44 gün kifayət etdi.

Yusif Allahverdiyevin şücaəti "Kəlbəcərin azad olunmasına görə" medalı ilə qiymətləndirilib.

# Zaur Əkrəm oğlu Salmanov

**“Kəlbəcərin azad olunmasına görə”** medalı

# *Qələbədən əvvəl bir, Qələbədən sonra min arzusu olan gənc*

Dəniz Nəqliyyatı Donanmasının "Cəfər Cabbarlı" gəmisinin motorçusu Zaur Əkrəm oğlu Salmanov 1999-cu il aprelin 13-də Bakının Yeni Suraxanı qəsəbəsində dünyaya göz açıb.

2005–2016-cı illərdə qəsəbədəki 101 saylı orta məktəbdə təhsil alıb.

2016–2020-ci illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasında "Gəmi energetik qurğularının mühəndisliyi" ixtisasına yiyələnib.

2020-ci ilin iyulunda müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına çağırılıb.

Vətən müharibəsi başlayanda hərbi xidmətdə olub. Əsgər kimi Kəlbəcər rayonu istiqamətində gedən döyüşlərdə iştirak edib. Kəlbəcərin Ağdağ, adsız yüksəklikləri uğrunda ilk döyüşlərdən cəsarəti ilə seçilib.

Ən çətin döyüşü isə oktyabrın 12-dən 13-nə keçən gecəyə təsadüf edib. Humanitar atəşkəs elan olunsa da, düşmənin minaatan batareyası mərmiləri yağış kimi yağdırırmış. Erməni xisləti onda da özünü göstərib.

Zaurun fikrincə, belə möhtəşəm Qələbə qazanılmasının əsas səbəbi bütün xalqın 44 gün ərzində bir məqsəd uğrunda çiyin-çiyinə verməsi, bir hədəfə vurması idi.

Manqa komandiri kimi xidmət edən Zaur cəbhədə ən çox Azərbaycan əsgər və zabitlərindən Qələbə gözləyənləri sevindirmək, ailəsinin yanına üzüağ qayıtmaq barədə düşünüb.

Qələbə xəbərini silah anbarında eşidib.

Müharibədən əvvəl ən böyük arzusu Azərbaycanın ərazi bütövlüyü ilə bağlı olub. Böyük Zəfərdən sonra arzularının sayını heç özü də bilmir.

Bizə Qələbə sevinci yaşadan əksər gənclər kimi, Zaur da subaydır. Valideynləri də "Vaxt keçir, evlən!", – deyirlər. Bir bacısı var. O da hər işdə çox sevdiyi qardaşını dəstəkləsə də, bu məsələdə ata-anasını dəstəkləyir.

2020-ci il noyabrın 25-dən 2021-ci ilin iyulun 5-dək Kəlbəcərin müdafiəsinin təmin edilməsində iştirak edib.

Zaurun dediklərindən: "ASCO-nun "Ordubad" gəmisinin motorçusu olan Uğur Hüseynli mənim həm qonşum, həm sinif yoldaşım, həm akademiyada təhsil aldığım illərdə qrup yoldaşım idi. Vətən müharibəsində isə Uğur həm də əsgər yoldaşıma çevrildi. Onu ön cəbhədə görəndə elə sevindim ki! Bu igidlə bir müddət Kəlbəcərdə – bir yerdə xidmət etdik. İndi də bir yerdə, eyni donanmada işləyirik."

İgid əsgər Zaur Salmanov "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilib.

İLHAM ƏLİYEV

# ƏVVƏL ZƏFƏR, SONRA SƏFƏR

# Murad Elbahad oğlu Səmədov

**“Cəbrayılın azad olunmasına görə”** medalı

**“Xocavəndin azad olunmasına görə”** medalı

**“Füzulinin azad olunmasına görə”** medalı

**“Şuşanın azad olunmasına görə”** medalı

**“Kəlbəcərin azad olunmasına görə”** medalı

**“Şücaətə görə”** medalı

**1-ci dərəcəli “Hərbi xidmətdə fərqlənməyə görə”** medalı

# *“Vətən müharibəsində böyük xalq olduğumuzu bütün dünya gördü”*

“Müdrik Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə aparılan və möhtəşəm Zəfərlə başa çatan Vətən müharibəsi xalqımızın mübarizliyini və Silahlı Qüvvələrimizin yenilməzliyini nümayiş etdirdi. Bütün dünya bizim böyük xalq olduğumuzu gördü. Düşmən də, havadarları da anladılar ki, Mübariz İbrahimov, Polad Həşimov kimi qəhrəmanları olan xalqı məğlub etmək mümkün deyil.”

Bu sözləri Vətən müharibəsində Zəfər dastanı yazan igidlərimizdən biri – Murad Səmədov söyləyib.

Murad Elbahad oğlu Səmədov 2000-ci il martın 11-də Oğuz rayonunun Padar kəndində doğulub.

Kənddə Arzu Əliyev adına tam orta məktəbdə təhsil alıb. 2016-cı ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecinə daxil olub. 2020-ci ildə “Gəmi sürücülüyü” ixtisası üzrə bitirib.

2020-ci ilin iyulunda müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına yollanıb. 2021-ci ilin son günü tərxis olunub.

Müharibə başlayanda hərbi xidmətdə olub. Xüsusi təyinatlı kimi döyüşlərə atılıb. Murovdağdan başlayan döyüş yoluna sonralar işğal altında olan əksər rayonlarımızın adları düşüb və Şuşada başa çatıb. Kəskin hava çatışmazlığı və relyefi Kəlbəcər istiqamətində gedən döyüşləri daha da çətinləşdirib.

Şuşa istiqamətində gedən qızğın döyüşlərdə düşmənin ağır artilleriyasının açdığı atəş nəticəsində sağ ayağından qəlpə yarası alıb.

Qələbə xəbərini Füzuli rayonundakı Əhmədbəyli xəstəxanasında müalicə olunarkən eşidib.

– Vətən müharibəsində ölkəmizdəki “Xalq–Dövlət–Ordu” birliyi, sözün əsl mənasında “Dəmir yumruğ”a çevrilib işğalçının belini qırdı, – deyir Murad Səmədov. – Uca Yaradan bu birliyi xalqımıza çox görməsin.

Atası Elbahad Səmədov işləmir, anası Sevinc xanım evdar qadındır. Murad ailənin sonbeşiyidir. İki qardaşı var. Böyük qardaşı Məhəmməd də taleyini dənizlə bağlayıb.

Xalqımızın igid oğlu Murad Səmədovun sinəsini “Cəbrayılın azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə”, “Füzulinin azad olunmasına görə”, “Şuşanın azad olunmasına görə”, “Kəlbəcərin azad olunmasına görə”, “Şücaətə görə” və 1-ci dərəcəli “Hərbi xidmətdə fərqlənməyə görə” medalları bəzəyir.

# Əli Elxan oğlu Cabbarov

**“Döyüşdə fərqlənməyə görə”** medalı

**“Cəbrayılın azad olunmasına görə”** medalı

**“Füzulinin azad olunmasına görə”** medalı

**“Kəlbəcərin azad olunmasına görə”** medalı

**“Hərbi xidmətdə fərqlənməyə görə” 3-cü dərəcəli** medalı

# *“Düşmən “Dəmir yumruğ”umuzdan xəbərsiz idi”*

Vətən müharibəsində ərazi bütövlüyümüzü təmin etmək, xalqımıza bənzərsiz Qələbə sevinci yaşatmaq üçün canından keçməyə hazır olan yüz minlərlə gəncimizdən biri də Əli Cabbarov idi.

Əli Elxan oğlu Cabbarov 2000-ci il iyunun 24-də Bakı şəhərində dünyaya göz açıb.

2006—2015-ci illərdə 283 nömrəli tam orta məktəbdə təhsil alıb.

Sular qoynunda səfərlərə çıxmaq arzusu onu Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecinə gətirib çıxarıb.

2019-cu ildə müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına yollanıb. Vətən müharibəsi başlayanda Ordu sıralarında olub.

Əsgər kimi döyüşlərdə iştirak edib. İlk döyüşü Kəlbəcər istiqamətində olub, sonra döyüş yolu Xocavənddən, Füzulidən, Cəbrayıldan, Şuşadan keçib.

Cəbrayıl şəhəri uğrunda döyüşlər çox çətin keçsə də, işğalçıları bu qədim yaşayış məskənimizdən qova biliblər.

Əli Cabbarov əmindir ki, Qələbə sevgi ilə qazanıldı: Vətən sevgisi ilə.

Əli Cabbarovun dediklərindən: ”İşğalçılar otuz il səbrimizlə oynadılar. Yəqin səbrimizinin sonsuz olduğunu düşünürdülər. “Dəmir yumruğ”umuzdan xəbərsiz olanlar otuz il bizə yumruq göstərdilər. Himayədarlarına arxalanan məkrli qonşularımız Ali Baş Komandanımızın, Ordumuzun arxasında nə boyda əzəmətli qüvvənin — xalqımızın dayandığını görmürdülər. Elə buna görə, qəhrəman əsgər və zabitlərimizin qarşısında cəmi 44 gün davam gətirə bildilər. Ona da davam gətirmək demək olarsa. İlk günlərdən bizdə ön cəbhəyə can atanların sayı-hesabı bilinmədiyi kimi, düşmən ordusundan da səngərini, silah-sursatını atıb qaçan fərarilərin dəqiq sayı-hesabı bilinmədi.”

Əli Qələbə sevincini Şuşada yaşayıb. Doğmalarını sevindirmək üçün anası Rəfilə xanıma zəng edib.

2021-ci ildə tərxis olunub.

Xalqımızın cəsur oğlu Əli Cabbarov “Döyüşdə fərqlənməyə görə”, “Cəbrayılın azad olunmasına görə”, “Füzulinin azad olunmasına görə”, “Kəlbəcərin azad olunmasına görə” və üçüncü dərəcəli “Hərbi xidmətdə fərqlənməyə görə” medalları ilə təltif edilib.

# Əjdər Teymur oğlu Abdullayev

**“Cəsur döyüşçü”** medalı

**“Füzulinin azad olunmasına görə”** medalı

**“Qubadlının azad olunmasına görə”** medalı




**“Şuşanın azad olunmasına görə”** medalı

**“Vətən müharibəsi iştirakçısı”** medalı

# *“Biz torpaqlarımızın işğaldan azad edilməsində ən çox “Dəmir yumruğumuz”a güvənirdik”*

Əjdər Teymur oğlu Abdullayev 2002-ci il iyunun 28-də Ucar rayonunun Qazıqumlaq kəndində dünyaya göz açıb.

2008-ci ildə kənddə 2 nömrəli tam orta məktəbin birinci sinfinə daxil olub və 2019-cu ildə 11-ci sinfini bitirib.

2019–2020-ci illərdə Bakıdakı 16 saylı peşə liseyində təhsil alıb.

2020-ci il iyulun 7-də müddətli həqiqi hərbi xidmətə yollanıb. Vətən müharibəsi başlayanda hərbi xidmətdə olub.

İlk dəfə erməni işğalçıları ilə Füzuli rayonunda üz-üzə gəlib. Sonra şərəfli döyüş yoluna Qubadlının, Şuşanın adları düşüb. Hər döyüşdə əsl şücaət nümunəsi göstərib. Füzuli rayonunda düşmən postunu ələ keçirən zaman artilleriya zərbəsi nəticəsində zədə alıb. Amma döyüş meydanını tərk etməyib.

Qələbə sevincini Şuşada yaşayıb.

– 44 günlük Vətən müharibəsində qəhrəman əsgər və zabitlərimiz bir amalla vuruşurdular: dünyanın otuz il göz yumduğu haqsızlığa birdəfəlik son qoyulsun, – deyir Əjdər Abdullayev. – Ona da nail olduq. Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz öz tarixi missiyasını şərəflə yerinə yetirdi, Azərbaycanın ərazi bütövlüyü bərpa edildi.

Valideynləri Teymur kişi ilə Elnarə xanım Vətənə layiqli 3 övlad böyüdüblər.

Onların ilki Aysel ailə həyatı qurub, Rusiyanın Rostov şəhərində yaşayır. Sonbeşik Pərvin Ucar rayonundakı 2 nömrəli tam orta məktəbin on birinci sinfində oxuyur.

Doğmaları Vətən müharibəsi günlərində Əjdər üçün narahatlıq keçirsələr də, göstərdiyi şücaətə görə bu gün onunla fəxr edirlər. İndi ən böyük arzuları bu igidin toyunu görməkdir.

Əjdər 2022-ci ilin ilk günündə Ordudan tərxis olunub. 2022-ci ilin avqustundan ASCO-nun “Zığ” Gəmi Təmiri və Tikintisi Zavodunun Mexaniki təmir bölməsində gəmi təmiri çilingəri işləyir. Ona və ailəsinə göstərilən diqqət və qayğıdan razılıq edir.

Əjdər Abdullayevin sinəsini “Cəsur döyüşçü”, “Füzulinin azad olunmasına görə”, “Qubadlının azad olunmasına görə”, “Şuşanın azad olunmasına görə” və “Vətən müharibəsi iştirakçısı” medalları bəzəyir.

# Mönsüm Səyad oğlu İskəndərov

**“Vətən uğrunda”** medalı

**“Cəsur döyüşçü”** medalı

**“Xocavəndin azad olunmasına görə”** medalı




**“Füzulinin azad olunmasına görə”** medalı

# *Dövlətinə də, xalqına da minnətdar igid*

Yenilməz Ordumuz Ali Baş Komandanımızın rəhbərliyi ilə tarix yazanda sıralarında olan və hazırda "ASCO Nəqliyyat" MMC-nin 2 saylı avtomobil dəstəsində sürücü işləyən Mönsüm Səyad oğlu İskəndərov 1985-ci il dekabrın 25-də Füzuli rayonunun Horadiz qəsəbəsində dünyaya göz açıb.

1991-ci ildə Füzuli şəhərində 1 saylı tam orta məktəbin birinci sinfinə daxil olub və 2000-ci ildə doqquzuncu sinfi bitirib.

2003–2005-ci illərdə Azərbaycan Ordusu sıralarında müddətli həqiqi hərbi xidmət keçib.

2016-cı ildən müddətdən artıq hərbi xidmət edən hərbi qulluqçu kimi hər bir tapşırığı yüksək peşəkarlıqla yerinə yetirib.

Vətən müharibəsinin ilk günündən döyüşə atılan cəsur gənc Füzuli, Cəbrayıl, Xocavənd rayonlarının işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə böyük igidlik, şücaət nümayiş etdirib.

İlk dəfə Füzulinin Qaraxanbəyli kəndində düşmənlə üz-üzə gəlib. Ən çətin döyüşü isə Füzulinin Musabəyli kəndi uğrunda olub.

Oktyabrın 25-də Füzulinin Dövlətkarlı kəndində snayper gülləsi ilə omba hissəsindən ağır yaralanıb.

Qələbə xəbərini də xəstəxanada eşidib.

Qələbədən sonra ən böyük arzusu atalarının qanı ilə geri qaytarılan əzəli torpaqlarımızı şəhid övladları ilə birgə qarış-qarış gəzmək, onlara atalarının qəhrəmanlığından söhbət açmaqdır.

2021-ci il noyabrın 12-də tərxis olunub.

– Azərbaycan xalqı mübariz övladlarının şücaətini yüksək qiymətləndirir, – deyir Mönsüm İskəndərov. – Şəhidlərimizin ruhuna ehtiram göstərilir, onların xatirəsi hər yerdə uca tutulur. Müharibə veteranlarının sosial məsələlərinin həlli üçün görülən işlər sübut edir ki, dövlətimiz hər zaman vətənsevər gənclərin yanındadır. Qələbədən sonra mən də çox böyük qayğı ilə əhatə olunmuşam: mənə ev və avtomobil verilib, ASCO-da işlə təmin olunmuşam. Dövlətimə də, xalqıma da minnətdaram.

Valideynləri sağ olsaydı, Mönsümlə fəxr edərdilər. Əfsus ki, ömürləri qısa olub. Atası Səyad kişi 1990-cı ildə, anası Rəhilə xanım isə 2011-ci ildə haqq dünyasına qovuşub. Mönsümün Əfqan adında qardaşı, Şəlalə adında bacısı var.

Bu gün Mönsümün öz ocağında 3 övlad böyüyür.

Xalqımızın qəhrəman oğlu Mönsüm İskəndərov "Vətən uğrunda", "Cəsur döyüşçü", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

# Murad Mikayıl oğlu Əliyev

**“Vətən uğrunda”** medalı

**“Cəbrayılın azad olunmasına görə”** medalı

**“Qubadlının azad olunmasına görə”** medalı

# *“Müharibəni işğalçılar başladı, biz isə onu Qələbə ilə başa vurduq”*

“2020-ci il sentyabrın 27-də müharibəni işğalçı Ermənistan başladı. Biz isə onu adımıza layiq başa vurduq. Əks-həmlə ilə Zəfər yürüşünə çıxan yenilməz Ordumuz Ali Baş Komandanımızın rəhbərliyi ilə cəmi 44 günə 300 yaşayış məntəqəsini azad etməklə ölkəmizin şərəf tarixinin ən parlaq səhifəsini yazdı. Qazandığımız tarixi Qələbə ilə həm də BMT-nin otuz il kağız üzərində qalan dörd qətnaməsini yerinə yetirdik.”

Bu sözlər iyirmi yaşında rəşadətli Ordumuzun Zəfər yürüşündə iştirak edən Murad Əliyevin dilindən çıxıb.

Murad Mikayıl oğlu Əliyev 2000-ci il mayın 26-da Cəlilabad rayonunun Sabirabad kəndində dünyaya göz açıb.

2007–2015-ci illərdə kənddə Həmid Tağıyev adına 2 nömrəli tam orta məktəbdə, 2015–2019-cu illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecində təhsil alıb.

2020-ci ilin aprelində müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına çağırılıb.

Vətən müharibəsində əsgər kimi iştirak edib.

Oktyabın 3-də Cəbrayıl rayonu uğrunda ilk döyüşə atılıb. Düşmənin müqavimətini qıra-qıra, “Dostlar bulağı” deyilən yerədək irəliləyiblər. Oranı keçən kimi yenidən düşmən bombardmanına məruz qalıblar. Bu döyüşdə qapalı kəllə-beyin travması alan və sağ qulağı tutulan Murad bir müddət xəstəxanada yatdıqdan sonra yenidən Cəbrayıl–Qubadlı istiqamətində irəliləyən igidlərimizə qoşulub.

Cəbhədə ən çox anasına görə narahat olub. Hər an şəhadətə ucalmağa hazır olsa da, anasının bu itkiyə necə dözəcəyi, bu ağrı ilə necə yaşayacağı barədə düşünüb. Döyüşlərdə sağ qalmaq isə daha çox bəxtə bağlı bir şey…

Ailənin tək oğludur. Bir bacısı var. Murad döyüşdüyünü ailədə heç kimə deməyib. Doğmaları bundan Murad yaralandıqdan sonra – xəstəxanada yatanda xəbər tutublar.

2021-ci ilin oktyabrında tərxis olunub. Qələbədən sonra ən böyük arzusu dor ağacında üçrənğli bayrağımız dalğalanan gəmilərdə dünya sularında üzməkdir.

Murad Əliyev “Vətən uğrunda”, “Cəbrayılın azad olunmasına görə”, “Qubadlının azad olunmasına görə” medalları ilə təltif edilib.

# Rəsul Azad oğlu Aslanlı

**“Cəsur döyüşçü”** medalı

**“Cəbrayılın azad olunmasına görə”** medalı

**“Xocavəndin azad olunmasına görə”** medalı

**“Füzulinin azad olunmasına görə”** medalı

**“Vətən müharibəsi iştirakçısı”** medalı

# *Bütün döyüşlərdə düşmənin üstünə cəngavər kimi atılıb*

ASCO-nun "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunun rəngsazı Rəsul Azad oğlu Aslanlı 1995-ci il avqustun 9-da Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində dünyaya göz açıb.

2001–2012-ci illərdə Yevlax şəhərindəki Abbas Səhhət adına 6 saylı tam orta məktəbdə təhsil alıb.

2014–2016-cı illərdə Ordu sıralarında müddətli həqiqi hərbi xidmət keçib.

Müharibə başlayan gün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) rayon şöbəsinə ərizə ilə müraciət edərək könüllü ön cəbhəyə getmək istədiyini bildirib. Sentyabrın 28-də yenidən SHXÇDX-nin rayon şöbəsinə üz tutub. "Çox gözləməyəcəyəm. Aparmasanız, özüm gedəcəyəm", – deyib. Hərbi komissarlıqda Vətən sevgisinə şübhə etməyiblər və sentyabrın 29-da artıq Rəsulun əynində əsgər geyimi, əlində silah olub.

Əsgər kimi Füzuli və Xocavənd rayonlarının işğaldan azad olunmasında yaxından iştirak edib.

Füzulinin Aşağı Veysəlli kəndində ilk döyüşə atılıb. Özü kimi igidlərlə hiss etdirmədən düşmən səngərlərinə xeyli yaxınlaşıblar. Yaxın məsafədən atdıqları qumbaralardan işğalçılar arasında çaxnaşma düşüb və səngərlərdən çıxaraq qaçmağa çalışıblar. Amma bir faşist belə cəsur əsgərlərimizdən canını qurtara bilməyib.

Oktyabrın 26-da Füzuli rayonu uğrunda gedən döyüşlər zamanı düşmənin atdığı mərmi nəticəsində kəllə-beyin zədəsi və ayağından qəlpə yarası alıb. Həkimlərin səyi sayəsində tez ayağa qalxıb və Xocavənd istiqamətində döyüşlərə qatılıb.

Qələbə xəbərini rabitəçi əsgərdən eşidib.

Atası Azad kişi, anası Sara xanım, bacıları Səbinə və Səkinənin narahat olmamaları üçün cəbhəyə getdiyini onlardan gizlədib. Bakıda yaxşı iş tapdığını söyləyib. Elə buna görə, Rəsul döyüşlərdə düşmənin üstünə cəngavər kimi atılanda doğmaları onun Bakıda işlədiyini düşünüblər.

Rəsul Aslanlı deyir: "Vətən müharibəsində qazandığımız möhtəşəm Zəfərdən sonra Prezident İlham Əliyevin böyük uzaqgörənliklə qurduğu strategiya müstəqil Azərbaycan dövlətinin qüdrətinin daha da artmasına, Azərbaycan xalqının daha xoşbəxt yaşamasına, Azərbaycan bayrağının daha yüksəklərdə dalğalandırılmasına hədəflənib. Başqa cür ola da bilməz. Çünki biz qalib xalqıq və ancaq belə yüksək amallarla yaşamalı, belə ideyaları gerçəkləşdirməliyik".

İgid əsgər cəbhədən sinəsində bərq vuran "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" ,"Füzulinin azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə qayıdıb. O günədək Bakıda işlədiyini düşünən doğmaları da Rəsula heç nə deməyiblər. Belə igidə kim nə deyər ki?!

# Ağabala Allahverdi oğlu Həsənov

**“Suqovuşanın azad olunmasına görə”** medalı

**“Qubadlının azad olunmasına görə”** medalı

**“Laçının azad olunmasına görə”** medalı

# *“Xalqımızın əsgər və zabitlərinə güvəndiyini hiss etmək çox xoş idi“*

Ağabala Allahverdi oğlu Həsənov 2000-ci il fevralın 13-də Lənkəran şəhərinin Nərimanabad qəsəbəsində dünyaya göz açıb.

2006–2013-cü illərdə Bakının Sabunçu rayonu Telman İsgəndərov adına 142 nömrəli tam orta məktəbdə təhsil alıb. 2013–2016-cı illərdə isə təhsilini Masallı rayon Qızılağac kəndi Sübhan Xəlilov adına 1 nömrəli tam orta məktəbdə davam etdirib.

Orta məktəbi bitirdikdən sonra daxil olduğu Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecində “Gəmiqayırma” ixtisasına yiyələnib.

2020-ci ilin iyulunda müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına yollanıb.

Vətən müharibəsi başlayanda “N” saylı hərbi hissənin artilleriya bölməsində xidmət edən çavuş Ağabala Həsənov ilk gündən döyüşlərə atılıb. Talış kəndi, Suqovuşan, Qubadlı, Laçın uğrunda gedən döyüşlərdə igidliyi ilə seçilib.

Ən çətin döyüşü oktyabrın 2-də Suqovuşan uğrunda olub.

— Cəbhədə hər bir itki ağırdır, deyir Ağabala Həsənov. — Dost itkisi isə daha dözülməzdir. Ülvi Rəhimov adında bir dostum var idi... İmkan olan kimi danışırdıq. Günlərin birində şəhid olduğunu eşitdim. Dünya gözlərimdə qaraldı. O gündən sonra bütün döyüşlərə həm də ruhu göylərdə dolaşan əziz dostum Ülvi Rəhimovun qisasını almaq üçün atılırdım.

Ağabala deyir ki, savaş günlərində xalqımızın əsgər və zabitlərinə güvəndiyini hiss etmək çox xoş idi. Bizi bizdən daha çox düşünən insanlar var idi. Məktəblilərin və tələbələrin göndərdikləri məktubların da hamısı sevgi dolu idi.

Vətən müharibəsində Ağabala kimi cəsur, qorxmaz, igid oğullarımız silaha sarılmışdılar. Belə oğulların qazandığı Qələbə də onlara layiq olmalı idi. Ona görə belə möhtəşəm alındı!

Valideynlərini erkən itirib. Ata və anası dünyalarını dəyişəndən sonra yeganə bacısı ilə birlikdə bir müddət dayılarının himayəsində yaşayıblar.

Ərazilərimizin işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə şəxsi igidlik və şücaət göstərən Ağabala Həsənov dövlət başçımızın müvafiq sərəncamları ilə “Suqovuşanın azad olunmasına görə”, “Qubadlının azad olunmasına görə” və “Laçının azad olunmasına görə” medalları ilə təltif edilib.



# Anar Qabil oğlu Xəlilov

**“Cəbrayılın azad olunmasına görə”** medalı

**“Xocavəndin azad olunmasına görə”** medalı




**“Füzulinin azad olunmasına görə”** medalı

# *“Qələbəmizin təməli döyüşdən əvvəl qoyulmuşdu”*

“Qələbənin təməli adətən döyüşdən əvvəl qoyulur. Belə demək mümkünsə, döyüş meydanında sadəcə Zəfər zəngi çalınır. Bizim Qələbəmiz də ilk növbədə məhz ölkəmizin iqtisadi qüdrətinin və uğurlu islahatların bəhrəsi idi. Vətən müharibəsinə kimi müxtəlif sahələrdə həyata keçirilən ardıcıl islahatlar ölkəmizin hərbi gücünü də elə bir səviyyəyə çatdırmışdı ki, ağlı başında olan adam yenilməz Azərbaycan Silahlı Qüvvələri ilə savaşa cəhd etməzdi.”

Bu fikri ASCO-nun “Zığ” Gəmi Təmiri və Tikintisi Zavodunun gəmi elektrik quraşdırıcısı Anar Xəlilov iştirakçısı olduğu Vətən müharibəsində erməni faşizmi üzərində qazanılmış parlaq Qələbədən danışarkən söyləyib.

Anar Qabil oğlu Xəlilov 1999-cu il fevralın 2-də Neftçala şəhərində dünyaya göz açıb.

2006–2014-cü illərdə Neftçalada Elton Həbibov adına 4 saylı tam orta məktəbdə təhsil alıb.

2014–2017-ci illərdə Bakı şəhərindəki 6 saylı peşə liseyində “Gəmi elektriki” ixtisasına yiyələnib.

2018–2019-cu illərdə Ordu sıralarında müddətli həqiqi hərbi xidmət keçib.

Vətən müharibəsi başlayandan bir həftə sonra Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin çağırışı əsasında ön cəbhəyə gedib.

Oktyabrın 5-dən artilleriya tuşlayıcısı kimi Füzuli, Cəbrayıl, Xocavənd rayonlarının azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib.

Xocavənd rayonunun Qırmızı Bazar ərazisinin işğalçılardan təmizlənməsi üçün aparılan döyüşlərin daha ağır keçdiyini düşünür.

– Ali Baş Komandanımızın qətiyyəti, zabitlərin peşəkarlığı və əsgərlərin şücaəti Qələbəni təmin etdi, – deyir Anar Xəlilov. – Həm də, mərd xalqımıza yaraşan Qələbə idi. Ərazi bütövlüyümüz əbədi olsun!

Qələbədən sonra ən böyük arzusu ali dənizçilik təhsili almaq və ASCO-nun gəmilərində dünya sularında üzməkdir.

Atası Qabil Xəlilov təqaüddədir, anası Yaqut xanım dilimizi və ədəbiyyatımızı şagirdlərə sevdirir. Bacısı Anaxanım “Kapital Bank” ASC-də mütəxəssis kimi çalışır.

Anar ASCO-da Vətən və xalq qarşısında xidməti olanlara göstərilən diqqət və qayğıdan məmnunluğunu gizlətmir.

Rəşadətli Silahlı Qüvvələrimizin sıralarından 2021-ci ilin yanvarında tərxis olunan igid gəmi təmirçisinin sinəsini “Cəbrayılın azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə” və “Füzulinin azad olunmasına görə” medalları bəzəyir.

# Anar Azər oğlu Maqsudov

**“Laçının azad olunmasına görə”** medalı

**3-cü dərəcəli “Hərbi xidmətdə fərqlənməyə görə”** medalı

# *"Xalqımızın aciz olmadığını bütün dünyaya sübut etmək məhz gənclərimizin çiyninə düşürdü"*

2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsində əldə etdiyimiz Qələbə və bu Qələbəyə aparan yollardan danışarkən Anar Maqsudov deyib ki, xalqımızın aciz olmadığını, torpaqlarımızın bir qarışından belə keçməyəcəyini bütün dünyaya sübut etmək məhz cavanların çiyninə düşürdü. Onlar da bunu çox yaxşı bacardılar.

Özü də belə igidlərdəndir Anar.

Anar Azər oğlu Maqsudov 2000-ci il aprelin 9-da Şəki şəhərində doğulub.

2005–2015-ci illərdə Xətai rayonundakı Miryusif Yusifov adına 265 nömrəli tam orta məktəbdə təhsil alıb.

2015–2019-cu illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecində "Gəmilərin təmiri" ixtisasına yiyələnib.

Kolleci bitirdikdən sonra müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına yollanıb.

Vətən müharibəsində əsgər kimi Füzuli, Xocavənd, Laçın rayonlarının azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib.

Düşmənlə ilk dəfə Füzuli rayonunda "Beton post" deyilən ərazidə üz-üzə gəlib. Onda da Qələbənin çox uzaqda olmadığına tam əmin olub. Çünki işğalçılar qorxudan döyüşçüdən çox, canlı meyidə oxşayıblar.

Füzuli şəhəri uğrunda oktyabrın 18-də gedən döyüşləri isə daha çətin hesab edir. Düşmənə qan uddursalar da, itkilərimiz də olub.

Qələbə xəbərini növbəti döyüşə hazırlaşarkən – səngərdə eşidib.

Müharibədən əvvəl torpaqlarımızı geri qaytarmaqla həm haqqı, ədaləti bərpa etmək, həm alnımızdakı məğlubluq ləkəsini silmək arzusu ilə yaşayıb. Savaş günlərində bizi Qələbəyə aparan əsas amillərdən birinin məhz milli birliyimiz olduğunu düşünür. Qələbənin qazanılmasında mühüm rol oynayan o birliyin qorunmasını çox istəyir.

2021-ci ilin avqustunda Ordudan tərxis olunub.

Dörd nəfərdən ibarət ailənin ikinci övladıdır. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində magistratura təhsili alan bir bacısı var.

İgid gəncin sinəsini "Laçının azad olunmasına görə" və üçüncü dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" medalları bəzəyir.

# Anar Etibar oğlu Məhərrəmov

**“Vətən müharibəsi iştirakçısı”** medalı

# *Vətən müharibəsində Ordumuz xalqın sevgisi və inamından böyük güc alırdı*

Anar Etibar oğlu Məhərrəmov 1998-ci il martın 20-də Qazax rayonunun Yuxarı Əskipara kəndində həkim ailəsində doğulub.

2004–2013-cü illərdə kənddə Abbasəli Məhərrəmov adına tam orta məktəbdə təhsil alıb.

2013–2017-ci illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecində "Gəmi sürücülüyü" ixtisasının sirlərinə yiyələnib.

2017-ci ilin iyulundan 2019-cu ilin yanvarınadək Ordu sıralarında müddətli həqiqi hərbi xidmət keçib.

2020-ci il sentyabrın 21-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin çağırışı əsasında təlimlərə qatılıb. Vətən müharibəsi başlayanda ilk gündən sinəsini qalxana çevirən igid oğullarımızdan olub.

Manqa komandiri kimi Füzulinin, Qubadlının, Zəngilanın azad edilməsi uğrunda döyüşlərdə iştirak edib.

Qələbə qazanacağımıza inanıb və qazanılmasına öz töhfəsini verməyə çalışıb.

Qələbə xəbərini Zəngilanda eşidib.

Anar Məhərrəmovun söhbətindən: "Deyirlər ki, Ordunun gücü xalqın gücüdür. Doğrudan da belədir. İkinci Qarabağ savaşı günlərində müstəqil Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşən Ordumuza hər kəs dəstək olmağa çalışırdı. "Biz sizə inanırıq!", "Sizin yanınızdayıq!" kimi ifadələrin hər biri ürəklərdən süzüldüyü üçün Azərbaycan əsgərinin gücünə güc qatırdı. Buna görə, qüdrətli Ordumuz üçün düşməni diz çökməyə məcbur etmək çox da çətin olmadı. Ermənistanla bərabər, bütün dünya müstəqil Azərbaycan Ordusunun gücünü gördü."

Düşmənin təslim olduğunu bilən kimi əzizlərini – atası Etibar kişini, anası Pərvanə xanımı, bacısı Gülnarı sevindirməyə tələsib.

2021-ci il yanvarın 14-də Ordu sıralarından tərxis olunan Anar Məhərrəmov Xəzər Dəniz Neft Donanmasının "Üfüq" gəmisində matros işləyir.

"Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif edilib.

# Asim Etibar oğlu Bayramov

**“Suqovuşanın azad olunmasına görə”** medalı

**“Laçının azad olunmasına görə”** medalı

**“Vətən müharibəsi iştirakçısı”** medalı

# *Vətən müharibəsində yağı gülləsinə sipər etdiyi sinəsini bu gün medallar bəzəyir*

"Vətən müharibəsində respublikamızın ərazi bütövlüyü Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin sərkərdəlik məharəti, Xalq–Dövlət–Ordu birliyinin sarsılmaz vəhdəti, Silahlı Qüvvələrimizin rəşadəti sayəsində bərpa olundu."

Bu fikir İkinci Qarabağ savaşının ilk günündən döyüş meydanında göstərdiyi şücaətlə ölkəmizin ərazi bütövlüyünün bərpa olunmasına öz töhfəsini verən və hazırda ASCO-nun Dəniz Nəqliyyatı Donanmasının "Ordubad" gəmisinin matrosu Asim Bayramova məxsusdur.

Asim Etibar oğlu Bayramov 1998-ci il sentyabrın 15-də İsmayıllı rayonunun Xəlilli kəndində ziyalı ailəsində dünyaya göz açıb.

2005–2015-ci illərdə kənd tam orta məktəbində təhsil alıb.

Dənizçi olmaq, ASCO-nun dünya sularında üzən gəmilərində səfərlərə çıxmaq arzusu ilə 2015–2019-cu illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecində "Gəmi sürücülüyü" ixtisasına yiyələnib.

2019-cu ilin iyulunda müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına yollanıb.

Vətən müharibəsi başlayanda hərbi xidmətdə olduğundan düşməni qəfil hücumuna görə peşman edən igidlərimizdən biri olub. İşğalçılarla ilk dəfə Barambat meşəsində üz-uzə gəlib və silahdaşları ilə birlikdə yağıya qan uddurublar.

Sıravi əsgər kimi Talış, Suqovuşan kəndlərinin işğaldan azad edilməsi, bəzi yüksəkliklərin geri alınması uğrunda döyüşlərdə igidlik göstərib.

Suqovuşan uğrunda gedən döyüşlərin daha çətin keçdiyi qənaətindədir. Zəfər xəbərini də Suqovuşan kəndində eşidib.

İstər Vətən müharibəsi günlərində, istərsə də Qələbədən sonra ona və ailəsinə göstərilən qayğı və diqqətdən çox razıdır.

Qələbədən sonra Laçın rayonunun və Zəngəzurun Qaragöl ətrafı yüksəkliklərinin müdafiəsində iştirak edib. 2021-ci ilin iyulunda Ordu sıralarından tərxis olunub.

Ailənin ilk övladıdır. Atası Etibar Bayramov Xəlilli kənd tam orta məktəbində müəllim işləyir. Anası evdar qadındır. Bacısı insanların sağlamlığı keşiyində dayanır, tibb məntəqəsinin müdiridir.

İgid dənizçinin Vətən müharibəsində yağı gülləsinə sipər etdiyi sinəsini bu gün "Suqovuşanın azad olunmasına görə", "Laçının azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı"" medalları bəzəyir.

# Ceyhun Nizami oğlu Abuşov

**“Kəlbəcərin azad olunmasına görə”** medalı

**“Vətən müharibəsi iştirakçısı”** medalı

# *“Xalqımızın rəşadətli Ordumuzdan Qələbə gözlədiyini bilirdik”*

Bütün gənclərimiz kimi, o da yaxşı bilirdi ki, işğal faktı ilə barışmayan xalqımız şanlı Ordumuza güvənir və ondan Qələbə gözləyir. Sevinir ki, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Silahlı Qüvvələrimiz parlaq Zəfəri xalqımıza ərmağan edəndə, o da ön cəbhədə olub.

Söhbət ölkəmizin ərazi bütövlüyünün təmin olunması üçün canından keçməyə hazır olan Ceyhun Abuşovdan gedir.

Ceyhun Nizami oğlu Abuşov 2001-ci il iyunun 9-da Masallı rayonunun Köhnə Alvadı kəndində dünyaya göz açıb.

2007-ci ildən Bakı şəhərində Xaliq Quliyev adına 62 saylı tam orta məktəbdə təhsil alıb.

2016-cı ildə doqquzuncu sinfi bitirdikdən sonra Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecinə daxil olub və burada “Gəmi enerji avadanlıqları və avtomatik vasitələrin istismarı” ixtisasına yiyələnib.

2020-ci ilin iyulunda müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına yollanıb. Vətən müharibəsi başlayanda hərbi xidmətdə olub.

Kəlbəcər uğrunda gedən döyüşlərdə iştirak edib və igidliyi ilə fərqlənib.

– Bütün şəhid analarının qarşısında baş əyirəm, – deyir Ceyhun Abusov. – Qələbə sevincinə görə, bütövləşən torpaqlarımıza görə, yurd həsrətimizə son qoyulmasına görə ilk növbədə onların böyüdüb tərbiyə etdikləri igidlərə borcluyuq. Məhz onların qəhrəmanlığı sayəsində 2020-ci il noyabrın 10-dan bizim də adımız dünyada qalib xalq kimi çəkilir. Allah haqq işimiz uğrunda savaşarkən şəhadətə ucalan əsgər və zabitlərimizə rəhmət eləsin.

Ceyhun həyatda ən böyük arxa-dayağını çox erkən itirib – uşaq olanda atası dünyasını dəyişib. Anası evdar qadındır, bir qardaşı var.

Ceyhun Abuşov 2022-ci il yanvarın 1-də Ordu sıralarından tərxis olunub.

“Kəlbəcərin azad olunmasına görə” və “Vətən müharibəsi iştirakçısı” medalları ilə təltif edilib.

# Elnur Xaləddin oğlu Əhmədli

**“Laçının azad olunmasına görə”** medalı

**“Vətən müharibəsi iştirakçısı”** medalı

# *Taleyi ASCO-ya gətirib çıxarana kimi Vətən müharibəsində igidlik sınağına çəkilən dənizçi*

Dənizçi həyatı uşaq yaşlarından maqnit kimi onu özünə çəkib. Cəsurları sevən dənizi sevib Elnur. Ömür yolunun ASCO-dan keçməsinə görə də, ilk növbədə bu sevgisinə borcludur.

2021-ci ilin oktyabrından bir müddət Xəzər Dəniz Neft Donanmasının "Üfüq" gəmisində matros işləyib, hazırda "Narva" gəmisində çalışır. Taleyi onu ASCO-ya gətirib çıxarana kimi Vətən müharibəsində igidlik sınağına çəkib...

Elnur Xaləddin oğlu Əhmədli 1995-ci il oktyabrın 24-də Ucar rayonunun Qazyan kəndində doğulub.

2001–2010-cu illərdə Qazyan kəndindəki 1 saylı tam orta məktəbdə, 2010–2012-ci illərdə isə Ucar şəhərindəki 4 saylı tam orta məktəbdə təhsil alıb.

2012-ci ildə Azərbaycan Dəniz Balıq Sənayesi Kollecinə daxil olub və 2017-ci ildə bu təhsil ocağını – Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecini (2016-cı ildən etibarən belə adlanır) "Gəmi sürücülüyü" ixtisası üzrə bitirib.

2013-cü ilin oktyabrından 2015-ci ilin aprelinədək Ordu sıralarında müddətli həqiqi hərbi xidmət keçib.

Vətən müharibəsi başlayan kimi ön cəbhəyə can atıb. Sentyabrın 29-dan Talış, Suqovuşan, Ağdərə, Ağ uçuq istiqamətlərində gedən döyüşlərdə qeydiyyatında olduğu hərbi hissənin taborlarının döyüş təminatında əsgər-aşpaz kimi iştirak edib. Daha sonra Qubadlı rayonunun Qaracallı kəndini qoruyan hərbi birləşmələrimizin və 2020-ci il dekabrın 1-dən başlayaraq Laçın rayonunun düşməndən təmizlənməsi və bu qədim yaşayış məskənimizdə müqəddəs bayrağımızın dalğalanması tapşırığını layiqincə yerinə yetirən hərbi hissənin döyüş taborlarının müdafiə təminatında iştirak edib.

Elnur üçün nə asan döyüş, nə də hərbi hissələrimizin döyüş təminatında asan iş olub. Xidməti vəzifəsini hər gün daha böyük cəsarətlə yerinə yetirməyə çalışıb.

Qələbə xəbərini növbəti döyüşə hazırlaşanda eşidib. Sevinc göz yaşları ilə şəhid olmuş hərbçi dostlarının bu günü görə bilməmələrindən keçirdiyi təəssüf hissi bir-birinə qarışıb.

Atası Xaləddin kişi bütün ömrü boyu əllərinin qabarına güvənib – dülgərdir. Anası Pərvanə xanım Qazyan kəndində 1 saylı tam orta məktəbdə uşaq psixoloqu işləyir. Bacısı Aynur məktəblilərə tarixi sevdirir. Elnur cəbhəyə getmək istədiyini evdə heç kimə demək istəməyib. Deməyib də. Gecə saat 4 radələrində evdən çıxıb. Ailəsi harada olduğunu biləndə əlində silah, əynində əsgər forması olub...

Elnur Əhmədlinin torpaqlarımızın işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında göstərdiyi şəxsi igidlik və şücaət Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Laçının azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə qiymətləndirilib.

# Elşad Oqtay oğlu Vəliyev

**“Xocavəndin azad olunmasına görə”** medalı

# *Vətən müharibəsində həm də atasının qisasını alıb*

Elşad Oqtay oğlu Vəliyev 1993-cü il oktyabrın 12-də Bakı şəhərində dünyaya göz açıb.

Əvvəllər Azərbaycan Xəzər Dəniz Gəmiçiliyində işləyib, sonra təhsillə əlaqədar işdən çıxıb. Qələbədən sonra yenidən doğma Gəmiçiliyə qayıdıb. Xəzər Dəniz Neft Donanmasının 721 saylı Gəmi təmiri emalatxanasında tornaçı işləyir.

Vətən yolunda canını fəda etmiş atası Oqtay Vəliyev də Xəzər Dəniz Neft Donanmasında çalışıb. Birinci Qarabağ savaşında şəhidlik zirvəsinə ucalıb. Hazırda igidin adını bu donanmaya məxsus gəmi daşıyır.

1999–2010-cu illərdə Etibar Cəlilov adına 272 saylı tam orta məktəbdə təhsil alıb. Sonra 12 nömrəli peşə liseyində "Mühasibat-maliyyə" ixtisasına yiyələnib.

2011-ci ildən Ordu sıralarında müddətli həqiqi hərbi xidmət keçib.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Nizami rayon şöbəsinə könüllü müraciətindən sonra 2020-ci il sentyabrın 21-də təlimlərə cəlb olunub. Vətən müharibəsinin ilk günündən minaaxtaran mühəndis kimi döyüşlərə qatılıb.

İlk döyüşü Füzuli istiqamətində olub. Atasının qisasını da elə ilk döyüşdə və məhz qəhrəmancasına şəhidlik zirvəsinə ucaldığı Füzulidə alıb. Elşad bu döyüşdə 4 erməni faşistini cəhənnəmə vasil edib.

İştirakçısı olduğu döyüşlərin heç biri asan keçməyib. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Xocavənd və Şuşa uğrunda gedən döyüşlərdə çiyninə düşən vəzifəni layiqincə yerinə yetirib.

Həm də atasının qisasını almaq istəyi ilə əlinə silah alanda heç kimə şəhid övladı və evin tək oğlu olduğunu deməyib. Hətta komandiri bunu Elşad Xocavənddə Qırmızı Bazar yaxınlığında Şuşa yüksəkliyi tərəfdən atılan mərmidən ağır yaralanandan və gözünü Füzuli rayonunun Əhmədbəyli xəstəxanasında açandan sonra bilib.

Dekabrın 12-də tərxis olunub. "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif olunub.

– Yaxşı yadımdadır, Ermənistanın baş naziri Nikol Paşinyan 2019-cu ildə səsləndirdiyi "Dağlıq Qarabağ Ermənistandır, nöqtə" bəyanatı ilə əslində Qarabağ münaqişəsinin dinc yolla həlli prosesinə birdəfəlik nöqtə qoydu, – deyir Elşad Vəliyev. – Azərbaycan Prezidenti İlham Əliyev isə həmin il oktyabrın 3-də Soçi şəhərində keçirilən "Valday" Beynəlxalq Diskussiya Klubunun illik iclasının plenar sessiyasındakı tarixi çıxışı zamanı "Qarabağ Azərbaycandır və nida işarəsi" dedi. Və çox keçmədi ki, Vətən müharibəsi başladı və Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Ordumuz otuz il düşmən tapdağı altında olan torpaqlarımızı cəmi 44 günə işğaldan azad etdi. 2020-ci il noyabrın 8-də Azərbaycan əsgəri Şuşanın düz mərkəzində və ən hündür yerdə müqəddəs üçrəngli bayrağımızı dalğalandırmaqla bir daha sübut etdi ki: "Qarabağ Azərbaycandır!"

# Elvin Əmrah oğlu Nəzirov

**“Cəbrayılın azad olunmasına görə”** medalı

**“Xocavəndin azad olunmasına görə”** medalı




**“Füzulinin azad olunmasına görə”** medalı

# *Vətən müharibəsinin başlandığını eşidən kimi Vətənə tələsib*

"Biz güclü olmağa məhkumuq. Çünki naxələf qonşularımızda tez-tez "dənizdən-dənizə böyük Ermənistan" xəstəliyi baş qaldırır. Otuz il idi böyük dövlətlərin köməyi ilə işğal etdikləri Azərbaycan torpaqlarında möhkəmlənməyə çalışırdılar. Məsələni dinc yolla həll etmək istəyimizə də təhdidlə cavab verirdilər. Biz qonşularımızın bu nakişiliyinə nə qədər və niyə dözməliydik?"

Bu fikir Vətən sevgisini, müstəqil Azərbaycanın ərazi bütövlüyü üçün canından keçməyə hazır olduğunu İkinci Qarabağ savaşında sübut edən Elvin Nəzirova məxsusdur.

"Bibiheybət" Gəmi Təmiri Zavodunun gəmi gövdə təmirçisi Elvin Əmrah oğlu Nəzirov 1994-cü il oktyabrın 10-da Neftçala rayonunun Abasallı kəndində dünyaya göz açıb.

2001–2011-ci illərdə kənddə tam orta məktəbdə təhsil alıb.

2011-ci ildə Azərbaycan Dəniz Balıq Sənayesi Kollecinə daxil olub və 2015-ci ildə Kolleci "Gəmilərin təmiri" ixtisası üzrə bitirib. Hazırda istehsalatdan ayrılmadan Rusiyanın Voljsk Dövlət Su Nəqliyyatı Universitetinin Kazan filialında "Gəmi energetik qurğularının istismarı" fakültəsində təhsil alır.

2015–2017-ci illərdə Ordu sıralarında müddətli həqiqi hərbi xidmət keçib. Tərxis olunduqdan sonra doğma sulardan uzaqlarda – motorçu kimi Qara dənizdə üzən Elvin İkinci Qarabağ savaşının başlandığını eşidən kimi Vətənə tələsib.

2016-cı ilin Aprel döyüşlərində iştirak etdiyindən Vətən müharibəsində daha çox fayda verə biləcəyini düşünən Elvin Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinə müraciət edərək ön cəbhəyə göndərilməsini xahiş edib. Oktyabrın 17-də istəyinə nail olub.

Füzuli, Cəbrayıl, Xocavənd, Şuşa uğrunda gedən döyüşlərdə igidliyi ilə seçilib.

Qələbə sevincini Xocavənd rayonunda yaşayıb.

Atası Əmrah kişi, anası Sona xanım, qardaşları Xadin və Xalid kimi, dənizçilər də Vətən müharibəsində cəsarətlə döyüşən Elvinlə fəxr edirlər.

2020-ci il dekabrın 31-də tərxis olunub.

Azərbaycan Respublikası ərazilərinin işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında şəxsi igidlik və şücaət nümayiş etdirən Elvin Nəzirov dövlət başçımızın müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə, "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Etibar
Sadiq oğlu
Novruzov

# *“Biz ərazi bütövlüyümüzü təmin etmək üçün həm də güclü olduğumuzu sübut etməli idik”*

“Torpaqları işğala məruz qalmış xalqın ölkəsinin ərazi bütövlüyünün bərpasından böyük arzusu ola bilərmi? Bu müqəddəs vəzifənin yenilməz Ordumuz tərəfindən layiqincə yerinə yetiriləcəyinə hamımız əmin idik. Vətən müharibəsindən əvvəl Silahlı Qüvvələrimiz bir neçə dəfə nəyə qadir olduğunu göstərmişdi. Erməni faşistlərinin ağlı olsaydı, işğal etdikləri yaşayış məskənlərimizi elə 2016-cı ilin Aprel döyüşlərindən dərhal sonra tərk edərdilər. Tərk etmədilər. Rəşadətli Ordumuz da Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci il sentyabrın 27-dən başlayan Vətən müharibəsində cəmi 44 günə Zəfər salnaməsi yazdı.”

Bu fikirlər “ASCO Mühafizə” MMC-nin mühafizəçisi Etibar Novruzova məxsusdur.

Etibar Sadıq oğlu Novruzov 1992-ci il iyunun 9-da Zəngilan rayonunun Yenikənd kəndində dünyaya göz açıb.

1999—2007-ci illərdə Bakıda 33 nömrəli məktəbdə, 2007—2010-cu illərdə 3 nömrəli peşə məktəbində təhsil alıb.

2010—2012-ci illərdə Ordu sıralarında müddətli həqiqi hərbi xidmət keçib.

Vətən müharibəsi başlayanda cəbhəyə getmək istəyi ilə dəfələrlə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinə müraciət edib. Ehtiyac olanda çağıracaqlarını deyiblər. 2020-ci il noyabrın 5-də əlinə silah alıb və çavuş kimi Cəbrayıl rayonunun müdafiəsində iştirak edib. Dekabrın 8-də tərxis olunub.

—Xain qonşularımız ərazimizin beşdə birini işğal etmişdi, — deyir Etibar Novruzov. — Dünya bizim haqlı, Ermənistanın isə işğalçı ölkə olduğunu yaxşı bilirdi. Amma susmağa üstünlük verirdi. Belə çıxırdı ki, ərazi bütövlüyümüzü təmin etmək üçün biz həm də güclü olduğumuzu sübuta yetirməli idik. Belə də etdik. Vətən müharibəsində təkcə düşmən yox, bütün dünya haqlı olduğumuz qədər də güclü olduğumuzu gördü.

Bir qardaşı, iki bacısı var. Anası 2012-ci ildə haqq dünyasına qovuşub. Birinci qrup əlil olan atasının ona ehtiyacı olsa da, könüllü cəbhəyə getmək istəyini çox qürurla qarşılayıb. Qələbə xəbərini də cəbhədən ona Etibar çatdırıb. Əfsus ki, atası Zəfərdən sonra çox yaşamayıb...

Etibar Novruzov 2022-ci ilin avqustundan “ASCO Mühafizə” MMC-də çalışır. Deyir ki, ölkəmizin hər yerində olduğu kimi, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyində də doğma Qarabağda üçrəngli bayrağımızı dalğalandırmaqda xidməti olanlara böyük diqqətlə yanaşırlar. Etibar da hazırda belə bir kollektivin üzvü olmaqdan çox məmnundur.

Əfqan
Əkbər oğlu
Səftərli

# *"Möhtəşəm Zəfərin qazanılması üçün yüksək ruh çox vacibdir"*

"İstənilən savaşda Qələbəni təmin edən bir sıra amillər olur. İqtisadi gücü yetərincə olmayan ölkənin ordusunun qələbə qazanacağına kim inanar? Hətta güclü ordu da hələ hər şey demək deyil. Möhtəşəm Zəfərin qazanılması üçün yüksək ruh çox vacibdir. Vətən müharibəsində Azərbaycan əsgərində olan ruh! Ermənilərin hər bir təxribatı zamanı bu gənclər döyüşə hazır olduqlarını bildirirdilər. 2020-ci ilin iyul ayının ortalarında düşmənin silahlı qüvvələrinin bölmələri Ermənistan—Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində atəşkəs rejimini kobud şəkildə pozaraq mövqelərimizi ələ keçirmək məqsədilə hücuma keçəndə, hər bir azərbaycanlı əlinə silah almağa hazır idi.

Həmin ilin payızında isə xalqımızın formalaşmış yüksək vətənpərvərlik ruhu bütün dünyanı mat qoydu. Ali Baş Komandanın bir çağırışı ilə hər kəs Vətənin müdafiəsinə hazır olduğunu bildirdi. Xalqımız əsl milli birlik və həmrəylik nümayiş etdirdi. Torpaqlarımızı işğaldan azad etmək üçün ön cəbhəyə can atanların sayı yüz minlərlə idi."

Bu sözləri həmin günlərdə şərəflə döyüşən Əfqan Səftərli söyləyib.

Əfqan Əkbər oğlu Səftərli 1997-ci il martın 25-də Qəbələ rayonunun Vəndam qəsəbəsində doğulub.

2004–2014-cü illərdə qəsəbədəki Hikmət Rəşidov adına 2 nömrəli tam orta məktəbdə təhsil alıb.

2014—2018-ci illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasının Dənizçilik Kollecində "Gəmilərin təmiri" ixtisasına yiyələnib.

2018—2020-ci illərdə Ordu sıralarında müddətli həqiqi hərbi xidmət keçib.

Vətən müharibəsində əsgər kimi Talış kəndi, Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

— Şanlı Ordumuz döyüş meydanında düşmənə heç vaxt unutmayacağı bir dərs verdi, — deyir Əfqan Səftərli. — Bu möhtəşəm Qələbə Müzəffər Ali Baş Komandanımızın müdrikliyi, Ordumuzun rəşadəti, xalqımızın milli birliyi ilə qazanıldı. Uca Tanrı bu birliyi bizə çox görməsin!

Əkbər kişi və Bəsirə xanım böyütdükləri övladlarla haqlı olaraq fəxr edirlər.

İki bacısı, iki qardaşı var Əfqanın. Kiçik qardaşı da Vətən müharibəsində silaha sarılmışdı.

# Ələkbər Əlisina oğlu Nağıyev

**“Suqovuşanın azad olunmasına görə”** medalı

# *Qəhrəman oğullarımızın qazandığı Qələbə onlara layiq idi*

Ələkbər Əlisina oğlu Nağıyev 1997-ci il avqustun 25-də Masallı rayonunun Qızılağac kəndində dənizçi ailəsində dünyaya göz açıb.

Atası Əlisina Nağıyev uzun illər Xəzərdə və doğma sulardan uzaqlarda üzən gəmilərdə mexanik işləyib. Ələkbərin böyük qardaşı Həsən və kiçik qardaşı Hilal da dənizçidir. Deyilənə görə, ailənin orta məktəbdə oxuyan sonbeşiyi də taleyini dənizlə bağlamaq qərarına gəlib.

Ələkbər kənddə Sübhan Xəlilov adına 1 nömrəli tam orta məktəbdə təhsil alıb. Məktəbi 2014-cü ildə bitirib və Qafqaz Universitetinə daxil olub. İki il ödənişli əsaslarla oxuyub. Sonra təhsil haqqını ödəyə bilmədiyi üçün universiteti tərk etmək məcburiyyətində qalıb. 2016-cı ilin oktyabrında müddətli həqiqi hərbi xidmətə yollanıb. 2018-ci ilin aprelində tərxis olunub.

2019-cu ildə "Kainat" Tədris Mərkəzində 6 ay matros peşəsinin sirlərinə yiyələnib.

Vətən müharibəsi başlayan gündən dəfələrlə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinə müraciət edərək ön cəbhəyə getmək istədiyini bildirib. Nəhayət, oktyabrın 22-də rəşadətli Ordumuzun formasını geyinib.

Ələkbər Nağıyevin söhbətindən: "Biz yerdəyişmədən sonra döyüş mövqeyimiz olan Suqovuşan kəndinə daha yaxın ərazidə özümüzə müvəqqəti baza yaratdıq.

Bizə əmr olunduğu qaydada irəliləyirdik. Bir gün bizə belə bir əmr gəldi ki, Suqovuşan istiqamətində vuruşan bir çox tabor tam təchizatla təmin edilib irəliyə getməlidir.

Bizim mövqe tutduğumuz yüksəkliyin qarşısında düşmənin ağır artilleriya və tank batalyonu var idi və yağı bu qədər yaxınlaşa biləcəyimizi ağlına gətirmirdi. Biz müşahidə aparanda düşmənin iki əsgəri dağa qalxırdı. Onları anındaca zərərsizləşdirdik. Amma atəş səsləri düşməni ayıltdı və ən müxtəlif silahlardan atəş açmağa başladılar. Mərmilərdən biri məndən təxminən 15 metr aralı düşdü. Bir neçə əsgərimizlə birlikdə dostum – Astaranın Maşqan kəndindən olan Əli Cəfərov da şəhid oldu. Hər biri qorxmaz, cəsur əsgər idi."

2021-ci il yanvarın 10-da təxris olunub.

Ələkbər Nağıyevin ən böyük arzularından biri dənizdə işləmək, ləngərli gəmilərdə səfərlərə çıxmaq olub. ASCO rəhbərliyinin Vətən müharibəsi iştirakçılarına diqqəti sayəsində artıq bu arzusuna qovuşub: Xəzər Dəniz Neft Donanmasının "Socar-1" gəmisində matros kimi çalışır.

Ələkbər Nağıyev "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.



# Əli Zaur oğlu Ağayev

**“Cəbrayılın azad olunmasına görə”** medalı

**“Xocavəndin azad olunmasına görə”** medalı

**“Füzulinin azad olunmasına görə”** medalı




**“Şuşanın azad olunmasına görə”** medalı

# *“Birliyimiz haqq savaşımızın Qələbəmizlə bitməsində mühüm rol oynadı”*

“Biz əsgər idik. Bizim işimiz işğal altında olan torpaqlarımızın azad edilməsi uğrunda döyüşmək idi, biz də döyüşdük. Amma müharibənin aqibəti yalnız döyüş meydanlarında həll olunmur. Çox şükürlər olsun ki, Azərbaycan Vətən müharibəsində bütün zəruri vəzifələrin öhdəsindən uğurla gəldi. Ölkəmizdəki “Dövlət—Xalq—Ordu” birliyi haqq savaşımızda Qələbəmizi təmin etdi.”

Bu sözlər Vətən müharibəsində igidliyi ilə seçilən və hazırda ASCO-nun “Zığ” Gəmi Təmiri və Tikintisi Zavodunda gəmi boruçəkəni işləyən Əli Ağayevə məxsusdur.

Əli Zaur oğlu Ağayev 1999-cu il fevralın 16-da Salyan rayonunun Qızılağac kəndində doğulub.

2005—2015-ci illərdə Əlövsət Quliyev adına Qızılağac kənd tam orta məktəbində təhsil alıb.

2015—2019-cu illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecində “Gəmilərin təmiri” ixtisasına yiyələnib.

2019-cu ilin iyulunda müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına yollanıb.

Vətən müharibəsi başlayanda hərbi xidmətdə olduğundan ilk günlərdən döyüşlərə atılıb. Füzulinin, Cəbrayılın, Xocavəndin, Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərib.

Xocavənd rayonunun Tuğ kəndi, Füzuli rayonunun Hadrud qəsəbəsi, Cəbrayıl rayonunda İlandağ yüksəkliyi uğrunda döyüşlərin asan keçmədiyini düşünür. Torpaqlarımızı yağıdan təmizləmək istəyi o qədər güclü olub ki, aldığı xəsarətlərə, mərmi qəlpəsi yaralarına əhəmiyyət verməyərək döyüşü davam etdirib. Qələbə xəbərini Şuşada eşidib.

— Xalqımız təbiət etibarı ilə sülhsevər olduğundan heç vaxt müharibə istəməyib, — deyir Əli Ağayev. — Amma torpaqlarımızın beşdə birini işğal altında saxlayan və danışıqlar yolu ilə geri qaytarmaq niyyəti olmayan faşist ermənilər bizi döyüşməyə məcbur etdilər. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimiz Ermənistan ordusunun məğlubedilməzliyi barədə illərdir formalaşdırılmış mifi 44 günə dağıtmaqla yanaşı, işğalçını Azərbaycan xalqının iradəsi ilə hesablaşmağa məcbur etdi.

Ailənin ikinci övladıdır. İki qardaşı, bir bacısı var. Qardaşı Samir də müharibə veteranıdır.

Cəsur döyüşçü Əli Ağayev “Cəbrayılın azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə”, “Füzulinin azad olunmasına görə” və “Şuşanın azad olunmasına görə” medalları ilə təltif edilib.

# Əliqismət Ədalət oğlu Əliyev

**“Cəsur döyüşçü”** medalı

**“Cəbrayılın azad olunmasına görə”** medalı

**“Qubadlının azad olunmasına görə”** medalı

# *“Savaşın ilk günlərindən bəlli oldu ki, müharibə çox çəkməyəcək”*

“Qəhrəman əsgər və zabitlərimiz düşmənin illərlə yaratdığı güclü müdafiə sistemini, sədləri qısa müddətdə darmadağın etdilər. Artıq savaşın ilk günlərindən bəlli oldu ki, müharibə çox çəkməyəcək, Azərbaycan Ordusu Ali Baş Komandanın mahir sərkərdəliyi ilə ərazi bütövlüyümüzü qısa zamanda bərpa edəcək. Belə də oldu.”

Bu fikri Vətənin dar günündə ön sırada olan igid dənizçi Əliqismət Əliyev səsləndirib.

Əliqismət Ədalət oğlu Əliyev 1997-ci il yanvarın 1-də Neftçala rayonunun Aşağı Surra kəndində doğulub.

2003—2013-cü illərdə kənddə Zabil Əsgərov adına tam orta məktəbdə təhsil alıb.

2013—2017-ci illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecində “Gəmi maşın və mexanizmlərinin quraşdırılması, onlara texniki xidmət” ixtisasına yiyələnib.

2017-ci ilin iyulundan 2019-cu ilin yanvarınadək Ordu sıralarında müddətli həqiqi hərbi xidmət keçib.

Vətən müharibəsi başlayanda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinə könüllü cəbhəyə getmək istədiyini bildirib. Sentyabrın 29-da artıq ön cəbhədə olub.

Snayperçi əsgər kimi döyüş yolu Cəbrayıldan başlayıb. Sonra işğalçıları Xocavənd, Qubadlı və Şuşada qabağına qatıb qovan igidlərimizlə çiyin-çiyinə verib. Savaş günlərində düşməni gözündən vurmaqla yanaşı, yaralılara ilk tibbi yardım göstərməyə, onları təxliyə etməyə çalışıb.

Hər döyüşün öz çətinlikləri olub. Oktyabrın 24-də Qubadlı rayonunun azad edilməsi uğrunda gedən döyüşdə iki dostunun qucağında şəhid olmasını bu gün də unuda bilmir.

Oktyabrın 30-da Qubadlı rayonu uğrunda gedən döyüşdə sağ qolundan qəlpə yarası alıb. Qələbə xəbərini də xəstəxanada eşidib. Noyabrın 12-də xəstəxanadan çıxdıqdan sonra artıq Şuşada olan bölüyünə qatılıb.

Əliqismət deyir ki, Vətən müharibəsində ölkə başçımızın ətrafında sıx birləşən xalqımızın göstərdiyi dəyanət dövlət başçısına böyük inamın, Vətənə sonsuz sevgisinin təsdiqi idi.

2020-ci il dekabrın 12-də tərxis olunub.

Evdar qadın olan anası Ruhiyyə xanım da əmindir ki, erkən haqq dünyasına qovuşan ömür-gün yoldaşı Ədalət sağ olsaydı, oğlunun Vətən müharibəsində göstərdiyi şücaətdən yəqin ki, fərəhi köksünə sığmazdı...

Əliqismətin qardaşı Xəyal Azərbaycan Dövlət Dəniz Akademiyasının, bacısı Xəyalə Bakı Dövlət Universitetinin məzunudur.

Xalqımızın igid oğlu Əliqismət Əliyev “Cəsur döyüşçü”, “Cəbrayılın azad olunmasına görə”, “Qubadlının azad olunmasına görə” medalları ilə təltif edilib.

# Əsgəralı Ramin oğlu Baxşiyev

**“Laçının azad olunmasına görə”** medalı

# *“Haqq savaşı apardığımız üçün Allah da Qələbə qazanmağımızı istəyirdi”*

Əsgəralı Ramin oğlu Baxşiyev 2000-ci il mayın 25-də Sabirabad şəhərində doğulub.

2006—2015-ci illərdə Sabirabad şəhərində Nizami Gəncəvi adına 5 nömrəli tam orta məktəbdə təhsil alıb.

2015—2019-cu illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecində “Gəmilərin təmiri” ixtisasına yiyələnib.

2019-cu ilin iyulunda müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına yollanıb.

Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Xocavənd istiqamətində gedən döyüşlərdə və Laçının müdafiəsində baş radiotelefonçu əsgər kimi iştirak edib.

Əsgəralı deyir ki, döyüş vaxtı zabit və əsgərlər doğma qardaşlar kimi bir-birinin yolunda canlarından keçməyə hazır olublar. Bu, Qələbənin qazanılmasında çox böyük rol oynayıb. Bundan başqa, haqq savaşı apardığımız üçün Allah da Qələbə qazanmağımızı istəyib və yardımını əsirgəməyib.

—Hərbçilərimizin yüksək peşəkarlığı, Vətən sevgisi və döyüş əzmi çox şeyə qadir idi, — deyir Əsgəralı Baxşiyev. — Ona görə, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində ərazi bütövlüyümüzü bərpa etməklə xalqımızın qəhrəmanlıq salnaməsinə yeni səhifə yazmaq çətin olmadı. Yenilməz Ordumuz otuz il başqalarına arxalanıb bizə məğlubedilməzliyindən dəm vuran işğalçını elə aciz duruma saldı ki, bundan sonra heç otuz ilə də çətin özünə gələ.

Atası Ramin kişi sürücü işləyir, anası Samirə xanım evdar qadındır. Bacısı Güllər Azərbaycan dili və ədəbiyyatı müəlliməsidir. Ön cəbhədə olduğunu təkcə atası bilib və ondan xahiş edib ki, heç kimə deməsin. Digər yaxınları bundan Qələbə günü xəbər tutublar.

Əsgəralı Baxşiyev yenilməz Ordumuzun sıralarından 2021-ci ilin iyulunda tərxis olunub.

“Laçının azad olunmasına görə” medalı ilə təltif edilib.

# Fazil Vəli oğlu Məmmədov

**“Suqovuşanın azad olunmasına görə”** medalı




**“Şuşanın azad olunmasına görə”** medalı

# *“Vətən müharibəsi göstərdi ki, arzu etdiyimiz hər bir zirvəni fəth edə bilərik”*

“Rəşadətli Ordumuz Vətən müharibəsində düşməni əzəli torpaqlarımızdan qovmaqla yalnız Qələbə qazanmadı, otuz ilə yaxın davam edən böyük haqsızlığa son qoydu, tarixi ədaləti bərpa etdi. Biz də bir daha əmin olduq ki, müdrik Prezidentimiz İlham Əliyevin həyata keçirdiyi qətiyyətli siyasət və xalqımızın birliyi ilə arzu etdiyimiz hər bir zirvəni fəth edə bilərik.”

Bu fikirlər Vətən müharibəsində şərəfli döyüş yolu keçən Fazil Məmmədovun dilində səslənib.

Fazil Vəli oğlu Məmmədov 2000-ci il fevralın 28-də Ucar rayonunun Ramal kəndində dünyaya göz açıb.

Kənd tam orta məktəbində və Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecində təhsil alıb.

2019-cu ilin iyulunda müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına yollanıb.

Vətən müharibəsi başlayanda hərbi xidmətdə olub.

Xüsusi Təyinatlı Qüvvələrin tərkibində snayperçi kimi döyüşlərə qatılıb. Xocavənd, Hadrut, Suvoquşan, Qubadlı və Şuşanın işğaldan azad olunmasında fəal iştirak edib.

İlk döyüşə Xocavənddə atılıb, Qırmızı Bazar ərazisində düşmənin xeyli sayda canlı qüvvəsini məhv ediblər.

Ölümün gözünə dik baxmağı bacaran Fazil heç bir döyüşün asan keçmədiyini deyir. Əzəli torpaqlarımızı işğalçılardan təmizləmək üçün dərin dərələrdən, sıldırım qayalardan keçmək lazım gəlib. Hər bir yurd yerimiz çox dəqiq hərbi əməliyyatlar nəticəsində azad edilib və hər uğur növbəti daha böyük uğur üçün mühüm əhəmiyyət daşıyıb və böyük Zəfərə inamı daha da gücləndirdiyi kimi, Qələbəyə gedən yolu da xeyli qısaldıb. Məsələn, Hadrutun ətrafında yerləşən yüksəkliklər igidlərimiz tərəfindən yüksək peşəkarlıqla götürüləndən sonra faktiki olaraq nəzarət Ordumuzun əlinə keçib. Hadrutun təmizlənməsi isə Qarabağın tacı Şuşa şəhərinə düşmənin gözləmədiyi istiqamətdən yaxınlaşmağa imkan verib.

Şuşanın azad olunması uğrunda gedən döyüşlərin isə heç vaxt yaddaşından silinməyəcəyini düşünür.

Noyabrın 7-də Şuşa istiqamətində gedən döyüşdə qəlpə yarası alıb.

Qələbə xəbərini Bərdədə xəstəxanada eşidib. 2021-ci ilin iyulunda tərxis olunub.

Ailədə 5 nəfərdirlər. Atası Vəli Məmmədov Birinci Qarabağ müharibəsində düşməni əliyalın boğan igidlərimizdən olub. Elə igid atanın oğlunun belə cəsur olmasında təəccüblü heç nə yoxdur. Anası Könül xanım evdar qadındır. İki bacının tək qardaşıdır Fazil.

“Suqovuşanın azad olunmasına görə” və “Şuşanın azad olunmasına görə” medalları ilə təltif edilib.

# Fərhad Səxavət oğlu Səfərov

**“Cəbrayılın azad olunmasına görə”** medalı

**“Qubadlının azad olunmasına görə”** medalı

# *Sözü anda bərabər dənizçi*

Dəniz Nəqliyyatı Donanmasının "Professor Gül" gəmi-bərəsinin motorçusu Fərhad Səxavət oğlu Səfərov 1994-cü il martın 10-da Neftçala rayonunun Xolqarabucaq kəndində dünyaya göz açıb.

2000–2011-ci illərdə Qismət Nuralıyev adına kənd tam orta məktəbində təhsil alıb.

Həyatda ən böyük arzularından biri dor ağacında müstəqil Azərbaycanın bayrağı dalğalanan gəmilərdə üzmək olduğundan, məktəbi bitirdikdən sonra "Kainat" Tədris Mərkəzində "Motorçu" ixtisasına yiyələnib.

2012-ci ilin aprelindən 2013-cü ilin oktyabrınadək Azərbyacan Ordusu sıralarında müddətli həqiqi hərbi xidmət keçib. 2015-ci ildə irimiqyaslı hərbi təlimlərə cəlb olunub. Hərbi xidmət və təlimlərdə səy göstərərək özünü ən çətin döyüşlərə hazırlayıb.

Vətən müharibəsində Fərhad sıravi əsgər kimi şərəfli döyüş yolu keçib. Füzuli, Cəbrayıl, Zəngilan rayonları və Xocəvəndin Tuğ kəndi uğrunda gedən döyüşlərdə fəal iştirak edib.

Sözü anda bərabər dənizçi hər döyüşdə həm də şəhidlik zirvəsinə ucalan əmisi oğlu Mais Səfərovun, polkovnik-leytenant Nail Orucovun və mayor Müseyib Zeynalovun qisasını almağa çalışıb. Alıb da!

Ailənin ilki olan Fərhad Vətənin dar günündə sinəsini qalxana çevirən igidlərdən uzaqlarda olmağı özünə sığışdırmayıb. Ailə üzvləri də "Öncə Vətən!" düşüncəsi ilə Fərhadın arxasınca su atıblar.

Qələbə xəbərini Qubadlıda eşidib.

2021-ci ilin ilk günü tərxis olunub.

Sinəsini bəzəyən "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları Fərhad Səfərovun haqq savaşımızda göstərdiyi şücaətlə yanaşı, həm də sonsuz Vətən sevgisini təsdiq edir.

# Hafiz İlqar oğlu Dadaşev

**“Vətən müharibəsi iştirakçısı”** medalı

# *“Biz eyni hədəfə vuranda, düşmən də başına döyür”*

ASCO-nun “Bibiheybət” Gəmi Təmiri Zavodunun Gəmi təmizləmə və rəngləmə bölməsinin işçisi Hafiz İlqar oğlu Dadaşev 1999-cu il iyulun 14-də Bakıda dənizçi ailəsində doğulub.

Hafiz Dadaşev 91 saylı tam orta məktəbin doqquzuncu sinfini bitirdikdən sonra 6 saylı peşə liseyinə daxil olub və burada “Gəmi elektrik-qaz qaynaqçısı” ixtisasına yiyələnib.

2017–2019-cu illərdə Ordu sıralarında müddətli həqiqi hərbi xidmət keçib.

Vətən müharibəsi başlayanda əksər gənclərimiz kimi Hafiz də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinə müraciət edərək könüllü cəbhəyə getmək istədiyini bildirib.

Sentyabrın 30-dan ön cəbhədə olub, snayperçi kimi Füzuli, Cəbrayıl, Xocavənd rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Düşməni gözündən vuran igid əsgərin ilk döyüşü Hadrud istiqamətində olub. Düşmənin artilleriyası məhv edildikdən sonra Hadruda daxil olublar. Bundan sonra işğalçıların təminatının qarşısını almaq üçün “Daş bayraq” deyilən yerə tələsiblər. Hava qaralmamış dağa çatıblar. Bölük komandirinin əmri ilə hər kəs süngü ilə özünə münasib yer düzəltməyə çalışıb. İşə başlayan kimi, başlarının üstündən güllə yağış kimi yağmağa başlayıb.

Həmin döyüşü xatırlayarkən Hafiz deyib: ”Güllələr çox yaxından keçirdi. Müşahidə aparmağa başladım, bu zaman komandir düşmənin yerini dəqiq söylədi. Hədəfi görəndən sonra cəmi bircə atəş açdım və erməni dığası bağıra-bağıra dağdan yıxıldı. Bizi daha çox artilleriya ilə vururdular. Qaranlıq düşənədək döyüşdük və amma mövqeyimizi əldən vermədik. Səhər açıldı və yolumuza davam etdik.”

Qələbə xəbərini gecə saat 4-də növbədə olarkən əsgər yoldaşı ona çatdırıb. Əvvəcə elə bilib ki, zarafat edir...

Atası İlqar Dadaşov haqq dünyasına qovuşub, anası Əsmayə xanım evdar qadındır. Evin sonbeşiyi olan Hafizin iki qardaşı var. Böyük qardaşı Hüseyn dənizçidir.

Müharibə bitdikdən sonra Laçının müdafiəsində iştirak edib və 2021-ci ilin yanvarında ehtiyata buraxılıb.

44 günlük Vətən müharibəsində bütün dünyanı heyran qoyan birliyimiz də, Ordumuzun yüksək səviyyədə təminatı da, əsgərlərimizin Qələbə əzmi də düşmənə gözdağı idi, – deyir Hafiz Dadaşov. – Və təkcə gözdağı deyildi. Biz birlikdə güclü olduğumuzu unutmayanda, eyni hədəfə vuranda, arxasında kimin dayanmağından asılı olmayaraq, düşmən əvvəl-axır ya başına döyür, ya dizinə. Otuz illik yurd həsrətimizə son qoyan İkinci Qarabağ savaşında olduğu kimi!

Hafiz Dadaşev “Vətən müharibəsi iştirakçısı” medalı ilə təltif edilib.

# Həsən Firqan oğlu Mustafayev

**“Xocavəndin azad olunmasına görə”** medalı

**“Füzulinin azad olunmasına görə”** medalı

# Övladlıq borcunu layiqincə yerinə yetirib

Xəzər Dəniz Neft Donanmasının "Şirvan-3" gəmisinin matrosu Həsən Firqan oğlu Mustafayev 1990-cı il iyulun 28-də Neftçala rayonunun Yenikənd kəndində doğulub.

1997–2008-ci illərdə Neftçala şəhərindəki Elton Həbibov adına 4 saylı tam orta məktəbdə təhsil alıb.

Məktəbi bitirdikdən sonra Bakı Qida Sənayesi Kollecinə daxil olub.

2008–2010-cu illərdə Ordu sıralarında müddətli həqiqi hərbi xidmət keçib. Tərxis olunduqdan sonra Bakı Qida Sənayesi Kollecində təhsilini davam etdirib və 2013-cü ildə "Kimyəvi birləşmələrin keyfiyyətinə analitik nəzarət" ixtisası üzrə bitirib. Lakin sular qoynunda üzmək istəyi onu rahat buraxmayıb. 2015–2018-ci illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdindəki Dənizçilik Kollecində "Gəmi sürücülüyü" ixtisasının sirlərinə yiyələnib.

2020-ci ildə Tovuz döyüşləri zamanı xalqımızın qəhrəman oğlu general-mayor Polad Həşimov şəhidlik zirvəsinə ucalandan sonra Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Neftçala rayon şöbəsinə müraciət edərək cəbhəyə getmək istədiyini bildirib. Arzusu oktyabrın 19-da gerçəkləşib.

Çavuş rütbəsində sanitar-təlimatçı kimi ilk döyüşü Füzuli rayonunun Gecəgözlü kəndi uğrunda olub. İşğalçıların müdafiə postuna hücum ediblər. Yaxın məsafədə üç saat döyüşərək düşmənin 30-a yaxın canlı qüvvəsini məhv ediblər.

Füzuli rayonunun Qoçəhmədli, Çimən, Musabəyli, Pirəhmədli, Cuvarlı, İşıqlı, Dədəli kəndlərinin işğaldan azad olunmasında iştirak edib. Sonra Xocavənd rayonu istiqamətində irəliləyiblər. Düşmənin Xocavənd rayonunda yerləşən hərbi hissəsini ələ keçirərkən xeyli sayda döyüş texnikası və maşınlarını qənimət olaraq götürüblər. Xocavənd rayonunun Dolanlar, Bünyadlı, Ataqut, Ağcakənd, Günəşli, Çinarlı kəndlərinin azad olunması uğrunda gedən döyüşlərdə fərqlənib.

Xocavənd rayonunun kəndlərinin azad olunması uğrunda gedən ağır döyüşlərin birində bölüyün həkimi şəhidlik zirvəsinə ucalıb və bütün məsuliyyət həkim köməkçisi kimi onun çiyninə düşüb. Həm vuruşmaq, həm yaralı əsgərlərə vaxtında tibbi yardım göstərmək asan olmasa da, öhdəsindən gəlib.

Beş nəfərdən ibarət ailədə böyüyüb. Atası Firqan kişi təqaüdçüdür, anası Tükəzban xanım haqq dünyasına qovuşub. Üç qardaşı var: Mirzaga, Rəşad, Elnur.

Evin kiçik oğlu olan Həsən özü də xoşbəxt atadır, iki qız övladı böyütsə də, könüllü cəbhəyə getmək istəyi doğmaları tərəfindən anlaşıqlı qarşılanıb. Çünki bu ailədə hamı bu fikirdədir ki, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüşmək hər bir vətandaşının övladlıq borcudur.

İgidliyin nişanəsi olan "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları da Həsən Mustafayevin Vətən qarşısında övladlıq borcunu necə ləyaqətlə yerinə yetirdiyini təsdiqləyir.



# Hüseyn Rzabala oğlu Xudaverdiyev

**“Ağdamın azad olunmasına görə”** medalı

# *Birliyimiz Qələbənin qazanılmasında mühüm rol oynadı*

"Xalqımızın Vətən müharibəsindəki birliyini təsadüf saymaq olmazdı. İşğalla heç vaxt barışmayacağını və bir qarış torpağını belə güzəştə getməyəcəyini dəfələrlə bəyan edən xalqımız ölkəmizin ərazi bütövlüyünün və tarixi ədalətin bərpa olunması ilə bağlı arzularının reallaşmasının milli birlikdən keçdiyini çox gözəl bilirdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin "İrəli" əmrindən sonra yenilməz Ordumuz 44 günlük sınaq günlərində təkcə işğal altında torpaqlarımızı azad etmədi, qazandığı möhtəşəm Zəfərlə suverenliyi, ərazi bütövlüyü uğrunda canından keçmiş bütün şəhidlərimizin və xalqımızın dünyaya Qarabağda göz açan Molla Pənah Vaqif, Xurşidbanu Nətavan, Üzeyir Hacıbəyli... kimi görkəmli övladlarının ruhunu şad etdi."

Bu kəlmələr düşmənin başını əzərkən rəşadətli Ordumuzun sıralarında xidmət edən Hüseyn Xudaverdiyevə məxsusdur.

Hüseyn Rzabala oglu Xudaverdiyev 2000-ci il aprelin 12-də Bakının Zirə qəsəbəsində dünyaya göz açıb.

2006—2015-ci illərdə qəsəbədəki Nüsrət Yaqubov adına 120 nömrəli tam orta məktəbdə təhsil alıb.

2015-ci ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecinə daxil olub.

2019-cu ilin iyulunda müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına çağırılıb.

Vətən müharibəsi başlayanda hərbi xidmətdə olub.

Artilleriya kəşfiyyatının manqa komandiri-kəşfiyyatçı kimi Ağdamın işğaldan azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. İlk döyüşün öz həyəcanı, Ağdamın Əhmədağalı kəndi uğrunda gedən ən çətin döyüşün isə tamam başqa həyəcanı olub.

Düşüncəsinə görə, möhtəşəm Qələbənin qazanılmasında Vətən sevgisi, doğma yurda bağlılıq mühüm rol oynayıb. Cəbhədə də ən çox Qələbə barədə fikirləşib. 2021-ci ilin iyulunda tərxis olunub.

Ailədə dörd nəfərdirlər. Atası Rzabala kişi Pirallahı qəsəbəsində işləyir. Anası Rəsmiyyə xanım evdar qadındır. Bir bacısı var. Hüseyn evin sonbeşiyidir.

Ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçən hərbçi yoldaşlarını böyük minnətdarlıq duyğusu ilə xatırlayır. "Onları unutmaqmı olar?!"— deyir.

Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə şəxsi igidlik və şücaət göstərən Hüseyn Xudaverdiyev dövlət başçımızın Sərəncamı ilə "Ağdamın azad olunmasına görə" medalı ilə təltif edilib.

# Hüseynağa Oruc oğlu Əsgərov

**“Xocavəndin azad olunmasına görə”** medalı

**“Füzulinin azad olunmasına görə”** medalı

# *“Qələbədən sonra ölkəmizdə hamı məğrur görünür”*

“Torpaqlarımızın azad olunmasını istəyirdik, amma düşmən işğal etdiyi yaşayış məskənlərimizdən xoşluqla çıxmaq fikrindən çox uzaq idi. Sülh danışıqlarımızı da lağa qoyurdu. Biz torpaqlarımızdan keçən deyildik, işğalçı da qanan deyildi. Bizim bir yolumuz qalırdı: o da haqq savaşı idi.”

Bu fikri Vətən müharibəsində keçdiyi şərəfli döyüş yolundan danışarkən Hüseynağa Əsgərov söyləyib.

Hüseynağa Oruc oğlu Əsgərov 1997-ci il martın 11-də Salyan şəhərində dünyaya göz açıb.

2021-ci ildən “Bibiheybət” Gəmi Təmiri Zavodunun boru sahəsində çalışır.

2004—2013-cü illərdə Yusif Qasımov adına 4 nömrəli tam orta məktəbdə təhsil alıb.

2015—2019-cu illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecində “Gəmiqayırma” ixtisasına yiyələnib.

2020-ci il sentyabrın 21-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin çağırışı əsasında təlimlərə cəlb edilib.

Sentyabrın 27-də başlayan Vətən müharibəsində Füzuli, Xocavənd və Ağdam rayonlarıuğrunda gedən döyüşlərdə əsgər kimi iştirak edib.

Füzulidə ilk döyüşə atılıb. Horadiz kəndi istiqamətdəki postları ələ keçiriblər.

Füzuli və Xocavənd istiqamətində gedən döyüşlərdə qəlpə yarası alıb.

— Otuz ilə yaxın idi ki, gözlərimiz sevincə həsrət idi, — deyir Hüseynağa Əsgərov. — İçimizdəki Qarabağ dərdindən gülməyi yadırğamışdıq. İşğal olunmuş ərazilərimiz vəhşi qəsbkarlardan azad ediləndən, ərazi bütövlüyümüz təmin olunandan sonra ölkəmizdə hamı məğrur görünür. Belə ola həmişə!

2021-ci ilin yanvarında tərxis olunub.

Atası Oruc kişi də, evdar qadın olan anası Sevinc xanım da, Lənkəran Dövlət Universitetində təhsil alan bacısı Aytən də Vətən müharibəsi günlərində səhəri çox vaxt dirigözlü açıblar.

Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında igidlik və şücaət nümayiş etdirən Hüseynağa Əsgərov Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə “Xocavəndin azad olunmasına görə” və “Füzulinin azad olunmasına görə” medalları ilə təltif edilib.

# Xaliq Habil oğlu Yusifov

**“Suqovuşanın azad olunmasına görə”** medalı

# *“Azad etdiyimiz hər qarış torpaq Qələbəyə inamımıza inam qatırdı”*

“İkinci Qarabağ savaşından əvvəl də Azərbaycan Silahlı Qüvvələrinin yenilməzliyi çoxlarına bəlli idi. Ordumuzun ən müasir silahlarla təchiz olunması, əsgər və zabitlərin yüksək peşəkarlığı və qələbə əzmi istənilən döyüş tapşırığını yerinə yetirməyə qadir idi. Qələbə üçün bircə Ali Baş Komandanın “İrəli!” əmri lazım idi. Onu da sentyabrın 27-də bütün dünya eşitdi.”

Bu sözlər Vətən müharibəsi iştirakçısı Xaliq Yusifovun dilindən çıxıb.

Xaliq Habil oğlu Yusifov 1998-ci il aprelin 22-də Astara rayonunun Şiyəkəran kəndində dünyaya göz açıb.

2004—2015-ci illərdə kənddəki Nizami Gəncəvi adına 1 saylı tam orta məktəbdə təhsil alıb.

2015—2019-cu illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecində “Gəmi maşın və mexanizmlərinin quraşdırılması və onlara texniki xidmət” ixtisasına yiyələnib.

2019-cu ilin iyulunda müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına yollanıb.

Vətən müharibəsi başlayanda “N” saylı hərbi hissədə xidmət etdiyindən ilk gündən düşmənin hücumlarını dəf edən igidlərimizlə çiyin-çiyinə verib. Tərtər—Ağdərə istiqamətində gedən döyüşlərdə atıcı-nizamlayıcı kimi iştirak edib. Suqovuşanın azad olunması döyüşlərində xüsusi ilə fərqlənib.

Torpaqlarımızın bütövlüyü uğrunda gedən döyüşlərdə iştirak etdiyinə və bu Qələbədə az da olsa payı olduğuna sevinir.

— Əsgər və zabitlərimiz heç bir çətinlikdən qorxmurdu, daim irəliyə can atırdılar, — deyir Xaliq Yusifov. — Otuz il məğlubedilməzliyindən dəm vuranlar bəzən itkilərinin çoxluğu səbəbindən öz cəsədlərinə də sahib çıxmaq istəmirdilər. Azad etdiyimiz hər qarış torpaq isə Qələbəyə inamımıza inam qatırdı.

2021-ci ilin iyulunda tərxis olunub.

Ərazi bütövlüyümüzün təmin edilməsi uğrunda döyüşlərdə göstərdiyi şücaətə görə Xaliq Yusifov Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə “Suqovuşanın azad olunmasına görə” medalı ilə təltif edilib.

# Xəyal Vüqar oğlu Dadaşov

**“Zəngilanın azad olunmasına görə”** medalı

**“Kəlbəcərin azad olunmasına görə”** medalı

# *“Qələbə xalqın inamını özünə qaytardı”*

“2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti təxribatından sonra özünün müdafiə hüququndan istifadə edən Azərbaycan əks-hücum əməliyyatlarına başladı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılan tarixi Qələbə ərazi bütövlüyümüzlə yanaşı, tarixi ədaləti də bərpa etdi. Bu Qələbə haqqımızda “məğlub xalq” sindromunu sındırdı, xalqın inamını özünə qaytardı. Peşəkarlığı, biliyi, yüksək fiziki keyfiyyətləri ilə seçilən əsgər və zabitlərimiz təkcə igidlik və şücaətləri ilə nümunə olmadılar. Döyüşlər zamanı göstərdikləri yüksək mənəvi davranış bəlkə də heç vaxt, heç bir müharibədə müşahidə edilməyib.”

Bu sözləri işğal altında olan ərazilərimizdə üçrəngli bayrağımızın dalğalandırılması üçün canından keçməyə hazır olan Xəyal Dadaşov deyib.

Xəyal Vüqar oğlu Dadaşov 2001-ci il yanvarın 1-də Salyan rayonunun Qızılağac kəndində doğulub.

2008–2017-ci illərdə Əlövsət Quliyev adına Qızılağac kənd tam orta məktəbində təhsil alıb.

Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecində “Gəmi enerji avadanlıqların və avtomatik vasitələrin istismarı” ixtisasına yiyələnib.

2020-ci ilin iyulunda müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına yollanıb. Vətən müharibəsi başlayanda hərbi xidmətdə olub.

Kəlbəcər və Zəngilan rayonlarının işğaldan azad edilməsi uğrunda döyüşlərdə iştirak edib.

Qələbə xəbərini Kəlbəcərdə eşidib.

2022-ci ilin yanvarında tərxis olunub.

Xəyal Dadaşovun torpaqlarımızın işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında nümayiş etdirdiyi şəxsi igidlik və şücaət “Zəngilanın azad olunmasına görə” və “Kəlbəcərin azad olunmasına görə” medalları ilə qiymətləndirilib.

# İlkin Allahverdi oğlu Şamilov

**“Zəngilanın azad olunmasına görə”** medalı

# *“Xalqımız bizdən Qələbə gözləyirdi”*

“Xalqımız bizdən Qələbə – ərazi bütövlüyümüzün bərpasını, tarixi ədalətin təntənəsini gözləyirdi. Gözləməyə haqqı vardı. Gözləyirdisə, deməli həm də Ordusuna inanırdı. Dünyanın ən güclü orduları sırasında yer alan Azərbaycan Silahlı Qüvvələri də 2020-ci il sentyabrın 27-də başlayan, işğal altındakı ərazilərimizin azad edilməsi ilə nəticələnən Vətən müharibəsini tariximizin ən parlaq səhifəsinə çevirməklə bu inamı layiqincə doğrultdu.

Bu sözlər Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu tarixi Zəfərə imza atanda əli silahlı gənclərimizin sıralarında olan İlkin Şamilova məxsusdur.

“ASCO Mühafizə” MMC-də çalışan İlkin Allahverdi oğlu Şamilov 1991-ci il sentyabrın 18-də Bakının Qaraçuxur qəsəbəsində doğulub.

1999-cu ildə qəsəbədəki Cavanşir Rəhimov adına 146 saylı tam orta məktəbin birinci sinfinə daxil olub. Məktəbdə oxuduğu illərdə idmana böyük maraq göstərib, boksla məşğul olub.

2019-cu ilin aprelində müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına yollanıb. Dövlət Sərhəd Xidmətinin Xüsusi təyinatlı briqadasının kəşfiyyat bölüyündə xidmət edib.

Vətən müharibəsi başlayanda hərbi xidmətdə olub. Ağdamın meşələri, Cəbrayılın yaşayış məskənləri, Zəngilanın yüksəklikləri bəlkə bu gün də onun ayaq izlərini saxlayır.

İlk döyüşü Cəbrayıldan Zəngilana girəndə olub. Düşmən yüksəklikdə – daha yaxşı mövqedə olduğu üçün döyüş asan keçməyib. İşğalçıların minaatanları bir an belə susmasa da dağa qalxa, düşməni olduğu əlverişli mövqedən vurub çıxara biliblər. Yağı silah-sursatını da ataraq qaçıb. İki saatdan çox çəkən qızğın döyüşdə iki igidimiz şəhid olub…

Ən çətin döyüşü Mincivan istiqamətində olub. Tələyə düşüblər. Yaxın dostu Rəvan Əliyevin başından snayper gülləsi ilə vurulması ona çox pis təsir edib.

Rabitə əlaqəsi saxlaya bilmədiyi üçün cəbhədə ən çox doğmaları barədə fikirləşib.

Düşmənin təslim olması xəbərini Zəngilanın Bartaz yüksəkliyində kapitan Röyal Quliyevdən eşidib.

– Qələbə Müzəffər Ali Baş Komandanın sərkərdəlik məharəti, şəhidlərimizin müqəddəs qanı, bütövlükdə xalqımızın sücaəti ilə qazanıldı, – deyir İlkin Şamilov. – Sevinirəm ki, ölkəmizin ərazi bütövlüyünü bərpa etməklə şəhidlərimizin qanını yerdə qoymadıq.

Qələbədən sonra Qubadlıda, Laçında xidmətini davam etdirib.

Ata-anasının tək övladıdır. Atası Allahverdi Şamilov Daxili işlər orqanlarında çalışıb, hazırda təqaüddədir. Anası Nərminə xanım evdar qadındır.

İgid mühafizəçi İlkin Şamilov “Zəngilanın azad olunmasına görə” medalı ilə təltif edilib.

# İsgəndər Rəsul oğlu Əsədov

**“Xocavəndin azad olunmasına görə”** medalı

**“Füzulinin azad olunmasına görə”** medalı

# *Düşməni ot kimi biçən pulemyotçu*

"2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin növbəti təxribatından sonra Azərbaycanın səbir kasası daşdı, Ali Baş Komandanımızın əmri ilə Ordumuz əks-hücum əməliyyatına başladı. Və cəmi 44 gün davam edən Vətən müharibəsində rəşadətli Silahlı Qüvvələrimiz torpaqlarımızın işğalına birdəfəlik son qoymaqla ölkəmizin ərazi bütövlüyünü bərpa etdi."

Bu, rəşadətli Azərbaycan Ordusunun Zəfər yürüşünün ilk günündən sıralarında olan bir gəncin – ASCO-nun "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunun Takelaj sahəsinin gəmi takelajçısı İskəndər Əsədovun fikridir.

İsgəndər Rəsul oğlu Əsədov 1993-cü il dekabrın 23-də Ağsu şəhərində doğulub.

2000–2011-ci illərdə Ağsu şəhərində Soltan Umbayev adına 2 nömrəli tam orta məktəbdə təhsil alıb.

2011-ci ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə daxil olub və 2015-ci ildə bu təhsil ocağını "Beynəlxalq münasibətlər" ixtisası üzrə bitirib.

2015–2016-cı illərdə Ordu sıralarında müddətli həqiqi hərbi xidmət keçib.

2018-ci ildən Türkiyənin Karabük şəhərində Karabük Universitetində magistr təhsili alıb.

Vətən müharibəsinin ilk günündən döyüşlərə atılıb. Pulemyotçu kimi ilk dəfə düşmənlə Xocavənd rayonunda üz-üzə gəlib.

Füzuli və Xocavənd rayonlarının işğaldan azad olunması uğrunda gedən döyüşlərədə igidlik və şücaət göstərib.

– Müharibə itkisiz olmur, – deyir İsgəndər Əsədov. – Ordumuz nə qədər güclü olsa da, təəssüf ki, biz də itkisiz keçinə bilmədik. Amma, həlak olan hər bir əsgərimizin intiqamını döyüşlərdə işğalçılardan artıqlaması ilə alırdıq.

Düşməni ot kimi biçən igid pulemyotçu Qələbə xəbərini Xocavənddə eşidib.

Atası Rəsul kişi maşın ustası, anası Kübrə xanım evdar qadındır. İki bacısı var: Sevinc və Gülər. İsgəndər ailənin sonbeşiyidir.

İsgəndər Əsədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

# İsmayıl Vüqar oğlu Məmmədli

**“Suqovuşanın azad olunmasına görə”** medalı

# *“Bütün dünya bilirdi ki, Azərbaycan xalqı gec-tez öz cənnət məkanını geri qaytaracaq”*

“Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin həyata keçirdiyi davamlı ordu quruculuğu və qətiyyətli siyasət nəticəsində dünyanın ən güclü ordusundan birinə çevrilən Azərbaycan Silahlı Qüvvələrinin döyüş taktikası, əsgər və zabitlərimizin göstərdikləri şücaət dünya hərb tarixində yeni səhifə açdı. Təsadüfi deyil ki, işğal altında olan torpaqlarımızın azad edilməsi uğrunda Ordumuzun həyata keçirdiyi döyüş əməliyyatları bu gün dünyanın hərbi mərkəz və məktəblərində dərindən araşdırılır və öyrənilir.”

Bu sözləri Vətən müharibəsinin igidlərindən olan İsmayıl Məmmədli söyləyib.

İsmayıl Vüqar oğlu Məmmədli 1999-cu il martın 29-da Bakı şəhərinin Lökbatan qəsəbəsində doğulub.

2006–2015-ci illərdə Neftçi Qurban adına 288 saylı tam orta məktəbdə təhsil alıb.

2015–2019-cu illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecində “Gəmi energetik qurğularının istismarı” ixtisasına yiyələnib.

2019-cu ilin iyulunda müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına yollanıb.

Sürücü əsgər kimi Suqovuşanın azadlığı uğrunda döyüşlərdə iştirak edib.

– Bütün dünya bilirdi ki, Azərbaycan xalqı torpaqlarının bir qarışından belə keçən deyil, gec-tez cənnət məkanı geri qaytaracaq, – deyir İsmayıl Məmmədli. – Müdrik xalqımız da Prezident İlham Əliyevin həyata keçirdiyi “Güclü dövlət, güclü ordu!” strategiyasının torpaqlarımızın işğaldan azad olması ilə nəticələnəcəyini yaxşı bilirdi. Sadəcə, Ordumuzun Zəfər yürüşünə çıxacağı dəqiq vaxt bəlli deyildi. 2020-ci il sentyabrın 27-də düşmənin növbəti təxribatı ilə Vətən müharibəsi başladı və 44 gün sonra Qələbəmizlə bitdi. Biz ərazi bütövlüyümüzü bərpa etdik. Burnu ovulan işğalçıya isə darmadağın edilən ordusunu ayağa qaldırmaq üçün on illər lazım gələcək.

2021-ci ilin iyulunda tərxis olunub.

Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında igidlik və şücaət nümayiş etdirən Hüseynağa Əsgərov Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə “Suqovuşanın azad olunmasına görə” medalı ilə təltif edilib.

# İsmayıl Teyyub oğlu Eyyublu

**“Cəbrayılın azad olunmasına görə”** medalı

**“Füzulinin azad olunmasına görə”** medalı




**“Şuşanın azad olunmasına görə”** medalı

# *“Müharibədə həm də doğmaların üçün nə qədər əziz olduğunu anlayırsan”*

İsmayıl Teyyub oglu Eyyublu 1999-cu il noyabrın 1-də Ucar rayonunun Ramal kəndində doğulub və torpaqlarımızın işğaldan azad olunması arzusu ilə böyüyüb.

Kənddə Yaqub Məmmədov adına ümumi orta məktəbi bitirdikdən sonra 2015-ci ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecinə daxil olub və 2019-cu ilədək “Gəmi sürücülüyü” ixtisasına yiyələnib.

2019-cu ilin iyunundan 2021-ci ilin iyununadək Ordu sıralarında xidmət edib.

Vətən müharibəsi həqiqi hərbi xidmət dövrünə təsadüf etdiyindən ilk gündən sinəsini düşmənə sipər edib. Əsl müharibənin nə demək olduğunu da elə ilk savaşında anlayıb. Füzulidən başlanan döyüş yolu işğal altında olan əksər rayonlarımızdan keçib və noyabrın 9-da Şuşada başa çatıb.

Cəbrayılda düşmən artilleriyasının mərmisi yaxınlığında partlayıb və sağ qulağının pərdəsi deşilib.

– Düşmən zəif deyildi, – deyir İsmayıl Eyyublu. – Sadəcə, biz düşməndən hər cəhətdən xeyli üstün olduğumuz üçün Qələbəmiz belə möhtəşəm alındı. Ordumuz sürətli əks-hücumları ilə qısa vaxtda yağını elə ağır itkilərə məruz qoydu ki... o da daha böyük itkilərindən qaçmaq üçün yalvar-yaxara başladı. Təkcə düşmən deyil, havadarları da müharibənin ilk günlərindən başa düşdülər ki, Azərbaycan işğal altındakı bütün torpaqlarını Ordusunun gücü ilə azad etməyə, ərazi bütövlüyünü tam bərpa etməyə qadirdir və bu məsələdə ona heç kim mane ola bilməz.

Cəbhədə daha çox ailəsi barədə düşünüb.

Qələbə xəbərini Laçın dəhlizində gecə növbəsində olarkən eşidib.

İsmayıl deyir ki, müharibədə həm də doğmaların üçün nə qədər əziz olduğunu anlayırsan, onların sevgisinin sonsuzluğunu dərk edirsən, bu, adamı ailəsinə daha sıx tellərlə bağlayır.

İgid gəncin sinəsini “Cəbrayılın azad olunmasına görə”, “Füzulinin azad olunmasına görə” və “Şuşanın azad olunmasına görə” medalları bəzəyir.



# Kamran Akif oğlu Tağıyev

**“Suqovuşanın azad olunmasına görə”** medalı

# *"Qələbə sevincini heç bir sevinclə müqayisə etmək mümkün deyil"*

"Vətən müharibəsində qazanılan parlaq Qələbə hər birimizdə sonsuz qürur doğurur. Sirr deyil ki, müharibədən əvvəl hərbi sahədə aparılan uğurlu islahatlar Qələbəyə gedən yolumuzu xeyli qısaltdı. Torpaqlarımızı işğal altında saxlayan Ermənistan hərbi potensial baxımından ölkəmizlə rəqabət aparmaq gücündə olmasa da, himayədarlarına arxayın idi. Amma, Ordumuz da Birinci Qarabağ savaşındakı silah-sursata kəskin ehtiyacı olan ordu deyildi axı. Təkcə Vətən müharibəsindən əvvəl ölkəmizdə mindən çox adda hərbi təyinatlı silah-sursat istehsal olunurdu."

Bu sözlər Vətən müharibəsinin iştirakçısı Kamran Tağıyevə məxsusdur.

Kamran Akif oğlu Tağıyev 2000-ci il martın 22-də Salyan şəhərində dünyaya göz açıb.

Salyan şəhərində Aşıq Pənah adına 1 saylı orta məktəbdə və Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecində təhsil alıb.

2019-cu ilin iyulunda müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına yollanıb.

Vətən müharibəsi başlayanda hərbi xidmətdə olub. İlk döyüşə Tərtərin Çaylı kəndi istiqamətindən atılıb. Əsgər kimi Talış, Suqovuşan uğrunda gedən döyüşlərdə iştirak edib və igidlik göstərib.

– Azərbaycan iyirmi birinci əsrdə Zəfər paradı keçirən ilk ölkə kimi tarixə düşdü, – deyir Kamran Tağıyev. – Şübhəsiz ki, Qələbə sevincini heç bir sevinclə müqayisə etmək mümkün deyil. Bu gün həm də Ordumuzun dünyanın ən güclü ordularından biri olduğuna sevinirik. Sevinirik ki, ərazi bütövlüyümüzü qorumağa qadir yenilməz Ordumuz var.

Valideynləri, iki bacısı Kamranla fəxr edirlər.

2021-ci ilin iyulunda tərxis olunub.

Kamran Tağıyevin sinəsini "Suqovuşanın azad olunmasına görə" medalı bəzəyir.

# Kənan Dadaş oğlu Zeynalov

**“Cəsur döyüşçü”** medalı

**“Cəbrayılın azad olunmasına görə”** medalı




**“Şuşanın azad olunmasına görə”** medalı

# *Qələbədən sonra həyata baxışı və həyatı dəyişən igid*

"Mənfur qonşularımızın gerçəkləşdirmək istədikləri "dənizdən dənizə böyük Ermənistan" planı 1 milyondan çox soydaşımızı məcburi köçkünə çevirmiş, 20 min azərbaycanlı hərbi əməliyyatlar dövründə həyatını itirmiş, 50 min nəfər əlil olmuş, iki min nəfərdən çox əsir və girov götürülmüş, 4 min nəfər itkin düşmüşdü. Dünyanın faciələrimizə və torpaqlarımızın beşdə birinin işğalına göz yumması yağını daha da şirniklendirirdi. Daha çox ərazimizi işğal etmək istəyirdi və bu xəbis niyyətini atəşkəsi tez-tez pozmaqla bir daha sübut edirdi. Sentyabrın 27-də növbəti təxribatı ona baha başa gəldi. Ali Baş Komandanımızın əks-hücum əmri ilə yenilməz Ordumuz torpaqlarımıza uzanan caynaqları birdəfəlik kəsməklə bərəbər, otuz il dil-dil ötənlərin dilini də tamam qısaltdı."

Bu fikri ixtisasca dənizçi olan və Vətən müharibəsində şərəfli döyüş yolu keçən Kənan Zeynalov söyləyib.

Kənan Dadaş oğlu Zeynalov 2000-ci il iyunun 1-də Neftçala şəhərində doğulub.

Elton Həbibov adına 4 saylı tam orta məktəbi bitirib.

2015-ci ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecinə daxil olub. 2019-cu ildə "Gəmi energetik qurğularının istismarı" ixtisası üzrə bitirib.

Vətən müharibəsində haqqında əfsanələr dolaşan Xüsusi Təyinatlı Qüvvələrin əsgəri kimi iştirak edib.

İlk dəfə yağı ilə Hadrutda üz-üzə gəlib. Düşmən sayca çox olsa da, onlara göz açmağa imkan verməyiblər. Füzuli, Tuğ, Şuşa, Kəlbəcər istiqamətlərində gedən döyüşlərdə də igidliyi ilə fərqlənib.

Qələbə sevincini Şuşada yaşayıb.

– Bu Qələbə təkcə yurd itkisi ilə bağlı ağrı-acılarımıza son qoymadı, – deyir Kənan Zeynalov. – Bu Qələbə ilə həm də Qarabağın Azərbaycanın bir hissəsi olduğunu təsdiqləyən, ərazilərimizin işğalını pisləyən, ölkəmizin suverenliyinə, ərazi bütövlüyünə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörməti ifadə edən, erməni işğalçı qüvvələrin bütün ərazilərimizdən dərhal, tam və qeyd-şərtsiz çıxmasını tələb edən BMT-nin Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 nömrəli qətnamələrin yerinə yetirilməsini təmin etdik.

Qələbədən sonra Kənanın özünün də həm həyatı, həm də həyata baxışları dəyişib.

Atası Dadaş müəllim memar, anası Gülmarə xanım evdar qadındır. Kənan ailənin sonbeşiyidir. Böyük qardaşı Fərid hərbiçi, digər qardaşı Röyal dizaynerdir.

Böyük Vətən eşqi ilə döyüş əməliyyatlarında şəxsi igidlik və şücaət nümayiş etdirmiş Kənan Zeynalov ölkə rəhbərini müvafiq sərəncamları ilə "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

# Mais Şakir oğlu Cəfərov

**“Cəbrayılın azad olunmasına görə”** medalı

**“Zəngilanın azad olunmasına görə”** medalı

# *“İşğalçı ordunun məğlubedilməzliyi barədə deyilənlər nağıl imiş”*

“Vətən müharibəsinin ilk günündən bəlli oldu ki, işğalçı ordunun məğlubedilməzliyi barədə deyilənlər nağıl imiş. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun həyata keçirdiyi “Dəmir yumruq” əməliyyatı zamanı düşmənin otuz il ərzində möhkəmləndirdiyi bütün müdafiə xətləri qısa müddətdə yarıldı, hərbi resursları məhv edildi. “Məğlubedilməzlər”in qoyub qaçdığı atıcı silahlar, ağır texnikalar, raket kompleksləri, hərbi maşınlar… yenilməz Ordumuz tərəfindən qənimət kimi götürüldü.”

Bu sözlər 44 gün davam edən Vətən müharibəsində rəşadətli Ordumuz möhtəşəm Qələbəsi ilə dünya hərb tarixinə yeni parlaq səhifələr yazanda sıralarında olan Mais Cəfərovun dilindən çıxıb.

Mais Şakir oğlu Cəfərov 1999-cu il aprelin 18-də Cəlilabad rayonunun Qarazəncir kəndində doğulub.

2005–2015-ci illərdə Şamil Nəzərov adına 1 saylı tam orta məktəbdə təhsil alıb.

2015-ci ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecinə daxil olub və 2019-cu ildə “Gəmi maşın və mexanizmlərinin quraşdırılması” ixtisası üzrə bitirib.

2019-cu ilin iyulunda müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına çağırılıb.

Vətən müharibəsi başlayanda hərbi xidmətdə olub. Əsgəri olduğu tabor oktyabrın əvvəllərində döyüşə qatılıb. Cəbrayıl və Zəngilan rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə fəal iştirak edib.

Ən çətin döyüşü noyabrın 8-nə təsadüf edib. Zəngilanın Ermənistanla sərhəddə yerləşən sonuncu yüksəkliyini geri almaq əmri verilib. Mais və silahdaşları həmin yüksəklikdə müstəqil Azərbaycanın üçrəngli bayrağını dalğalandırmağa nail olsalar da, bir-birindən igid üç əsgərimiz şəhidlik zirvəsinə ucalıb.

Cəbhədə ən çox ailəsi və Qələbə qazanmaq haqqında fikirləşib. Qələbə xəbərini Zəngilan rayonunun sonuncu yüksəkliyində eşidib.

– Silahlı Qüvvələrimizin kompleks inkişafı və modernləşdirilməsi ilə bağlı son illərdə dövlət başçımızın xüsusi diqqəti altında həyata keçirilən hərbi siyasətin səmərəliliyi döyüş meydanında bir daha təsdiq olundu, – deyir Mais Cəfərov. – İşğal altında olan torpaqlarımızı öz gücümüzlə qısa vaxtda geri qaytardıq. Qələbəmizlə başa çatan Vətən müharibəsi həm də milli birliyimizi gücləndirdi. Bu rəşadətli Ordunun da, bu birliyin də qədrini bilməliyik.

2021-ci ilin iyulunda tərxis olunub.

Ailədə dörd nəfərdirlər. Atası ilahiyyatçı, anası evdar xanımdır. Mais evin sonbeşiyidir. Bir qardaşı var.

“Cəbrayılın azad olunmasına görə” və “Zəngilanın azad olunmasına görə” medalları ilə təltif edilib.

# Mədət Pərviz oğlu Alıyev

**“Cəbrayılın azad olunmasına görə”** medalı

# *“Üçrəngli bayrağımızın işğaldan azad edilmiş torpaqlarımızda dalğalanmasından gözəl mənzərə yoxdur”*

“Otuz il dünya bizə qarşı yol verilən haqsızlığa, ədalətsizliyə və aşkar terror cinayətlərinə göz yumdu, susdu. Bu susqunluq əslində işğalçıya “Bacardığını et!” demək idi. İşğalçı da ərazilərimizin beşdə birində bacardığını etdi: həyasızcasına sərvətlərimizi taladı, yorulmadan dağıtdı...”

Ürəkağrıdan bu kəlmələr Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz Vətən müharibəsində otuz il davam edən haqsızlığa son qoyanda əlində silah olan Mədət Alıyevin dilində səslənib.

Mədət Pərviz oğlu Alıyev 2000-ci il iyunun 12-də Bakı şəhərində dünyaya göz açıb.

Əslən Qərbi Azərbaycanın Körpülü kəndindəndir.

2006–2015-ci illərdə 116 nömrəli tam orta məktəbdə, 2015–2019-cu illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecində təhsil alıb.

Mədət Alıyev 2013–2019-cu illərdə avarçəkmə ilə məşğul olub, idman ustalığına namizəddir, bir sıra beynəlxalq yarışlarda mükafata layiq yerlər tutub.

2019-cu ilin iyulunda müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına yollanıb.

Mədət Vətən müharibəsi başlayanda Orduda xidmət etməsinə çox sevinib. Bu, ilk gündən döyüşlərə atılmaq imkanı verib. Əsgər kimi Füzulinin, Cəbrayılın, Hadrutun işğaldan azad olunmasında iştirak edib.

Qələbənin belə möhtəşəm alınmasının başlıca səbəbini müstəqil Azərbaycanın və onun rəşadətli Ordusunun çox güclü olması ilə izah edir.

– Tariximizə qızıl hərflərlə yazılan bu parlaq Qələbə ilk növbədə dövlətimizin gücünün, Ordumuzun məğlubedilməzliyinin təsdiqi idi, – deyir Mədət Alıyev. – Qələbə sevincini Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrik siyasəti, xalqımızın vətən yolunda bir yumruq kimi birləşməsi sayəsində yaşadıq. Otuz il yurd həsrəti çəkənlər üçün üçrəngli bayrağımızın işğaldan azad edilmiş torpaqlarımızda dalğalanması mənzərəsindən gözəl nə ola bilər? Heç nə!

Atası Pərviz kişi sürücü işləyir və süfrəsində həmişə halal çörək olub. Anası evdar qadındır. Mədətin sahibkarlıq fəaliyyəti ilə məşğul olan bir qardaşı və bir məktəbli bacısı var.

Mədət Alıyev 2021-ci ilin iyununda tərxis olunub.

“Cəbrayılın azad olunmasına görə” medalı ilə təltif edilib.

# Məhəmməd Elman oğlu Hüseynov

**“Qubadlının azad olunmasına görə”** medalı

# *“Zəfər asan əldə edilməyib”*

Məhəmməd Elman oğlu Hüseynov 1994-cü il oktyabrın 9-da Ucar rayonunun Təzə Şilyan kəndində dünyaya göz açıb.

2001–2011-ci illərdə Bakı şəhəri Xətai rayonundakı Zakir Yusifov adına 194 saylı orta məktəbdə, 2011-2012-ci illərdə Səbail rayonundakı 236 nomrəli orta məktəbdə təhsil alıb.

2012-ci ildə Odlar Yurdu Universitetinin "Maliyyə" fakültəsinə daxil olub, 2016-cı ildə təhsil haqqını ödəyə bilmədiyi üçün təhsilini yarımçıq qoymağa məcbur olub.

2017-ci il aprelin 24-də müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına yollanıb. 2018-ci il oktyabrın 5-də ehtiyata buraxılıb.

Vətən müharibəsi başlayanda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Ucar rayon şöbəsinin çağırışı əsasında sentyabrın 29-da ön cəbhəyə yollanıb.

Ağır artilleriya divizionunda xidmət edib. Özü demişkən, düşmənlə yaxın təmasda az olsalar da, onlara ağır artilleriya zərbələri ilə az qan uddurmayıblar. Cəbrayılda da, Qubadlıda da düşməni yaşayış məskənlərimizə soxulmalarına görə peşman ediblər.

Qubadlının işgaldan azad olunmasından sonra rayonun müdafiə və mühafizəsi xidmət etdiyi hərbi hissəyə tapşırılır. Bu tapşırığı yerinə yetirmək asan olmayıb. Məkrli düşmən Qubadlını geri qaytarmaq üçün dəfələrlə cəhd göstərib. Hər dəfə də igidlərimiz düşmənin burnunu əməlli-başlı ovublar.

Qələbə xəbərini Qubadlının Xınalıq kəndində gecə eşidib. Səhərə kimi gözlərinə yuxu getməyib.

2021-ci il yanvarın 2-də Ordudan tərxis olunub.

– Bu gün qalib ölkədə yaşamağımız hər birimizi hədsiz qürurlandırır, – deyir Məhəmməd Hüseynov. – Amma bir həqiqəti heç vaxt unutmamalıyıq: Zəfər asan əldə edilməyib. Bu tarixi Qələbə Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəlik məharəti və ərazi bütövlüyümüz üçün canından və qanından keçən əsgər və zabitlərimizin rəşadəti hesabına qazanıldı.

2022-ci ilin avqustundan ASCO-nun Xəzər Dəniz Neft Donanmasının Təchizat Xidmətinin anbarında takelajçı işləyir.

Müharibə iştirakçısı kimi gördüyü diqqət və qayğıdan razılıq edir  və bu diqqətin ona qol-qanad verdiyini söyləyir.

Atası Elman Hüseynov “Bakı Gəmiqayırma Zavodu” MMC-də körpülü kran operatoru işləyir. Anası Əfiqə xanım evdar qadındır. Səidə adında bir bacısı var. İki uşağın dayısıdır Məhəmməd.

Məhəmməd Hüseynovun torpaqlarımızın işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında nümayiş etdirdiyi şəxsi igidlik və şücaət Azərbaycan Respublikasının Prezidenti tərəfindən “Qubadlının azad olunmasına görə” medalı ilə qiymətləndirilib.

# Murad Rəşad oğlu Musayev

**“Cəbrayılın azad olunmasına görə”** medalı

**“Qubadlının azad olunmasına görə”** medalı

# *Vətən üçün böyüdülən oğul*

Murad Rəşad oğlu Musayev 2000-ci il martın 28-də Neftçala rayonunun Sahil kəndində dünyaya göz açıb.

2006-cı ildə 4 saylı tam orta məktəbin birinci sinfinə daxil olub  və 2015-ci ildə doqquzuncu sinfini bitirib.

"Gəmi maşın və mexanizmlərinin quraşdırılması və onlara texniki xidmət" ixtisasına yiyələnmək arzusu onu 2015-ci ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecinə gətirib çıxarıb. 2019-cu ilədək burada təhsil alıb.

2019-cu ilin iyulunda Vətən qarşısında övladlıq borcunu yerinə yetirmək üçün Ordu sıralarına yollanıb. Vətən müharibəsi başlayanda  müddətli həqiqi hərbi xidmətdə olub. Rabitəçi əsgər kimi sentyabrın 27-də başlayan döyüş yolu Cəbrayıl, Zəngilan və Qubadlıdan keçib.

Müharibədə ilk növbədə torpaqlarımızı yağı tapdağından azad etmək barədə düşünüb və bunun üçün hər bir fədakarlığa hazır olub.

– Azərbaycanın haqq savaşında qazandığı Zəfər hesabına otuz il yağı tapdağı altında olan Qarabağ torpağı yenidən əsl sahibinə qayıtdı, – deyir Murad Musayev. – Qəhrəman hərbçilərimizin şücaəti ilə ilahi ədalət bərpa olundu. İşğalçıların kapitulyasiya sənədini imzalaması  "Ermənistanın güclü ordusu və ermənilərin döyüşkən olması" barədə yayılan nağıllara da birdəfəlik son qoydu.

Qələbə xəbərini Qubadlıda postda olanda eşidib.

Evin sonbeşiyidir. Özündən böyük bir qardaşı var. Atası torpağa bağlı adamdır, kənd təsərrüfatı işləri ilə məşğul olur. Vətənin ərazi bütövlüyü söhbəti gələndə bu ailədə fikir ayrılığı olmur. Elə buna görə İkinci Qarabağ savaşı başlayanda Murad döyüşdə olsa da, böyük qardaşını da cəbhəyə yola salıblar. Belə cəsur, igid oğullar böyüdüb Rəşad kişi!

Qardaşlar Vətənin onlara ehtiyacı olduğu istənilən vaxt silaha sarılmağa hazırdırlar.

Murad Musayev 2021-ci ilin iyulunda tərxis olunub.

İgid gənc "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.

# Mürsəl Kamil oğlu Əliyev

**“Füzulinin azad olunmasına görə”** medalı

**“Xocavəndin azad olunmasına görə”** medalı

**“Hərbi xidmətlərə görə”** medalı

# *Xəsarət alanda da əlini tətikdən çəkməyən igid*

"Keçən əsrin sonlarında ərazilərimizin beşdə birini işğal etməklə kifayətlənməyən Ermənistan məkrli siyasətini davam etdirir, mütəmadi olaraq təxribatlar törədir, təmas xətti boyunca yaşayan dinc əhalimizə ən adi gündəlik qayğıları ilə məşğul olmağa belə imkan vermirdi. Torpaqlarımız hesabına ərazilərini genişləndirmək istəyən ermənilər heç vaxt yaxşı qonşu olmadıqları kimi, düşmən kimi də düşmənlərin ən yaramazı olublar. Buna görə, sentyabrın 27-də işğalçıların növbəti hərbi təxribatını dəf etmək və təcavüzünə son qoymaq məqsədilə Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin bütün cəbhə boyu əks-hücuma keçmək əmrini xalqımız ürəkdən dəstəklədi. 44 gün davam edən Vətən müharibəsində yenilməz Ordumuz Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə ölkəmizin ərazi bütövlüyü ilə birlikdə tarixi ədaləti də bərpa etdi."

Bu fikir həmin günlərdə işğalçı orduya sarsıdıcı zərbələrin vurulmasında yaxından iştirak edən və hazırda ASCO-nun "Bibiheybət" Gəmi Təmiri Zavodunda gəmi təmiri çilingəri işləyən Mürsəl Əliyevə məxsusdur.

Mürsəl Kamil oğlu Əliyev 1999-cu il noyabrın 28-də Cəlilabad rayonunun Sabirabad kəndində dünyaya göz açıb.

2006–2015-ci illərdə kənddə Həmid Tağıyev adına 2 saylı orta məktəbdə təhsil alıb.

2015-ci ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecinə daxil olub.

2019-cu ildə kolleci bitirdikdən sonra müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına çağırılıb. Vətən müharibəsi başlayanda xidmət etdiyindən ilk gündən sıravi əsgər kimi döyüşlərə atılıb. Füzuli rayonu uğrunda gedən döyüşlərin asan keçmədiyini söyləsə də, təvazökarlıqdan bu əzəli torpağımızda düşmənə qan udduran igidlərimizdən biri olduğunu dilə gətirmir. Xocavənd rayonundakı yaşayış məskənlərimiz işğalçılardan azad ediləndə də eyni cəsarətlə vuruşub. Xəsarət alanda da əlini tətikdən çəkməyib...

Ailənin sonbeşiyi, dörd bacının bir qardaşıdır Mürsəl.

2021-ci ildə Ordu sıralarından tərxis olunub.

İgid gəncin sinəsini "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medalları bəzəyir.

# Mürsəl Emin oğlu Mürsəlov

**“Cəbrayılın azad olunmasına görə”** medalı

**“Qubadlının azad olunmasına görə”** medalı

# *Azərbaycan əsgəri düşməndən dəfələrlə güclü olduqlarına da, ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəklərinə də əmin idi*

"Ordubad" gəmisinin motorçusu Mürsəl Emin oğlu Mürsəlov 1994-cü il oktyabrın 5-də Astara rayonunun Şahağac kəndində dünyaya göz açıb.

2001–2012-ci illərdə kənddə Rauf Mirzəyev adına 1 saylı tam orta məktəbdə təhsil alıb.

2018-ci ilin yanvarından 2019-cu ilin iyulunadək Ordu sıralarında müddətli həqiqi hərbi xidmət keçib.

2019-cu ilin iyulundan "Kainat" Tədris Mərkəzində "Motorçu" ixtisasına yiyələnib.

2020-ci il sentyabrın 21-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin çağırışı əsasında təlimlərə cəlb edilib. Bir həftə sonra Vətən müharibəsi başlayıb.

Əsgər kimi Qubadlı və Cəbrayıl rayonlarının azad olunması uğrunda gedən döyüşlərdə fəal iştirak edib. Deyir ki, düşmən işğal etdiyi torpaqlarımızdan burnu ovula-ovula geri çəkilib. Bu baxımdan heç bir döyüş asan keçməyib. Və Qələbə vətənpərvər zabit və əsgərlərimizin cəsarəti və şücaəti sayəsində qazanılıb.

– Rəşadətli Azərbaycan Ordusunun qarşısında tab gətirməyən işğalçı ölkənin silahlı qüvvələri ağır məğlubiyyətlərinin acısını dinc əhalidən çıxmağa çalışırdılar, – deyir Mürsəl Mürsəlov. – Döyüş meydanından xeyli uzaqda yerləşən şəhər və rayonlarımızı qadağan olunmuş silah və ballistik raketlərlə atəşə tutmaqla müharibə cinayətləri törədirdilər. Haqq savaşı aparan Azərbaycan əsgəri isə düşməndən dəfələrlə güclü olduqlarını bilirdi, ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəklərinə inanırdı, bu inamla döyüşlərə atılırdı, bu inam da Qələbəni təmin etdi.

Vətən müharibəsində uzun illər yağı tapdağı altında qalan torpaqlarımızın mümkün olduğu qədər tez azad olunması barədə düşünüb və bu istəklə döyüşlərə atılıb. Qələbə xəbərini də növbəti döyüşə hazırlaşarkən eşidib.

Ailədə 5 nəfərdirlər. İki böyük qardaşı var. Mürsəl deyir ki, Vətən müharibəsi günlərində təkcə qardaşları deyil, hətta atası da hər an əlinə silah almağa hazır olub.

Mürsəl Mürsəlov 2020-ci il dekabrın 31-də tərxis olunub. Vətən müharibəsindən sonra ASCO-nun kollektivinə qoşulub: Dəniz Nəqliyyatı Donanmasına məxsus "Ordubad" gəmisində motorçu işləyir.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.

# Namiq Natiq oğlu Şahlıyev

**“Laçının azad olunmasına görə”** medalı

# *Vətənin keşiyində durmağa həmişə hazırdır*

Vətən müharibəsinin iştirakçısı olan Dəniz Nəqliyyatı Donanmasının SƏTƏMM şöbəsinin əməkdaşı Namiq Şahlıyevin fikrincə, Qələbəmizlə bitən İkinci Qarabağ savaşı olmaya da bilərdi. Əgər Ermənistan silahlı birləşmələrini özü və qeyd-şərtsiz işğal etdiyi ərazilərimizdən çıxarsaydı. Və ya dünyada güc və söz sahibi olan ölkələr qəsbkarı düz yola çəksəydilər. Bunların heç işartıları da hiss olunmadığı üçün sonda işğalçılar da, havadarları da onlar üçün ağrılı vəziyyətlə üzləşdilər. Rəşadətli Ordumuzun sarsıdıcı zərbələrindən Ermənistan 44 günə diz üstə çökdü.

Düz sözə nə deyəsən!

Namiq Natiq oğlu Şahlıyev 1998-ci il avqustun 3-də Bakı şəhərində dünyaya göz açıb.

2004–2013-cü illərdə Lökbatan qəsəbəsində Səxavət Məhərrəmov adına 106 saylı orta məktəbdə təhsil alıb. 2013–2017-ci illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecində "Ətraf mühitin qorunması və təbii ehtiyatlardan səmərəli istifadə" ixtisasına yiyələnib.

2017–2019-cu illərdə Ordu sıralarında müddətli həqiqi hərbi xidmət keçib.

Tərxis olunduqdan sonra "FAB Boya və Kimya Sənayesi" MMC-də satış məsləhətçisi işləyib.

2020-ci ilin iyulunda Tovuz hadisələri zamanı Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinə ərizə ilə müraciət edərək könüllü hərbi xidmət etmək istədiyini bildirib. Vətən müharibəsi başlayandan iki gün sonra isə artıq ön cəbhədə olub.

Əsgər kimi Cəbrayıl, Hadrut, Füzuli, Şuşa uğrunda gedən döyüşlərdə fəal iştirak edib.

Nə Tuğ, nə Çanaqçı, nə Sığnaq kəndi, nə Ərgünəş zirvəsi... uğrunda döyüşlər asan keçib. Şiştəpəyədək əsasən uzaq məsafəli döyüşlər getsə də, ilk dəfə məhz bu ərazidə mühasirəyə düşüblər. Amma ən çətin döyüşləri Ərgünəş zirvəsində olub. Bir-birindən cəsur neçə əsgər şəhid veriblər. Günlərlə ac və susuz qalsalar da, böyük strateji əhəmiyyəti olan zirvədən düşmənin təminat və təchizatının qarşısını ala biliblər.

Qələbə sevincini Şuşa meşələrində yaşayıb. Qələbəyə ədalətin zəfər çalması kimi baxır. Bu haqq savaşında Allahın da bizimlə olduğunu düşünür.

Torpaqlarımızın işğaldan azad edilməsində əməyinin olması ilə fəxr edir.

Atası Natiq Şahlıyevin də, anası Elnarə xanımın da, qardaşları – tələbə Nicatın, məktəbli Hüseynin də Vətən müharibəsi günlərində səhərləri dirigözlü açdıqlarını yaxşı bilsə də, Qələbədən sonra da Vətənin keşiyində durmağa həmişə hazır olduğunu deyir.

Namiq Şahlıyev 2021-ci ildən taleyini ASCO ilə bağlayıb. Dəniz Nəqliyyatı Donanması İdarəsinin Əməyin mühafizəsi, təhlükəsizlik texnikası və ekologiya şöbəsində assistent kimi çalışır.

İgid döyüşçünün sinəsini "Laçının azad olunmasına görə" medalı bəzəyir.

# Nihad Mirzəmməd oğlu Əhədzadə

**“Suqovuşanın azad olunmasına görə”** medalı

# *Qələbə Ordumuza göstərilən qayğının bəhrəsi idi*

"Vətən müharibəsində Ali Baş Komandanımızın rəhbərliyi ilə rəşadətli Ordumuz görünməmiş döyüş taktikası ilə təkcə işğalçıları və onların himayədarlarını peşman etmədi. Hərbdən başı çıxanlar ərazi bütövlüyümüzü qısa müddətdə təmin edən Ordumuzun möhtəşəm döyüş taktikası haqqında bundan sonra da çox danışacaq, çox yazacaqlar. Doğrudan da xalqımıza layiq – möhtəşəm Qələbə idi."

Bu sözlər parlaq Qələbənin qazanılmasında payı olan Nihad Əhədzadəyə məxsusdur.

Nihad Mirzəmməd oğlu Əhədzadə 1998-ci il fevralın 27-də Bakının Binə qəsəbəsində dünyaya göz açıb.

2005–2014-cü illərdə Süleyman Rüstəm adına Xarici dillər təmayüllü gimnaziyada, 2015–2019-cu illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecində təhsil alıb.

2019-cu ilin iyulunda müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına yollanıb.

Vətən müharibəsi vaxtı hərbi xidmətdə olub. Tərtər–Ağdərə istiqamətində gedən döyüşlərdə atıcı-nizamlayıcı əsgər kimi iştirak edib. Düşmənlə ilk dəfə Suqovuşan istiqamətində üz-üzə gəlib. İlk atışlar artilleriya zərbələri ilə başlayıb.

Ağdərə istiqamətində "N"-ci yüksəklik uğrunda döyüş də asan keçməyib.

Qələbəmizə, qisasımızın qiyamətə qalmayacağına inanıb və bu inamla da döyüşlərə atılıb. Qələbədən sonra ən böyük arzusu uzun illər ata-baba ocağından didərgin düşənləri tezliklə doğma yurdunda yenidən xoşbəxt yaşadıqlarını görməkdir.

– Vətən müharibəsi ölkəmizdə dövlət və xalq arasında birliyin möhkəmliyini, sarsılmazlığını sübut etdi, – deyir Nihad Əhədzadə. – Prezident, Ali Baş Komandan İlham Əliyevin ətrafında yumruq kimi birləşən xalqımız və Ordumuz məkrli düşmənin başını əzərək onu kapitulyasiyaya vadar etdi. Ordumuza göstərilən qayğı bəhrəsini verməli idi. Verdi də!

Nihad Əhədzadə 2021-ci ilin iyulunda tərxis olunub.

Atası Mirzəmməd kişi 2011-ci ilin aprelində haqq dünyasına qovuşub. Sağ olsaydı, yəqin ki, cəsur oğlu ilə ən çox o, fəxr edərdi. Anası Zəhra xanım evdar qadındır. Böyük qardaşı Nicat sürücü işləyir.

Nihad Əhədzadə "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.

# Nurlan Samir oğlu Həsənov

**“Cəsur döyüşçü”** medalı

**“Suqovuşanın azad olunmasına görə”** medalı

# *“Mərmilərin partladığını görsəm də, səsini eşitmirdim”*

Nurlan Samir oğlu Həsənov 2000-ci il sentyabrın 4-də Ağstafa rayonunun Xətai kəndində doğulub.

2021-ci ilin noyabrından ASCO-nun “Zığ” Gəmi Təmiri və Tikintisi Zavodunda gəmi təmiri çilingəri işləyir.

Ağstafa rayonunda Elçin Mustafayev adına Yenigün kənd tam orta məktəbini bitirib.

2015–2019-cu illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecində “Gəmi maşın və mexanizmlərinin quraşdırılması və onlara texniki xidmət” ixtisasına yiyələnib.

2019-cu ildə müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına yollanıb.

Əsgər kimi döyüşüb. Ən çətin döyüşü “N” saylı yüksəklik uğrunda olub. Baş leytenant Murad İbadov, əsgər yoldaşları Səddam Bayramov və Ziya Gözəlov kimi igidlərin şəhadətə yüksəldiyi döyüşdə özü də yaralanıb...

– Mərmilər başımıza yağış kimi yağırdı, – deyir  Nurlan Həsənov. – İrəliyə can atırdım və nə vaxt yaralandığımı hiss etmədim. Manqa komandirim dedi ki, ayağından qan axır. Ağrı hiss etmədiyim üçün əhəmiyyət vermədim, düşündüm ki, yəqin daş sivirib. Düşmən postunun qarşısında yanımıza mərmilər düşdü. Bir müddət özümdə olmadım. Sonra mərmilərin yerə düşüb partladığını görsəm də, səsini eşitmirdim. Üst-başım qan içində idi. Məni döyüş meydanından bir MAXE çıxartdı və bir müddət xəstəxanada yatdım. Şükür Yaradana ki, xalqımız Qələbə sevincini yaşadı. Bu misilsiz Qələbənin memarı Müzəffər Ali Baş Komandanımız idi. Qüdrətli Azərbaycan Ordusu cənab İlham Əliyevin rəhbərliyi ilə ərazi bütövlüyümüzlə birlikdə tarixi ədaləti də bərpa etdi.

Cəbhədə ən çox ailəsi barədə fikirləşib. Atası 2015-ci ildə haqq dünyasına qovuşub. Ailənin böyük övladıdır. Bir qardaşı var.  Döyüşdüyündən yaralananda xəbər tutublar. Evdar qadın olan anası Səməngül xanım deyib ki, hər oğul Vətənə borcunu yerinə yetirməlidir. Təsadüfi deyil ki, özündən kiçik qardaşı Ruslan da yaşı çatan kimi borcunu qaytarmaq üçün Ordu sıralarına yola düşüb.

2021-ci ilin iyulunda tərxis olunub.

Ərazilərimizin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirmiş, düşmənin əsas qruplaşmalarını və texnikasını məhv etməklə qoşunlarımızın döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqlənmiş Nurlan Həsənov Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə “Cəsur döyüşçü”, “Suqovuşanın azad olunmasına görə” medalları ilə təltif edilib.

# Pərvin Əyyar oğlu Bəhrəmli

**“Xocavəndin azad olunmasına görə”** medalı

**“Füzulinin azad olunmasına görə”** medalı

**“Vətən müharibəsi iştirakçısı”** medalı

# *“Yenilməz Ordumuz barışığa gəlməyənləri ayağımıza gətirdi”*

“Xalqımız rəşadətli Azərbaycan Ordusundan, onun qəhrəman əsgər və zabitlərindən Qələbə gözləyirdi. Uşaqdan böyüyədək hamı Qələbənin təşnəsi idi. Gözləməyə haqqı vardı. Sevinirəm ki, Vətən müharibəsində əldə edilən Zəfər əsrlər sonra da Azərbaycanın möhtəşəm uğuru kimi xatırlanacaq, gələcək nəsillər xalqımızın çətin sınaqdan şərəflə çıxmasından qürur hissi keçirəcəklər.”

Bu, Xəzər Dəniz Neft Donanmasına məxsus “Şahdağ” təchizat və yedək gəmisinin motorçusu Pərvin Bəhrəmlinin fikridir.

Pərvin Əyyar oglu Bəhrəmli 1994-cü il iyulun 4-də Biləsuvar rayonunun Ağalıkənd kəndində doğulub.

2001–2011-ci illərdə kənd tam orta məktəbində təhsil alıb.

2012-ci ilin iyulundan 2014-cü ilin yanvarınadək Ordu sıralarında müddətli həqiqi hərbi xidmətdə olub.

Dənizçi olmaq, sular qoynunda səfərlərə çıxmaq istəyi Pərvini 2017-ci ildə “Kainat” Tədris Mərkəzinə gətirib. Bu təhsil ocağında motorçu peşəsinin sirlərinə yiyələnib.

2020-ci il sentyabrın 21-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin çağırışı əsasında təlimlərə cəlb edilib. Bir həftə sonra Vətən müharibəsi başlayıb və Pərvin də xalqımıza Qələbə sevinci yaşatmaq istəyən qəhrəman əsgər və zabitlərimizlə çiyin-çiyinə verib.

Füzuli, Xocavənd rayonlarının işğal altında olan şəhər və kəndlərinin azad olunması uğrunda gedən döyüşlərdə müharibənin bütün od-alovundan keçib, amma heç bir çətinlik Qələbəyə inamını zərrəcə sarsıda bilməyib. Hər növbəti döyüşə Qələbəyə gedən yolu qısaltmaq istəyi ilə atılıb.

–Vasitəçilərin ikili oyunları, nəticəsiz danışıqlarla bağlı yaranmış vəziyyət işğalçını qane etdiyi üçün torpaqlarımızdan öz xoşu ilə çıxmaq fikri yox idi, – deyir Pərvin Bəhrəmli. – Təbii ki, Azərbaycan vəziyyətin bu cür davam etməsi ilə barışa bilməzdi. Buna görə, barışığa gəlməyənləri yenilməz Silahlı Qüvvələrinin gücü hesabına ayağına gətirdi.

Hazırda təqaüddə olan atası Əyyar kişi Daxili işlər orqanlarında işləyib, anası Sadəgül xanım evdar qadındır. İki bacısı var. Aysel ondan böyük, tələbə Aysun isə kiçikdir.

İgid dənizçi Pərvin Bəhrəmli “Xocavəndin azad olunmasına görə”, “Füzulinin azad olunmasına görə” və “Vətən müharibəsi iştirakçısı” medalları ilə təltif edilib.

# Pərviz Gülməmməd oğlu Babayev

**“Cəbrayılın azad olunmasına görə”** medalı

**“Füzulinin azad olunmasına görə”** medalı

**“Şuşanın azad olunmasına görə”** medalı

# *Ön cəbhədə olduğunu Qələbə gününədək bütün doğmalarından gizlədib*

"2020-ci ildə Ermənistanın ard-arda törətdiyi hərbi təxribatları və bu təxribatlar nəticəsində hərbçilərimizin şəhid olması, mülki şəxslərin qətlə yetirilməsi Vətən müharibəsini qaçılmaz edirdi. Sentyabrın 27-də işğalçının növbəti təxribatına əks-hücum əməliyyatları ilə cavab verməyə məcbur olan rəşadətli Ordumuz Azərbaycan xalqının döyüşə bilmədiyini düşünənləri qoyun sürüsü kimi qabağına qatdı... və torpaqlarımızın işğalına birdəfəlik son qoydu."

Bu sözlər həmin günlərdə Zəfər dastanı yazanların arasında olan Pərviz Babayevin dilindən çıxıb.

Pərviz Gülməmməd oğlu Babayev 1999-cu il mayın 30-da Salyan şəhərində doğulub.

2006–2015-ci illərdə şəhərdəki Əliağa Kürçaylı adına 7 saylı tam orta məktəbdə təhsil alıb.

2015-ci ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecinə daxil olub və 2019-cu ilədək "Gəmilərin təmiri" ixtisasına yiyələnib.

Kolleci bitirdikdən sonra müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına yollanıb.

Xidmətdə olduğu dövrdə Vətən müharibəsində iştirak edib.

Sanitar-rabitəçi əsgər kimi Füzulidən başlanan döyüş yolu Cəbrayıldan, Xocavənddən, Hadrutdan və nəhayət Şuşadan keçib.

Dəfələrlə yaralı əsgər yoldaşlarını döyüş meydanından çıxarıb.

Oktyabrın 18-də bölüyün baş giziri Eldar Abdullayev və MAXE Mansur Teymurov qəhrəmancasına şəhid olublar. İgidlərimiz də onların qanını yerdə qoymayıblar.

Ən çətin döyüşləri silahdaşlarının şəhid olduğu döyüşləri sayır. Onun təsəvvüründə hətta onlarla işğalçını cəhənnəmə göndərəndə də, bir igidimizin belə şəhid olması böyük itki idi.

Qələbə xəbərini Şuşada eşidib. MAXE Tunar Əhmədov qaça-qaça gələrək ona və əsgər yoldaşı Mirxaliq Məmmədova düşmənin təslim olduğunu söyləyib.

Müharibədən əvvəl ən böyük arzusu ərazi bütövlüyümüzün təmin olunmasında iştirak etmək olub. Qələbədən sonra isə azad olunan torpaqlarımızı ailəsi ilə birgə qarış-qarış gəzmək istəyir.

Pərviz beş nəfərdən ibarət ailədə böyüyüb. Bir bacı, bir qardaşı var. Narahat olmalarını istəmədiyi üçün ön cəbhədə olduğunu Qələbə gününədək bütün doğmalarından gizlədib.

Sinəsini "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları bəzəyir.

# Pərviz Natiq oğlu Sadıqov

**“Cəbrayılın azad olunmasına görə”** medalı

**“Füzulinin azad olunmasına görə”** medalı

# *Qələbəmizin əzəmətli alınmasında payı olan dənizçi*

Vətən müharibəsi sübut etdi: hər qarış torpağımız üçün Pərviz Sadıqov kimi döyüşməyə, lazım gələrsə, canından keçməyə hazır olan minlərlə oğulları var Azərbaycanın. Belə igidləri olan xalqın gözündən sevinc heç vaxt əskik olmaz, inşallah. Qələbəmizin əzəmətli alınmasında payı olan bu igidi siz də yaxından tanıyın.

"Ordubad" gəmisinin elektriki Pərviz Natiq oğlu Sadıqov 1995-ci il oktyabrın 31-də Salyan rayonunun Yenikənd kəndində dünyaya göz açıb.

2002–2013-cü illərdə kənddə Salman Cəfərov adına tam orta məktəbdə təhsil alıb.

2013-cü ildə daxil olduğu Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecini 2019-cu ildə bitirib.

2014–2015-ci illərdə Ordu sıralarında müddətli həqiqi hərbi xidmət keçib.

2020-ci il sentyabrın 21-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin çağırışı əsasında təlimlərə qatılıb.

Əsgər kimi Füzulidən başlayan döyüş yolu Cəbrayıl, Xocəvənd, Qubadlı, Laçın və Şuşadan keçib.

Füzulinin Alxanlı kəndi istiqamətində ilk döyüşə atılıb. Ən çətin döyüşü də Füzuli rayonu ərazisində olub. Ermənilərin keçilməz hesab etdikləri və fəxrlə "Ohanyan" səddi adlandırdıqları əraziləri işğalçılardan təmizləyiblər. Torpaqlarımızın hər qarışı əsgər və zabitlərimizin hünəri, möhtəşəm döyüş taktikası hesabına geri alınıb. Qələbə xəbərini Xocavəndin Yuxarı Tağlar kəndində eşidib.

– Məğrurluğumuzu, vüqarımızı özümüzə qaytaran Qələbə ilk növbədə dövlət başçımızın müdrik siyasətinin nəticəsi idi, – deyir Pərviz Sadıqov. – Azərbaycanın iqtisadi qüdrəti olmasaydı, Ordumuzu dünyanın ən güclü ordularından birinə çevirmək mümkün idimi? Güclü olmayan ordu ilə qələbə qazanmaq isə xam xəyaldan başqa bir şey deyil.

İnşallah, işğaldan azad edilən bütün torpaqlarımızı xalqımız elə Qələbəmizin memarının rəhbərliyi ilə cənnətə döndərəcək. Bunu dövlətimizin başçısı da, xalqımız da çox istəyir. İstəyirlərsə, istədikləri kimi də olacaq. Belə olub həmişə. Vətən müharibəsində də belə oldu.

Pərviz Sadıqov 2020-ci ilin son günü Ordudan tərxis edilib.

Atası Natiq kişi sürücü işləyir, anası evdar qadındır. Bir qardaşı var. Pərviz evin sonbeşiyidir.

"Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

# Rasim Nazim oğlu Məmmədov

**“Kəlbəcərin azad olunmasına görə”** medalı

# *“Birlik bizə həm də ölkəmizin daha da qüdrətlənməsi üçün lazımdır”*

“Dövlətimizin başçısı ərazilərimizin beşdə biri yağı tapdağı altında olanda bütün beynəlxalq tribunalardan qətiyyətlə bəyan edirdi ki, əzəli Azərbaycan torpaqlarında ikinci erməni dövlətinin yaranmasına imkan verməyəcək. Belə də oldu. Azərbaycan XXI əsrdə öz ərazi bütövlüyünü bərpa etməyə nail olmuş yeganə ölkədir.”

Bi fikri Vətən müharibəsinin iştirakçısı olan Rasim Məmmədov söyləyib.

Rasim Nazim oğlu Məmmədov 1998-ci il sentyabrın 3-də Masallı rayonunun Bədəlan kəndində doğulub.

2004–2015-ci illərdə Dəmirçi kənd orta məktəbində, 2015–2019-cu illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecində təhsil alıb.

Kolleci bitirdikdən sonra 2019-cu ilin iyulunda Ordu sıralarına çağırılıb.

Vətən müharibəsi başlayanda müddətli həqiqi hərbi xidmətdə olduğundan ilk gündən döyüşlərdə iştirak edib. Murovdağ, Camışdağ, Ömər aşırımı... uğrunda döyüşlərin heç biri asan keçməyib. Bu döyüşləri həm də Kəlbəcərin özünün relyefi, havası xeyli çətinləşdirib.

– Vətən müharibəsini belə möhtəşəm Qələbə ilə başa çatdırmağımızın əsas səbəbi birlikdə güclü olmağımıza inamımız idi, – deyir Rasim Məmmədov. – Bu birliyin bundan sonra da qorunub saxlanmasına çalışmalıyıq. Xalqımıza birlik də, Qələbə də çox yaraşır. Digər sahələrdə də dünyanı heyran qoyacaq belə möhtəşəm uğurların əldə edilməsi üçün bir-birimizə həmişə arxa-dayaq olmalıyıq. Bu birlik bizə müstəqil Azərbaycanın daha da qüdrətlənməsi üçün lazımdır. Güclü, qüdrətli Azərbaycan isə bizi gözü götürməyənlərin bütün təzyiqlərinə baxmayaraq, istənilən strateji hədəfini reallaşdırmaq əzmində və iqtidarındadır.

Atası Nazim kişi mebel ustası, anası Gülbəniz xanım evdar xanımdır. Rasim evin böyük övladıdır. Bacısı Aysel tələbədir. Savaş günlərində ən böyük arzusu evə başıuca – Qələbə ilə qayıtmaq olub.

Rasim Məmmədov 2021-ci ilin iyulunda Ordu sıralarından tərxis olunub.

Dövlət başçısı İlham Əliyevin Sərəncamı ilə “Kəlbəcərin azad olunmasına görə” medalı ilə təltif edilib.

# Rəhman Ramin oğlu Əsgərov

**“Suqovuşanın azad olunmasına görə”** medalı

**“Füzulinin azad olunmasına görə”** medalı

**“Şuşanın azad olunmasına görə”** medalı

# *“Biz qəhrəman xalqın ən xoşbəxt nəslinin nümayəndəsiyik”*

Rəhman Ramin oğlu Əsgərov 2000-ci il oktyabrın 9-da Şabran şəhərində doğulub.

Şabran şəhərindəki Tofiq Abbasov adına 1 nömrəli tam orta məktəbi bitirdikdən sonra “Elektrik mexaniki” ixtisasına yiyələnmək arzusu ilə 2015-ci ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecinə daxil olub.

2019-cu ilin iyulunda müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına yollanıb.

Xidmətinin on beşinci ayında Vətən müharibəsi başlayıb. Talış–Suqovuşan istiqamətində döyüşlərdə şücaət göstərib. Sonra Füzulini yağı tapdağından xilas etmək istəyən igidlərə arxa-dayaq durub. Xüsusi Təyinatlı Qüvvələrimizə dəstək üçün Şuşaya gedib çıxana kimi hər qarış torpağımız üçün canından keçməyə hazır olub.

Ən çətin döyüşü Suqovuşan uğrunda olub. Düşmənin atdığı mərminin təsirindən bir müddət görmə qabiliyyətini itirib.

Deyir ki, Qələbəni Ali Baş Komandanımız İlham Əliyevin qətiyyəti, xalqımızın dəstəyi və Ordumuzun rəşadəti ilə qazandıq.

– Xalqımız qəhrəman xalqdır, – deyir Rəhman Əsgərov. – Biz isə qəhrəman xalqın ən xoşbəxt nəslinin nümayəndələriyik. Niyə? Çünki torpaqlarımızı düşmən tapdağından azad etmək şərəfi bizim nəslə nəsib oldu. Bəxtimiz bir də onda gətirdi ki, döyüş meydanına atılanda Ali Baş Komandanımız məhz Prezident İlham Əliyev kimi müdrik sərkərdə idi. Sərkərdələr isə müdrik olanda bir orduya bərabər olurlar.

Qələbə xəbərini Şuşada eşidib və həm də gələcək nəslin rahat yaşaya biləcəyinə sevinib.

Doğmaları – atası Ramin kişi, anası Kəmalə xanım, bacıları Rəhmanın necə igid olduğunu Vətən müharibəsindən sonra biliblər. 2021-ci ilin iyulunda tərxis olunan Rəhmanın sinəsində “Suqovuşanın azad olunmasına görə”, “Füzulinin azad olunmasına görə”, “Şuşanın azad olunmasına görə” medallarını görəndə böyük qürur hissi keçiriblər.

# Ruslan Ətraf oğlu Rəhimov

**“Cəsur döyüşçü”** medalı

**“Suqovuşanın azad olunmasına görə”** medalı

# *Müharibə bitən gün yaralanan və Qələbədən iki gün sonra xəbər tutan cəsur döyüşçü*

Vətən müharibəsinin ilk günündən könüllü sinəsini qalxana çevirib Ruslan. Ölkəmizin ərazi bütövlüyünün təmin olunması üçün canından keçməyə hazır olan bu igidi bütün Azərbaycanın yaxından tanıması gərəkdir.

Hazırda Xəzər Dəniz Neft Donanmasının Gəmi Təmiri Emalatxanasında gəmi çilingəri işləyən Ruslan Ətraf oğlu Rəhimov 1990-cı il aprelin 21-də Bakı şəhərində dünyaya göz açıb.

1996–2004-cü illərdə 165 nömrəli məktəbdə təhsil alıb.

2004–2008-ci illərdə 14 nömrəli peşə liseyində "Kompüter mühasibatlığı" ixtisasına yiyələnib.

2008-ci ildə müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına çağırılıb.

2012-ci ildə Hərbi Dəniz Qüvvələrində baş mühərrikçi kimi xidmət edib. 2014-cü ildən Hərbi Dəniz Qüvvələrinin xüsusi təyinatlıları sırasına qatılıb. Qüsursuz xidməti bir çox təltiflərlə, o cümlədən "Azərbaycan Ordusunun 100 illiyi (1918–2018)" medalına layiq görülüb. 2019-cu ildə ailə vəziyyətinə görə Ordu sıralarından ehtiyata buraxılıb.

Vətən müharibəsi başlayanda könüllü olaraq ön cəbhəyə yollanıb. Oktyabrın 10-dan xüsusi təyinatlı baş kəşfiyyatçı kimi döyüş yolu Talış kəndindən başlayıb. Sonra Suqovuşanın yağı tapdağından azad edilməsi döyüşlərində fəal iştirak edib. Ən çətin döyüşü də Suqovuşan uğrunda olub. Murov istiqamətində gedən döyüşlərdə də işğalçılara qan uddurub. Müharibənin son günü – noyabrın 10-da ağır yaralanıb. Bədənində çoxsaylı qəlpə yaraları və ağır kəllə-beyin travması ilə huşsuz vəziyyətdə xəstəxanaya çatdırılıb. İki gün sonra özünə gəlib və Qələbədən də onda xəbər tutub...

Vətən sevgisi və xalqımızın birliyinin Qələbənin qazanılmasında mühüm rol oynadığına əmindir. Vətən müharibəsində ən çox Qələbə barədə düşünüb.

İgidlik, qorxmazlıq Ruslana, şübhəsiz ki, qanla keçib. Atası Ətraf Rəhimov Çernobıl qəzasının nəticələrinin aradan qaldırılmasında iştirak edib, Birinci Qarabağ müharibəsində igidlik göstərib. Əmisi Səməndər də Birinci Qarabağ müharibəsinin qazisidir. Anası Sevil xanım evdar qadındır. Qardaşı Emil də vətənpərvərlik ruhunda böyüyüb.

Ruslan həm də xoşbəxt atadır. Ömür-gün yoldaşı Saibə xanım Raidə adlı bir mələk bağışlayıb ona.

Müharibəyə gedəndə bircə atası bilib. O da "Qələbə ilə qayıt!", – deyib.

Ərazilərimizin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirmiş, düşmənin əsas qruplaşmalarını və texnikasını məhv etməklə qoşunlarımızın döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqlənmiş Ruslan Rəhimov Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.



# Sahib Zaur oğlu Muradbəyli

**“Xocavəndin azad olunmasına görə”** medalı




**“Füzulinin azad olunmasına görə”** medalı

# *Döyüş medallarını hər igidin yaxasından asmırlar*

"2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin bütün cəbhəboyu ağır artilleriyadan istifadə etməklə hücuma keçməsi və birbaşa mülki əhalini hədəfə alması igidlərimizi işğalçılarla onların başa düşə biləcəyi "dil"də danışmağa məcbur etdi. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad edilməsi ilə bitən bu savaş həm də dünyanın gözünü açdı, bizə baxışları dəyişdi. Qalib dövlət, məğrur xalq kimi tanındıq."

Bu fikir Xəzər Dəniz Neft Donanmasının "Ramiz Hacıyev" kran gəmisinin motorçusu Sahib Muradbəyliyə məxsusdur və dünyada bizə baxışların dəyişməsində Vətən müharibəsi qəhrəmanlarından biri kimi onun da xidməti var.

Sahib Zaur oğlu Muradbəyli 1995-ci il aprelin 19-da Neftçala rayonunun Xəzərkənd kəndində doğulub.

2001–2010-cu illərdə Neftçala şəhərindəki "Muğan" liseyində orta təhsil alıb.

2011-ci ildə 6 saylı peşə liseyinə daxil olub və 2014-cü ilədək burada "Matros-motorçu və gəmi təmiri çilingəri" ixtisasının incəliklərinə yiyələnib.

Məktəbi bitirdikdən sonra müddətli həqiqi hərbi xidmətə çağırılıb və 2016-cı ilin yanvarında Ordu sıralarından tərxis olunub.

Vətən müharibəsinə ürəyinin hökmü ilə gedib.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinə müraciətdən sonra ön cəbhəyə yollanıb. Rabitə manqa komandiri kimi Füzuli, Xocavənd, Cəbrayıl rayonlarının işğaldan azad olunmasında fəal iştirak edib.

İlk dəfə düşmənlə Füzulinin Alxanlı kəndində üz-üzə gəlib. İşğalçıların nə qədər hiyləgər və qorxaq olduğunu da elə ilk döyüşdə görüb.

Qələbə xəbərini Xocavənddə eşidib.

Atası Zaur kişi hazırda işləmir. Anası Əsli xanım müəllimədir. Özündən böyük bir bacısı var.

Cəbhəyə getmək istədiyini biləndə təkcə atası deyil, anası Əsli xanım da "Bu sənin Vətən qarşısında övladlıq borcundur", – deyib.

O ki, qaldı övladlıq borcunu necə yerinə yetirməyinə, "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medallarını hər igidin yaxasından asmırlar ki!

# Samir Ədalət oğlu Nəsibov

**“Laçının azad olunmasına görə”** medalı

# *“Qalib xalqın övladları kimi qürurlu günlər yaşayırıq”*

“Xalqların böyüklüyü sayına görə deyil. Biz də Vətən müharibəsində böyük xalq olduğumuzu bütün dünyaya göstərdik. Zəfərdən sonra müzəffər ölkənin vətəndaşı və qalib xalqın övladları kimi qürurlu günlər yaşayırıq. Belə olacaq həmişə!”

Bu kəlmələr ay-ulduzlu, üçrəngli bayrağımızın Azərbaycanımızın bütün guşələrində dalğalanması uğrunda gedən döyüşlərdə iştirak edən Samir Nəsibovun dilindən çıxıb.

Samir Ədalət oğlu Nəsibov 1998-ci il sentyabrın 1-də Bakı şəhərində dünyaya göz açıb.

2006–2015-ci illərdə 112 saylı tam orta məktəbdə təhsil alıb.

2015-ci ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecinə daxil olub və 2019-cu ildə “Ətraf mühitin qorunması və təbii ehtiyatlardan səmərəli istifadə” ixtisası üzrə bitirib.

2019-cu ilin iyulunda müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına yollanıb. Tərxis olunmasına 3 ay qalmış müharibə başlayıb.

Talış–Suqovuşan istiqamətində gedən döyüşlərdə, Laçının müdafiəsinin təmin olunmasında fəal iştirak edib.

Ən çətin döyüşü “Ağ uçuq” deyilən yüksəklik uğrunda olub.

– Qəlbi Vətən sevgisi ilə döyünən qəhrəman əsgər və zabitlərimiz düşməni qabağına qataraq iti qovan kimi qovdu, – deyir Samir Nəsibov. – İkinci Qarabağ savaşından əvvəl özlərini məğlubedilməz hesab edənlər müharibənin sonunda məğlub olduqlarını bildirən aktı yalvara-yalvara imzaladılar. Otuz ildə döyüşə bilməməyimiz haqqında böhtan yayanlar Qələbəmizdən sonra daim biabırçı məğlubiyyətin ağrı-acısı ilə yaşayacaqlar.

2021-ci ilin iyulunda tərxis olunub.

Ailənin tək övladıdır. Atası haqq dünyasındadır.

Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında igidlik və şücaət nümayiş etdirən Hüseynağa Əsgərov Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə “Laçının azad olunmasına görə” medalı ilə təltif edilib.

# Samir Sakit oğlu Şəbizadə

**“Suqovuşanın azad olunmasına görə”** medalı

# *“Düşmən arxalı olsa da, Ordumuz yenilməz idi”*

“Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun 2020-ci il sentyabrın 27-də işğalçı Ermənistan silahlı qüvvələrinə qarşı başladığı əks-hücum əməliyyatı şanlı Qələbəmiz, düşmənin tam məğlubiyyəti ilə yekunlaşdı. 44 gün davam edən Vətən müharibəsi Ermənistanın öz ordusu barədə yaratdığı “məğlubedilməzlik” təsəvvürünü yerlə-yeksan etməklə yanaşı, müstəqil Azərbaycan dövlətinin qüdrətini, şanlı Ordumuzun nəyə qadir olduğunu bütün dünyaya nümayiş etdirdi.”

Bu sözlərin yiyəsi Samir Şəbizadə də bütün dünyada böyük əks-səda doğuran möhtəşəm Qələbəmizin əldə edilməsi üçün canından keçməyə hazır olub.

Samir Sakit oğlu Şəbizadə 1998-ci il yanvarın 19-da Biləsuvar şəhərində dünyaya göz açıb.

2004–2015-ci illərdə Şıxəli Qurbanov adına 2 nömrəli tam orta məktəbdə təhsil alıb.

2015-ci ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecinə daxil olub və 2019-cu ildə “Gəmi energetik qurğularının istismarı” ixtisası üzrə bitirib.

2019-cu ildə müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına yollanıb.

Vətən müharibəsi zamanı hərbi xidmətdə olub.

Əsgər kimi Suqovuşanın azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib.

Artilleriya atəşi ilə başlayan ilk döyüşdə çiyin-çiyinə verdiyi əsgər yoldaşlarının şücaətinə özü də heyran qalıb. Belə igidlərlə xalqımıza Qələbə sevincini yaşatmağın çox da çətin olmayacağına inanıb.

Qələbə xəbərini döyüşdə olanda eşidib. 2021-ci ildə tərxis olunub.

– Düşmən zəif deyildi, – deyir Samir Şəbizadə. – Üstəlik himayədarları var idi. Sadəcə, Ordumuz sözün həqiqi mənasında yenilməz idi. Elə ona görə Ermənistanın otuz illik işğalına qısa zamanda son qoya və çox məkrli düşməni təslim olmağa məcbur edə bildi.

Cəsur gənc Samir Şəbizadə ”Suqovuşanın azad olunmasına görə” medalı ilə təltif edilib.

# Samir Nizami oğlu Şirməmmədli

**“Cəbrayılın azad olunmasına görə”** medalı

**“Qubadlının azad olunmasına görə”** medalı

# *Xəsarət alanda da döyüş meydanını tərk etməyən cəsur pulemyotçu*

Xəzər Dəniz Neft Donanmasının "Zülfü Hacıyev" kran gəmisinin motorçusu Samir Nizami oglu Şirməmmədli 1999-cu il fevralın 22-də Neftçala rayonunun Qırmızıkənd kəndində doğulub.

Gəmidə işləmək uşaqlıq arzusu olub. Bu arzunun qəlbində boy atmasında əmisi oğlu Bəhruzun da "günahı" var. Azərbaycan Dövlət Dəniz Akademiyasının məzunu olan Bəhruz hazırda gəmiqayırma zavodunda mühəndis işləyir.

2006–2016-cı illərdə kənddə Əli Səmədov adına tam orta məktəbdə oxuyub.

2016-cı ildə "Kainat" Tədris Mərkəzində motorçu peşəsinin sirlərinə yiyələnən Samir hazırda Həştərxan şəhərində qiyabi ali təhsil alır.

2017-ci ilin aprelindən 2018-ci ilin oktyabrınadək Ordu sıralarında müddətli həqiqi hərbi xidmət keçib.

Xalqımızın qəhrəman oğlu Polad Həsimov şəhadətə yüksələndən sonra könüllü cəbhəyə getmək üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinə müraciət edib. Vətən müharibəsi başlayanda gəmidə olub. Sentyabrın 28-də gəmi Bakıya qayıdıb və Samir dərhal rayon hərbi komissarlığına üz tutub. Sentyabrın 29-dan artıq pulemyotçu kimi ön cəbhədə olub.

İlk dəfə Cəbrayıl şəhəri uğrunda döyüşlərdə düşmənlə üz-üzə gəlib. Elə ilk döyüşdə də düşmənin təbiət etibarı ilə qorxaqlığının şahidi olub. Sayca çox olmalarına baxmayaraq, "Dostlar bulağı" qarşısında silahlarını da ataraq qaçıblar.

Samir Şirməmmədlinin dediklərindən: "Taborumuz üçün ən cətin döyüş oktyabrın 30-da başladı və üç gün davam etdi. Qubadlı şəhərini işğaldan tam azad edib, Ermənistanla sərhəddə dayandıq. Düşmən bütün qüvvəsi ilə hücuma keçdi. Bu çətin döyüşlərdə itkimiz az olmadı, hətta tabor komandirimiz – polkovnik-leytenant Nail Orucov şəhidlik zirvəsinə ucalsa da, bir addım belə geri çəkilmədik. Düşməni daha böyük itkilərə məruz qoyaraq, geri çəkilməyə məcbur etdik. Bu gün də fəxr edirəm ki, Qubadlı şəhərinə ilk daxil olan birinci taborun tərkibində mən də var idim."

Cəsur əsgər noyabr döyüşlərində əlindən və ayağından qəlpə yarası alsa da, onları yüngül xəsarətlər hesab edərək döyüş meydanını tərk etməyib.

Qələbə xəbərini Qubadlıda eşidib. Samirin müşahidəsinə görə, Qələbəni biz qazansaq da, ordusunu tar-mar etdiyimiz düşmən müharibənin bitməsinə bizdən az sevinməyib. Təbii ki, daha böyük itkilərdən yaxa qurtardığı üçün...

Könüllü cəbhəyə getmək istədiyini eşidəndə atası "Get, oğul. Lazım gəlsə, mən də əlimə silah alacağam", – deyib.

Samir Şirməmmədli Qələbədən sonra Daşaltı və Xocavənd rayonunun Tuğ, Qırmızı Bazar və Xocalının Sığnaq kəndlərində xidmət edib. 2021-ci il yanvarın 10-da tərxis olunub.

"Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.

# Səbuhi Əvəz oğlu Mirzəyev

**“Xocavəndin azad olunmasına görə”** medalı

**“Füzulinin azad olunmasına görə”** medalı

# *Qələbə üçün bir iş görmədən ölmək istəməyən igid*

"Başımıza gətirilən bütün müsibətlərə baxmayaraq xalqımızın qəhrəmanlığına zərrəcə şübhə etmədiyim kimi, Azərbaycan Silahlı Qüvvələrinin dünyanın hərb tarixinə yeni səhifə yazmaq qüdrətində olduğuna da inanırdım. Arzu edirdim ki, igidlərimiz Zəfər yürüşünə çıxanda, mən də aralarında olum. Allaha çox şükürlər olsun ki, Qarabağ savaşı başlayan gündən bütün şəhidlərimizin – Xocalıda, digər yaşayış məskənlərimizdə soyqırıma məruz qalan günahsız insanların, sadəcə azərbaycanlı olduğu üçün qətlə yetirilənlərin... qanı yerdə qalmadı. Şəhidlərimizin intiqamını ərazi bütövlüyümüzü bərpa etməklə aldıq."

Bu sözlər Vətən sevgisi sərhəd tanımayan bir dənizçinin – Xəzər Dəniz Neft Donanmasının "STB-1" gəmisinin motorçusu Səbuhi Mirzəyevin qəlbindən qopub.

Səbuhi Əvəz oğlu Mirzəyevin Vətənə sevgisi kimi, dənizə sevgisi də təsadüfü deyil. 1998-ci il avqustun 1-də Bakı şəhərində dünyaya göz açıb. Halal dənizçi çörəyi və atasının dənizlə bağlı maraqlı söhbətləri ilə böyüdüyündən erkən yaşlarından taleyini mavi sularla bağlamaq qərarına gəlib.

2004–2015-ci illərdə 158 saylı orta məktəbdə təhsil alıb.

2017-ci ildə müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına gedib və 2018-ci ilin iyununda tərxis olunub.

Vətən müharibəsi başlayanda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Yasamal rayon şöbəsinə üz tutub və könüllü cəbhəyə getmək istədiyini bildirib. Sentyabrın 30-da artıq işğalçılara qan udduran igidlərimizin sırasında olub.

Füzuli və Xocəvənd rayonlarının azadlığı uğrunda əsgər kimi vuruşub. Çətin döyüşləri az olmasa da, işğalçılardan təmizlənən hər yaşayış məskəni digər igidlərimiz kimi, Səbuhinin də gücünə güc qatıb.

O günləri xatırlayan Səbuhi deyir: "Ali Baş Komandanımızın hər çıxışı Qələbəyə inamımızı artırırdı. İşimiz haqq işi olduğu üçün Allah da bizimlə idi. Ölümdən qorxmurdum. Buna hazır idim. Torpaqlarımızı işğaldan azad etmək üçün əlimə silah almışdım. Amma, Qələbə üçün bir iş görmədən ölmək istəmirdim. Heç istəmirdim..."

Qələbə xəbərini də düşməni qova-qova gedib çıxdığı Xocəvənddə alıb.

Bir bacısı var. Cəbhəyə gedəndə bütün doğmaları ona mənəvi dayaq olublar. Dekabın 8-də onlara qovuşub.

Səbuhi Mirzəyev çox igid, cəsur gənclərimizdəndir. Bunu layiq görüldüyü "Xocəvəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları da "deyir".

# Şahin İnşallah oğlu Hüseynov

**“Suqovuşanın azad olunmasına görə”** medalı

# *“Düşmən hər təxribatı ilə bizi savaşa çağırırdı”*

Şahin İnşallah oğlu Hüseynov 1999-cu il oktyabrın 8-də İmişli rayonunun Qaradonlu kəndində dünyaya göz açıb.

Sumqayıt şəhərindəki 16 saylı tam orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecində “Gəmi sürücülüyü” ixtisası üzrə təhsil alıb.

2020-ci ilin aprelində müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına çağırılıb.

Hərbi xidmətdə olduğu müddətdə Vətən müharibəsi başlayıb və Şahin də ilk gündən artilleriya batareyasının kəşfiyyatçı-məsafəölçən əsgəri kimi döyüşlərdə fəal iştirak edib.

Sentyabrın 27-si səhər saatlarında düşmənin Ağdərə və Suqovuşandan etdiyi hücumlara müxtəlif ağır artilleriya texnikalarından yaylım atəşləri ilə cavab veriblər. Nəticədə düşmənin xeyli sayda canlı qüvvəsini, texnikasını məhv ediblər. Tərtər rayonunun Səhləbad, Əskipara, Dəmirçilər kəndlərinin və Suqovuşanın işğaldan azad olunmasında igidlik göstərib.

Oktyabrın 3-də Suqovuşan uğrunda gedən döyüşlər daha ağır keçib. Buna baxmayaraq, istədiklərinə nail olublar, işğalçıları Suqovuşandan çıxara biliblər.

– Hələ 2016-cı il Aprel və 2020-ci il Tovuz döyüşləri zamanı Azərbaycan Ordusu düşmənə öz gücünü göstərmişdi, – deyir Şahin Hüseynov. – Amma Ermənistan o vaxtlar aldığı sarsıdıcı zərbələrdən nəticə çıxarmaq əvəzinə, işğalçılıq siyasətini davam etdirir, təxribatçı bəyanatlar verirdi. 2020-ci il sentyabrın 27-də isə yaşayış məntəqələrimizi və döyüş mövqelərimizi şiddətli artilleriya atəşinə tutdu və bu təxribat nəticəsində hərbi qulluqçularla yanaşı, ikisi uşaq olmaqla, 11 dinc sakinimiz də həlak oldu. Bu, açıq-açığına bizə “Şələni qoy, gəl dalaşaq” demək idi. Biz də düz 44 gün – noyabrın 10-da Ermənistanın kapitulyasiyasına kimi yağı ilə dalaşdıq.

Şahin Hüseynov deyir ki, ara-sıra könlündən işğaldan azad olunmuş torpaqlarda yaşamaq da keçir. Havası, suyu... sanki Cənnətindir.

Atası 2019-cu ildə haqq dünyasına qovuşub. Şahin ailənin böyük oğludur. Bir qardaşı var.

Doğmaları Vətən müharibəsində igidliklə döyüşməsindən xəbər tutanda Şahinlə qürur duyublar.

2021-ci ilin oktyabrında Ordu sıralarından tərxis olunub.

“Suqovuşanın azad olunmasına görə” medalı ilə təltif edilib.

# Toğrul Midhəd oğlu Ağayev

**“Ağdamın azad olunmasına görə”** medalı

# İgidlikdə atasına çəkən oğul

"Rəşadətli Ordumuz işğal altında olan torpaqlarımız uğrunda müqəddəs savaş apardığı 44 gündə xalqımız bəlkə də tariximizin heç bir dönəmində rast gəlinməyən möhtəşəm birlik nümayiş etdirdi. Kiçikdən böyüyə hamı bir nəfər kimi Ali Baş Komandanımızın rəhbərliyi ilə Ordumuzun apardığı sülhə məcburetmə əməliyyatlarını dəstəklədi. O günlərdə bütün azərbaycanlıların ürəyi birgə döyündüyündən, əsgər və zabitlərimizin Zəfər yürüşü belə möhtəşəm alındı. Torpaqlarımızı bütövləşdirən birliyimizin qədrini bilməliyik."

Bu sözləri Vətən müharibəsində ölümün gözlərinə dik baxmağı bacaran Toğrul Ağayev söyləyib.

Toğrul Midhəd oğlu Ağayev 2000-ci il iyulun 4-də Bakı şəhərində doğulub.

Cavid Nurməmmədov adına 108 saylı tam orta məktəbdə təhsil alıb.

2015–2019-cu illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecində "Gəmi energetik qurğularının istismarı" ixtisasına yiyələnib.

2019-cu ilin iyulunda müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına yollanıb.

Vətən müharibəsi başlayanda hərbi xidmətdə olub.

Manqa komandiri kimi Ağdam rayonunun işğaldan azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib.

– Terrorçuluğu dövlət siyasətinə çevirən Ermənistan nə beynəlxalq hüquqa, nə insan haqlarına məhəl qoyurdu, – deyir Toğrul Ağayev. – Hərbi əməliyyatların getdiyi ərazidən onlarca kilometr aralıda yerləşən və heç bir hərbi infrastruktura malik olmayan yaşayış məskənlərimizi raket atəşinə tuturdu. Erməni xislətindən doğan bu cinayətlər xalqımızı sarsıtmağa, qələbə əzmimizi yox etməyə hesablanmışdı. Amma bu məsələdə də yanılmışdılar. Dinc əhalimizin hədəfə alınması, yatdıqları yerdə körpələrin, qadınların, yaşlıların həyatına son qoyulması ilə bağlı çəkdiyimiz ağrı-acılar bizi torpaqlarımızı belə namərdlərdən mümkün olduğu qədər tez təmizləməyə çağırırdı.

2021-ci ilin iyulunda tərxis olunub.

2022-ci ilin mayından ASCO ailəsinin üzvüdür. Xəzər Dəniz Neft Donanmasına məxsus "Usuxçay" gəmisində motorçu işləyir.

Toğrul igidlikdə atasına çəkib. Birinci Qarabağ müharibəsinin qazisi olan atası Midhəd Ağayev də xalqımızın güvəndiyi mərd, cəsur oğullarındandır. Anası Elduzə xanım evdar qadındır.

Qardaşı Ülfət dənizçidir, matros işləyir.

"Ağdamın azad olunmasına görə" medalı ilə təltif edilib.

# Toğrul Zəfər oğlu Səfərli

**“Cəbrayılın azad olunmasına görə”** medalı

**“Qubadlının azad olunmasına görə”** medalı

# *Döyüş meydanında düşmənə aman verməyən cəsur dənizçi*

Toğrul Zəfər oğlu Səfərli 1997-ci il sentyabrın 11-də Cəlilabad rayonunun Sabirabad kəndində dünyaya göz açıb.

2004–2015-ci illərdə kənddə Nizami Məmmədov adına 1 saylı tam orta məktəbdə təhsil alıb.

2015-ci ilin oktyabrında müddətli həqiqi hərbi xidmətə yollanıb. 2016-cı ilin Aprel döyüşlərində iştirak edib. Cocuq Mərcanlı və Tapqaraqoyunlu istiqamətlərində gedən döyüşlərdə cəsarəti ilə seçilib.

Toğrul Səfərli 2017-ci ilin aprelində Ordu sıralarından tərxis olunduqdan sonra "Kainat" Tədris Mərkəzində motorçu peşəsinin sirlərinə yiyələnib. Şərəfli dənizçi peşəsinə marağını isə təsadüf saymaq olmaz. Əmisi Faiq Balabəyli "Şamaxı" gəmisinin kapitanıdır...

İkinci Qarabağ savaşı başlayanda könüllü cəbhəyə yollanıb. Füzulinin, Cəbrayılın və Qubadlının işğaldan azad olunması uğrunda gedən döyüşlərdə düşmənə aman verməyən igidlərimizdən olub.

İlk döyüşü Füzuli istiqamətində olub. Səhər tezdən düşməni ağır artilleriya atəşinə tutublar. Rayon mərkəzinə kimi dayanmadan irəliləyiblər. Sonra Cəbrayıl uğrunda gedən döyüşlərdə iştirak edib. Rayon avtovağzalının geri alınması uğrunda gedən döyüşlərdə 6 əsgərimiz şəhadətə ucalıb, 15 əsgərimiz yaralanıb. Bununla belə, igidlərimiz istəklərinə nail olublar. Qubadlı uğrunda gedən döyüşlər də asan keçməyib. Amma Vətən sevgisi, torpaqlarımızı işğalçılardan təmizləmək istəyi bütün maneələrdən daha güclü olub...

Qələbə xəbərini Qubadlı rayonunda eşidib. Müharibədən əvvəl ən böyük arzusu əzəli torpaqlarımızın yağı tapdağından azad edilməsində yaxından iştirak etmək olub. Böyük Zəfərdən sonra isə ərazi bütövlüyümüzün və milli birliyimizin əbədi olmasını arzulayır.

Üç bacının tək qardaşıdır Toğrul. Qələbədən sonra ailə qurub.

Müharibəyə getməsindən valideynləri sonradan xəbər tutublar. Narahat olsalar da, cəsur oğulları ilə haqlı olaraq fəxr ediblər.

2021-ci ilin iyunundan Xəzər Dəniz Neft Donanmasının "Atlet-8" kran gəmisində motorçu işləyən Toğrul Səfərlinin sinəsini "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları bəzəyir.

Onunla çiyin-çiyinə vuruşanlar da təsdiq edərlər ki, bu mükafatlar ona ana südü kimi halaldır.

# Toğrul Agim oğlu Xankişizadə

**“Xocavəndin azad olunmasına görə”** medalı

**“Füzulinin azad olunmasına görə”** medalı

**“Şuşanın azad olunmasına görə”** medalı

# İxtisası üzrə işləmək üçün ASCO-ya "CV" göndərən gəncdən Vətən "imtahan götürüb"

"Vətən müharibəsindən əvvəl də məkrli düşmən və onun havadarları çox yaxşı bilirdilər ki, Qarabağ əzəli Azərbaycan torpağıdır! Anlamadıqları tamam başqa şey idi. Ata-baba yurdumuzun hər qarışının bizim üçün nə qədər əziz, nə qədər müqəddəs olduğunu bilmirdilər. Bilmirdilər ki, torpaqlarımıza əl uzadanların gec-tez əlini kəsəcəyik. Bilmədikləri üçün də işğal etdikləri ərazilərimizi bütün vasitələrlə özününküləşdirməyə çalışırdılar. İkinci Qarabağ savaşından nə qədər ağıllandıqlarını deyə bilmərəm. Lakin bunu çox yaxşı anladılar ki, suverenliyimizə, ərazi bütövlüyümüzə və xalqımızın təhlükəsizliyinə yenidən hər hansı bir təhdid olsa, Azərbaycan legitim özünümüdafiə hüququndan tərəddüdsüz istifadə edəcək."

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin "Suraxanı" gəmi-muzeyinin elektriki Toğrul Xankişizadənin bu qənaəti ilə razılaşmayan çətin tapılar.

Toğrul Agim oğlu Xankişizadə 1997-ci il iyulun 15-də Neftçala rayonunun Bankə qəsəbəsində dünyaya göz açıb.

2003-cü ildə Neftçala şəhərindəki Elton Həbibov adına 4 saylı tam orta məktəbin birinci sinfinə daxil olub.

2013–2017-ci illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecində "Gəmi energetik qurğularının və avtomatik vasitələrinin istismarı" ixtisasına yiyələnib.

2018–2019-cu illərdə Ordu sıralarında müddətli həqiqi hərbi xidmət keçib.

2020-ci ildə ASCO-da işləmək üçün "CV" göndərib. Lakin müsabiqədə iştirak edə bilməyib. Çünki Toğrul həmin vaxt daha çətin bir "imtahana" yollanıb. Könüllü getdiyi ön cəbhədə Vətən sevgisindən hər gün, hər saat, hər an imtahan verib. Sentyabrın 27-də düşmənin qəfil hücumunun qarşısını alanların arasında olan Toğrulun Füzulidən başlayan döyüş yolu sonra Cəbrayıldan, Xocavənddən, Şuşadan keçib. Əzəli yaşayış məskənlərimiz – Hadrut və Ağoğlan qəsəbələri, Sığnaq kəndi… uğrunda döyüşlərin istənilən imtahandan asan keçmədiyini söyləyir.

2021-ci il yanvarında tərxis olunub.

Bu da cəsur gəncin Vətənin çətin günlərində verdiyi imtahanın nəticələri: Toğrul Xankişizadənin igidliyi və şücaəti "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə qiymətləndirilib.

# Turan İbrahim oğlu Qəhrəmanlı

**“Kəlbəcərin azad olunmasına görə”** medalı

# *Vətən sevgisi sərhəd tanımır*

Ailənin tək övladıdır. Amma ailənin yeganə övladı olması da Turanı Vətənin dar günündə əlinə silah almaqdan saxlaya bilməzdi. Bunu atası İbrahim kişi də, anası Minayə xanım da yaxşı bilirdi. Turanın Vətən sevgisi sərhəd tanımırdı. Və müstəqil Azərbaycanın ərazi bütövlüyünün BMT-nin qəbul etdiyi sərhədləri çərçivəsində təmin edilməsi üçün canından keçməyə hazır idi.

Turan İbrahim oğlu Qəhrəmanlı 1995-ci il sentyabrın 1-də Bakı şəhərində dünyaya göz açıb.

2002–2013-cü illərdə 296 nömrəli tam orta məktəbdə təhsil alıb.

2013–2015-ci illərdə Ordu sıralarında müddətli həqiqi hərbi xidmət keçib.

2015-ci ilin noyabrından taleyini bir vaxtlar atasının da çalışdığı ASCO ilə bağlayıb. Azərbaycan Dövlət Dəniz Akademiyasının yataqxanasında operator işləyir.

Xalqımızın qəhrəman oğlu – general-mayor Polad Həşimov şəhidlik zirvəsinə ucalanda bir çox gənclər kimi, Turan da Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) rayon şöbəsinə ərizə ilə müraciət edərək cəbhəyə getmək istədiyini bildirib. Vətən müharibəsi başlayanda yenidən SHXÇDX-nin qapısını kəsib. İki gün sonra artıq cəbhədə olan igidlərimizlə çiyin-çiyinə verib.

Sıravi əsgər kimi Kəlbəcər uğrunda döyüşlərdə fəal iştirak edib. İlk döyüşü "Ömər postu" uğrunda olub.

Vətən müharibəsindən danışarkən bildirib ki, İlham Əliyev kimi Ali Baş Komandanla Zəfər qazanmamaq mümkün deyildi.

Sıralarında xidmət etməkdən qürur duyduğu Ordudan 2020-ci il dekabrın 13-də tərxis olunub.

Dövlətimizin və ASCO-nun rəhbərliyinin müharibə iştirakçılarına göstərdiyi diqqət və qayğıdan məmnundur.

– Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin 2020-ci il sentyabrın 27-də başlayan əks-hücum əməliyyatı işğalçı erməni ordusunun darmadağın edilməsi ilə nəticələndi, – deyir Turan Qəhrəmanlı. – Xalqımızın "Dəmir yumruq" ətrafında sıx birləşməsi, gənclərimizin Vətən sevgisi, əsgər və zabitlərimizin şücaəti sayəsində işğal altındakı torpaqlarımız yağı tapdağından azad edildi və müstəqil Azərbaycanın ərazi bütövlüyü ilə birlikdə tarixi ədalət bərpa olundu.

Cəsur gəncin sinəsini "Kəlbəcərin azad olunmasına görə" medalı bəzəyir.

# Ülvi İlkin oğlu Zeynallı

**“Suqovuşanın azad olunmasına görə”** medalı

# *Mükəmməl taktika rəşadətli Ordumuza döyüş əməliyyatlarını sürətlə həyata keçirməyə imkan verib*

"Ali Baş Komandan İlham Əliyevin uzaqgörən siyasəti, Silahlı Qüvvələrimizin dünyanın ən qüdrətli ordularından birinə çevrilməsi üçün həyata keçirdiyi ardıcıl tədbirlər nəticəsiz qala bilməzdi. Qalmadı da! Vətən müharibəsində igidlərimiz işğalçıların illərlə möhkəmləndirdikləri müdafiə xətlərini sürətlə yarıb keçdikcə, düşmən də canını qurtarmaq üçün atıcı silahlarını, ağır texnikalarını, raket komplekslərini... ataraq qaçmağa çalışırdı."

Bu sözlər xalqımızın cəsur oğlu Ülvi Zeynallının dilindən çıxıb.

Ülvi İlkin oğlu Zeynallı 2000-ci il martın 6-da Cəlilabad rayonunun İnili kəndində doğulub.

Məlik Əliyev adına Abışabad kənd tam orta məktəbində təhsil alıb.

Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecində "Gəmi sürücülüyü" ixtisasına yiyələnib.

2020-ci ilin iyulunda müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına yollanıb. 2021-ci ilin son günü tərxis olunub.

Vətən müharibəsi başlayanda hərbi xidmətdə olub.

Əsgər kimi döyüş yolu Tərtərdən, Suqovuşandan, Ağdərədən keçib.

Düşmənlə ilk dəfə Tərtər rayonunun Dəmirçilər kəndi ərazisində yerləşən Mübariz İbrahimov adına postda üz-üzə gəlib. Qəhrəmanın adına layiq döyüşməyə çalışıblar.

Ağdərə, Talış və Murovdağ silsiləsi uğrunda gedən döyüşlərin heç biri asan keçməyib.

Cəbhədə ən çox düşməni məğlub etmək barədə fikirləşib.

Qələbə xəbərini Suqovuşanda növbəti döyüşə hazırlıq ərəfəsində eşidib.

Zəfərdən sonra ən böyük arzusu işğaldan azad edilən torpaqlarımızı qarış-qarış gəzməkdir.

Atası İlkin müəllim Cəlilabad rayonunun Təhsil şöbəsində baş məsləhətçi işləyir. Anası Elnarə xanım evdar qadındır. Ailənin ikinci övladı olan Ülvinin bir bacı və bir qardaşı var.

Torpaqlarımızın işğaldan azad olunmasında iştirakı ilə fəxr edir. Sevinir ki, Qələbədə az da olsa, payı var.

– Mükəmməl hərbi strategiya və taktika rəşadətli Ordumuza döyüş əməliyyatlarını sürətlə və az itki ilə həyata keçirməyə imkan verdi, – deyir Ülvi Zeynallı. – "Dəmir yumruq" azğın düşmənin işğalçı siyasətinə layiqli cavab idi.

"Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.

# Ünal Zəfər oğlu Fətullayev

**“Füzulinin azad olunmasına görə”** medalı

**“Şuşanın azad olunmasına görə”** medalı

# *Yağıya göz açmağa imkan verməyən gəmi təmirçisi*

ASCO-nun "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunun gəmi takelajçısı Ünal Fətullayev 1999-cu il oktyabrın 9-da Kürdəmir rayonunun Qoçulu kəndində doğulub.

Ünal Zəfər oğlu Fətullayev 2006–2017-ci illərdə Bakı şəhərində Etibar Əliyev adına 162 nömrəli tam orta məktəbdə təhsil alıb.

2019-cu ildə 14 nömrəli peşə məktəbinə daxil olub və 2020-ci ilin iyununda "Tankerlərdə yükləmə-boşaltma əməliyyatçısı" ixtisası üzrə bitirib.

2017-ci ilin oktyabrından 2019-cu ilin aprelinədək Ordu sıralarında müddətli həqiqi hərbi xidmət keçib.

Vətən müharibəsi başlayan gün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Səbail rayon şöbəsindən çağırış vərəqəsi alıb. Sentyabrın 29-da artıq ön cəbhədə olub.

Əsgər kimi döyüş yolu Füzulidən başlayıb. Sonra Hadrutdan, Xocavənddən, Şuşadan keçib.

– Hər an həyatını itirə biləcəyin müharibədə heç nə asan əldə edilmir, – deyir Ünal. – Amma əzəli torpaqlarımızı işğaldan azad etmək istəyi nə qədər güclü idisə, Qələbəyə gedən yol da o qədər qısaldı. Siz bir-birindən igid, cəsur əsgərlərimizin yağının üstünə necə getdiyini görəydiniz! Düşmən bəzən göz açmağa imkan tapmırdı...

Qələbə xəbərini Hadrut qəsəbəsində meşədə olarkən eşidib. 2021-ci il yanvarın 18-də tərxis olunub. Qələbədən sonra könlündən daha çox işğaldan azad edilən torpaqlarımızı qarış-qarış gəzmək keçir.

Atası 2014-cü ildə haqq dünyasına qovuşub. Anası Şamama xanım evdar qadındır. Ünal ailənin ilkidir. Bir qardaşı var – Elmi ondan 2 yaş kiçikdir. Cəbhəyə gedəndə qardaşı da həqiqi hərbi xidmətdə olub. Buna baxmayaraq, Şamama xanım Ünalı fikrindən daşındırmaq istəməyib. Deyib ki, "Vətəni qorumaq hər oğulun borcudur. Emil öz borcunu yerinə yetirir. Sən də get və öz borcunu yerinə yetir."

"Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları da Ünal Fətullayevin borcunu layiqincə yerinə yetirdiyini təsdiq edir.



# Amil Kamil oğlu Məmmədov

**“Xocavəndin azad olunmasına görə”** medalı

**“Füzulinin azad olunmasına görə”** medalı

**“Şuşanın azad olunmasına görə”** medalı

**“Vətən müharibəsi iştirakçısı”** medalı

# *“Dövlətimizin başçısı hər çıxışında qalib gələcəyimizə inam yaradırdı”*

“Ərazimizin beşdə biri işğal altında olduğu illərdə mənən çox sıxılsaq da, müqəddəs üçrəngli bayrağımızı əzəli torpaqlarımızda dalğalandıracağımıza ümidimizi heç vaxt itirmədik. Bunda da möhtərəm Prezidentimiz İlham Əliyevin xidməti böyük idi, çünki hər çıxışında xalqımızda qalib gələcəyimizə inam yaradırdı. Ölkəmizin ərazi bütövlüyünü təmin edəcəyimizə hamıdan çox inanırdı və inandırırdı. Xalqımız da borclu qalmadı: 2020-ci ilin sentyabrında əks-hücum əməliyyatlarının başladığı ilk gündən Ali Baş Komandanın ətrafında sıx birləşdi. Vətən müharibəsində qazandığımız parlaq Zəfər həm də sübut etdi ki, Azərbaycan uğrunda canından keçməyə hazır olanların sayı ən azı əlinə silah ala bilən övladlarının sayı qədərdir.”

Bu sözlər özü də Odlar Yurdunun belə övladlarından olan Amil Məmmədovun dilindən çıxıb.

Amil Kamil oğlu Məmmədov 1999-cu il dekabrın 27-də Xaçmaz rayonunun Qusarçay kəndində dünyaya göz açıb.

Kənddə Arif Məmmədov adına tam orta məktəbi bitirdikdən sonra dənizçi olmaq arzusu ilə ölkəmizin paytaxtına üz tutub. Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecinə daxil olub. Bu təhsil ocağında “Gəmi energetik qurğularının istismarı” ixtisasına yiyələnib.

2019-cu ildə müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına yollanıb.

Vətən müharibəsi başlayanda hərbi xidmətdə olduğundan ilk gündən sinəsini düşmənin hücumlarına sipər edib. Füzulidən başlanan döyüş yolu sonra Xocavənd və Şuşadan keçib.

Ən çətin döyüşləri Şuşa uğrunda olub. Alınmaz qala sayılan Şuşa Amil kimi igidlərimizin şücaəti ilə geri qaytarıldı.

Qələbə xəbərini də Şuşada eşidib. Düşmənin məğlubiyyətini rəsmi olaraq elan etməsini böyük sevinlə qarşılayıb.

– Vətən müharibəsində yeni hərbi strategiyanın tətbiqi işğalçıları 44 günə təslim olmağa məcbur etdi, – deyir Amil Məmmədov. – Bu Zəfərin təminatçısı ilk növbədə Müzəffər Ali Baş Komandanımız idi. Ordumuz çox güclü idi, haqlı olmağımız isə bizə mənəvi güc verirdi. Əminəm ki, möhtəşəm Qələbə ilə bütün şəhidlərimizin ruhu dinclik tapdı.

Altı nəfərdən ibarət ailədə böyüyüb: atası təqaüdçü, anası evdar qadındır. Üç qardaşı var. Amil evin sonbeşiyidir.

Vətən uğrunda döyüşməyindən şərəf duyur. Bundan sonra da yolunda hər cür fədakarlığa hazırdır.

Amil Məmmədov “Xocavəndin azad olunmasına görə”, “Füzulinin azad olunmasına görə”, “Şuşanın azad olunmasına görə” və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edilib.

# MÜNDƏRİCAT


ÖN SÖZ ƏVƏZİ 10 11

## VƏTƏN CANDAN ŞİRİNDİR

Elşən Quluzadə 14
Neçə igidə tay olub... 15

Elçin Həsənli 16
Atasının oğlu haqqında deyə biləcəyi ən yaxşı sözləri, övladı canından artıq istədiyi Azərbaycana sevgisi ilə deyib 17

Cavidan Ağayev 18
Onun üçün dünya bir yana idi, Vətən bir yana 19

Elsevər Yarıyev 20
Sentyabrda doğuldu, sentyabrda da ən uca zirvəyə ucaldı 21

Məmmədağa Səfərov 22
"Xalqına, torpağına bağlı olan Məmmədağa üçün Azərbaycanın bütövlüyü hər şeydən daha vacib idi" 23

Orxan İsmayılov 24
Qələbə ilə qayıdacağını demişdi 25

Pərviz Məmmədov 26
Vətən üçün doğulmuşdu... 27

Emil Quluyev 28
Ölümün gözünə dik baxa-baxa ölümsüzlüyə qovuşan igid 29

# MÜNDƏRİCAT

## ÖNCƏ VƏTƏN! – DEDİLƏR


Tural İskəndərzadə 32
Hər döyüşün öz çətinliyi olub ..... 33

Ramin Qədirov 34
"Biz istəyimizə nail olmağı bacaran qüdrətli xalqıq" ..... 35

Emil Abbaszadə 36
Döyüşdüyünü doğmalarından yalnız atası bilib, o da "Qələbəsiz evə qayıtma!" deyib ..... 37

Altay Səfərli 38
Bu gün də fəxr edir ki... ..... 39

Aqşin Əlizadə 40
Qələbə hər bir azərbaycanlının qəlbini didən ağrı-acıya birdəfəlik son qoydu ..... 41

Asif Allahverdiyev 42
Qələbədə hər bir azərbaycanlının payı var ..... 43

Cəfər İsmayılov 44
Hər döyüşə həm də şəhidlərin qisasını almaq üçün atılan igid ..... 45

Elvin Hüseynov 46
Vətənin igidlərə həmişə ehtiyacı var ..... 47

Emin Məmmədov 48
İdarə etdiyi maşında qəlpələrin açdığı dəlmə-deşiklərin sayı-hesabı olmayıb ..... 49

Əhmədağa Əzizov 50
"Bir qarış torpağımızı da kiməsə güzəştə getmək fikrimiz olmayıb" ..... 51

Hüseyn Əlizadə 52
"Xalqımızın yurd sevgisi düşmənin bütün çirkin niyyətlərini ürəklərində qoydu" ..... 53

# MÜNDƏRİCAT


Kamil Əskərov 54
"Qələbəni torpaqlarımızın hər qarışı üçün canından keçməyə hazır olanların qəhrəmanlığı sayəsində qazandıq" ..... 55

Kamil Şirinov 56
İrəlilədikcə, Qələbə ətrini daha yaxından hiss ediblər... ..... 57

Kamran İmanov 58
Xəsarət alanda da döyüş meydanını tərk etməyib ..... 59

Mahmud Kərimli 60
Ad günündə düşmən təslim oldu ..... 61

Mehrac Əsədov 62
Fəxr ediləsi igid ..... 63

Nurlan Həsənov 64
"Uca Tanrı Azərbaycanın ərazi bütövlüyünü təmin edən igidləri xalqımıza çox görməsin!" ..... 65

Nurlan Şahbazov 66
Yurdumuzun ərazi bütövlüyünün bərpa ediləcəyinə zərrəcə şübhəsi olmayan dənizçi ..... 67

Osman Həsənov 68
"Qələbə bütün ağrı-acılarımızı unutdurdu" ..... 69

Pərviz Abbasov 70
Xalqımızın birliyi əsgər və zabitlərimizə əlavə güc verib ..... 71

Polad Qadaşov 72
"Qələbə üçün canından keçməyə hazır olmaq azdır" ..... 73

Ramal Rüstəmov 74
"Torpaqlarımıza göz dikənin gözlərini ovucuna tökəcəyik" ..... 75

Ramiz Əmirov 76
Torpaqlarımızın hər qarışı üçün şücaət göstərən igid ..... 77

# MÜNDƏRİCAT


Saleh Salahov 78
Odlar Yurdu igidlər sarıdan heç vaxt kasıb olmayıb ..... 79

Seyfulla Salmanov 80
Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun xidmət etdiyi ərazidə özünü ölümsüz hiss edən igid ..... 81

Təbriz Səmədov 82
Doğmaları döyüşdüyünü Vətən müharibəsində göstərdiyi igidlik və şücaətə görə təltif olunanda biliblər ..... 83

Tural İnqilablı 84
Əsgərin zabit, zabitin əsgərə görə canından keçməsinə hazır olduğu Ordu yenilməz ..... 85

Uğur Hüseynli 86
"Müharibədə cəsarət də bir silahdır" ..... 87

Ülvi Hüseynzadə 88
Düşmənin təslim olduğunu eşidəndə bu Zəfər üçün canından keçən dostlarını xatırlayıb ..... 89

Ümid Məhərrəmov 90
"Belə xalq üçün canından da keçməyə dəyər" ..... 91

Yusif Allahverdiyev 92
Doğmaları dənizdə xidmət etdiyini düşünəndə Murovdağa düşmənə qan uddurub ..... 93

Zaur Salmanov 94
Qələbədən əvvəl bir, Qələbədən sonra min arzusu olan gənc ..... 95

# MÜNDƏRİCAT

## ƏVVƏL ZƏFƏR, SONRA SƏFƏR


Murad Səmədov 98
"Vətən müharibəsində böyük xalq olduğumuzu bütün dünya gördü" ..... 99

Əli Cabbarov 100
"Düşmən "Dəmir yumruğ"umuzdan xəbərsiz idi" ..... 101

Əjdər Abdullayev 102
"Biz torpaqlarımızın işğaldan azad edilməsində ən çox"Dəmir yumruğ"umuza güvənirdik" ..... 103

Mönsüm İskəndərov 104
Dövlətinə də, xalqına da minnətdar igid ..... 105

Murad Əliyev 106
"Müharibəni işğalçılar başladı, biz isə onu Qələbə ilə başa vurduq" ..... 107

Rəsul Aslanlı 108
Bütün döyüşlərdə düşmənin üstünə cəngavər kimi atılıb ..... 109

Ağabala Həsənov 110
"Xalqımızın əsgər və zabitlərinə güvəndiyini hiss etmək çox xoş idi" ..... 111

Anar Xəlilov 112
"Qələbəmizin təməli döyüşdən əvvəl qoyulmuşdu" ..... 113

Anar Maqsudov 114
"Xalqımızın aciz olmadığını bütün dünyaya sübut etmək məhz gənclərimizin çiyninə düşürdü" ..... 115

Anar Məhərrəmov 116
Vətən müharibəsində Ordumuz xalqın sevgisi və inamından böyük güc alırdı ..... 117

Asim Bayramov 118
Vətən müharibəsində yağı gülləsinə sipər etdiyi sinəsini bu gün medallar bəzəyir ..... 119

# MÜNDƏRİCAT


Ceyhun Abuşov 120
"Xalqımızın rəşadətli Ordumuzdan Qələbə gözlədiyini bilirdik" ..... 121

Elnur Əhmədli 122
Taleyi ASCO-ya gətirib çıxarana kimi Vətən müharibəsində igidlik sınağına çəkilən dənizçi ..... 123

Elşad Vəliyev 124
Vətən müharibəsində həm də atasının qisasını alıb ..... 125

Elvin Nəzirov 126
Vətən müharibəsinin başlandığını eşidən kimi Vətənə tələsib ..... 127

Etibar Novruzov 128
"Biz ərazi bütövlüyümüzü təmin etmək üçün həm də güclü olduğumuzu sübut etməli idik" ..... 129

Əfqan Səftərli 130
"Möhtəşəm Zəfərin qazanılması üçün yüksək ruh çox vacibdir" ..... 131

Ələkbər Nağıyev 132
Qəhrəman oğullarımızın qazandığı Qələbə onlara layiq idi ..... 133

Əli Ağayev 134
"Birliyimiz haqq savaşamızın Qələbəmizlə bitməsində mühüm rol oynadı" ..... 135

Əliqismət Əliyev 136
"Savaşın ilk günlərindən bəlli oldu ki, müharibə çox çəkməyəcək" ..... 137

Əsgəralı Baxşıyev 138
"Haqq savaşı apardığımız üçün Allah da Qələbə qazanmağımızı istəyirdi" ..... 139

Fazil Məmmədov 140
"Vətən müharibəsi göstərdi ki, arzu etdiyimiz hər bir zirvəni fəth edə bilərik" ..... 141

Fərhad Səfərov 142
Sözü anda bərabər dənizçi ..... 143

# MÜNDƏRİCAT


Hafiz Dadaşev 144
"Biz eyni hədəfə vuranda, düşmən də başına döyür" ..... 145

Həsən Mustafayev 146
Övladlıq borcunu layiqincə yerinə yetirib ..... 147

Hüseyn Xudaverdiyev 148
Birliyimiz Qələbənin qazanılmasında mühüm rol oynadı ..... 149

Hüseynağa Əsgərov 150
"Qələbədən sonra ölkəmizdə hamı məğrur görünür" ..... 151

Xaliq Yusifov 152
"Azad etdiyimiz hər qarış torpaq Qələbəyə inamımıza inam qatırdı" ..... 153

Xəyal Dadaşov 154
"Qələbə xalqın inamını özünə qaytardı" ..... 155

İlkin Şamilov 156
"Xalqımız bizdən Qələbə gözləyirdi" ..... 157

İsgəndər Əsədov 158
Düşməni ot kimi biçən puleymotçu ..... 159

İsmayıl Məmmədli 160
"Bütün dünya bilirdi ki, Azərbaycan xalqı gec-tez öz cənnət məkanını geri qaytaracaq" ..... 161

İsmayıl Eyyublu 162
"Müharibədə həm də doğmaların üçün nə qədər əziz olduğunu anlayırsan" ..... 163

Kamran Tağıyev 164
"Qələbə sevincini heç bir sevinclə müqayisə etmək mümkün deyil" ..... 165

Kənan Zeynalov 166
Qələbədən sonra həyata baxışı və həyatı dəyişən igid ..... 167

# MÜNDƏRİCAT


Mais Cəfərov 168
"İşğalçı ordunun məğlubedilməzliyi barədə deyilənlər nağıl imiş" ..... 169

Mədət Alıyev 170
"Üçrəngli bayrağımızın işğaldan azad edilmiş torpaqlarımızda dalğalanmasından gözəl mənzərə yoxdur" ..... 171

Məhəmməd Hüseynov 172
"Zəfər asan əldə edilməyib" ..... 173

Murad Musayev 174
Vətən üçün böyüdülən oğul ..... 175

Mürsəl Əliyev 176
Xəsarət alanda da əlini tətikdən çəkməyən igid ..... 177

Mürsəl Mürsəlov 178
Azərbaycan əsgəri düşməndən dəfələrlə güclü olduqlarına da, ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəklərinə də əmin idi ..... 179

Namiq Şahlıyev 180
Vətənin keşiyində durmağa həmişə hazırdır ..... 181

Nihad Əhədzadə 182
Qələbə Ordumuza göstərilən qayğının bəhrəsi idi ..... 183

Nurlan Həsənov 184
"Mərmilərin partladığını görsəm də, səsini eşitmirdim" ..... 185

Pərvin Bəhrəmli 186
"Yenilməz Ordumuz barışığa gəlməyənləri ayagımıza gətirdi" ..... 187

Pərviz Babayev 188
Ön cəbhədə olduğunu Qələbə gününədək bütün doğmalarından gizlədib ..... 189

Pərviz Sadıqov 190
Qələbəmizin əzəmətli alınmasında payı olan dənizçi ..... 191

# MÜNDƏRİCAT


Rasim Məmmədov 192
"Birlik bizə həm də ölkəmizin daha da qüdrətlənməsi üçün lazımdır" ..... 193

Rəhman Əsgərov 194
"Biz qəhrəman xalqın ən xoşbəxt nəslinin nümayəndəsiyik" ..... 195

Ruslan Rəhimov 196
Müharibə bitən gün yaralanan və Qələbədən iki gün sonra xəbər tutan cəsur döyüşçü ..... 197

Sahib Muradbəyli 198
Döyüş medallarını hər igidin yaxasından asmırlar ..... 199

Samir Nəsibov 200
"Qalib xalqın övladları kimi qürurlu günlər yaşayırıq" ..... 201

Samir Şəbizadə 202
"Düşmən arxalı olsa da, Ordumuz yenilməz idi" ..... 203

Samir Şirməmmədli 204
Xəsarət alanda da döyüş meydanını tərk etməyən cəsur puleymotçu ..... 205

Səbuhi Mirzəyev 206
Qələbə üçün bir iş görmədən ölmək istəməyən igid ..... 207

Şahin Hüseynov 208
"Düşmən hər təxribatı ilə bizi savaşa çağırırdı" ..... 209

Toğrul Ağayev 210
İgidlikdə atasına çəkən oğul ..... 211

Toğrul Səfərli 212
Döyüş meydanında düşmənə aman verməyən cəsur dənizçi ..... 213

Toğrul Xankişizadə 214
İxtisası üzrə işləmək üçün ASCO-ya "CV" göndərən gəncdən Vətən "imtahan götürüb" ... 215

# MÜNDƏRİCAT


Turan Qəhrəmanlı 216
Vətən sevgisi sərhəd tanımır ..... 217

Ülvi Zeynallı 218
Mükəmməl taktika rəşadətli Ordumuza döyüş əməliyyatlarını sürətlə həyata keçirməyə imkan verib ..... 219

Ünal Fətullayev 220
Yağıya göz aşmağa imkan verməyən gəmi təmirçisi ..... 221

Amil Məmmədov 222
"Dövlətimizin başçısı hər çıxışında qalib gələcəyimizə inam yaradırdı" ..... 223

*Kitabı hazırlayanlar*

Mehman Mehdiyev
Rasif Tahirov
Sevda Abdullayeva
Gülşən Nəbiyeva
Musa Əliyev
Rövşən Abdurəhmanov
Roza Bədəlova
Tural İbrahimov

*Redaktor* Rasif İmanoğlu

*Dizayner* Hüseyn Rza-zadə